RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 31 (10051) 18 fevral 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Hərtərəfli strateji tərəfdaşlıq münasibətləri dərinləşir və yeni məzmun qazanır

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr!

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Sülh və harmoniyanın rəmzi, yeniliyin, ümidin, təbiətə minnətdarlıq hissinin təcəssümü olan bu qədim bayram bütün qayəsi ilə qarşılıqlı anlaşmanı, dostluğu və birliyi tərənnüm edir. Çin təqvimi ilə yeni ilin gəlişini qeyd edən Çuntsze bayramının xalqınıza xoş ovqat, firavanlıq və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Azərbaycan ilə Çin arasında möhkəm təməllər üzərində qurulmuş hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsi və yeni məzmun qazanması bizi sevindirir. Şübhəsiz ki, siyasi dialoqumuzun intensivliyi və qarşılıqlı anlaşma bu münasibətlərin daha sürətli inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Əminəm ki, Azərbaycan-Çin ənənəvi dostluq münasibətləri, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da güclənəcəkdir.

Bu bayram münasibətilə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Çin xalqına isə daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2026-cı il*



## Azərbaycan beynəlxalq münasibətlər sistemində güclü mövqelərə malikdir

Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur.

Prezident vurğuladı ki, bu yol çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta dəhlizin iki hissəsinə malik olacağıq: "Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək".

Bu isə ötən ilin avqust ayında Vaşinqtonda iki ölkə arasında əldə olunan razılaşmaların bölgə və daha geniş coğrafiyada əməkdaşlıq üçün praktik müstəvidə əhəmiyyətli imkanlar yaratdığını göstərir. Xüsusilə "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun (TRIPP) açılması Trans-Xəzər əməkdaşlıq çərçivəsini genişləndirir.

"...yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" tamamilə yeni vəziyyət yaradacaq. Çünki qeyd etdiyim kimi, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq", - deyə dövlətimizin başçısı panel müzakirələr zamanı bildirdi.

Azərbaycanın liderliyi ilə yürüdülən sülh prosesinin Cənubi Qafqazda inkişaf, əməkdaşlıq və tərəqqi vəd edən yeni reallıqlar yaratması beynəlxalq aləm tərəfindən də diqqətlə izlənilir və təqdir edilir. "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə də bu, xüsusi qeyd edildi.

Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə, sülh müqaviləsinin mətninin paraflanması faktiki olaraq regionda sülhü təmin edib. Sülh müqaviləsinin imzalanması isə Ermənistanın qarşıda siyasi iradə ortaya qoyaraq Konstitusiyasının preambula hissəsindən Azərbaycana qarşı ərazi iddiasını çıxarmasından asılı olacaq.

6

## "Azəri" 21 ildir Azərbaycanın "qara qızıl" xəzinəsidir



"Mərkəzi Azəri" platformasının digərlərindən bir mühüm fərqi də var. "Mərkəzi Azəri" ona körpü ilə birləşdirilmiş texniki platforma olan kompressor və suvurma qurğusu ilə birlikdə Xəzərdə ən böyük dəniz komplekslərindən biri sayılır. Bu kompleks AÇG-dəki digər platformalara və qurğulara vacib əməliyyatlar mərkəzi kimi də xidmət göstərir və öz geniş texniki imkanları sayəsində bütün əməliyyatların təhlükəsiz və etibarlı aparılmasını təmin edir.

Xatırladaq ki, "Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi haqqında Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) çərçivəsində hasilat İlkin Neft Layihəsi üzrə 1997-ci ilin noyabrında "Çıraq"dan başlanmışdı. "Azəri"nin işlənməsi isə növbəti mühüm mərhələni təşkil edirdi. "Azəri" AÇG layihəsi daxilində işlənən ən böyük yataqdır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə ilk axıdılan məhz bu yatağın nefti olub.

Bu baxımdan Azərbaycanı dirçəldən, beynəlxalq enerji "ailə"sinə qovuşduran "Əsrin müqaviləsi"nin salnaməsində 21 il əvvəlin bugünkü tarixinin - fevralın 18-nin xüsusi önəmi var. Məhz həmin vaxt AÇG layihəsi özünün kulminasiya nöqtəsinə çatıb.

Prezident İlham Əliyev "Mərkəzi Azəri" platformasındakı tədbirdə çıxış edərkən hadisənin əhəmiyyətini belə vurğulayıb: "Bu gün "Azəri" yatağında ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır".

9

## İlham Əliyevin geoiqtisadi konsensus doktrinası və yeni regional reallıq



İlham Əliyevin liderliyinin mahiyyəti Heydər Əliyev dövründə qurulmuş "balanslaşdırma və konsensus" modelini daha geniş geoiqtisadi-geoenerji ekosisteminə çevirməkdədir. Bu ekosistemin strateji hədəfi Azərbaycanı təkcə enerji ixracatçısı kimi deyil, Avrasiyanın əsas əlaqələndirici platforması kimi mövqeyə sahib olmasını təmin etmək və bununla da Cənubi Qafqazın geosiyasi orientirlərini dəyişməkdir.

Henri Kissinger diplomatiyanı "gücün cilovlanması sənəti" kimi xarakterizə edirdi. Bu yanaşma kontekstində İlham Əliyevin geosiyasi doktrinası strukturlaşdırılmış və mərhələli mexanizmi ilə seçilir. Sözügedən doktrina üçpilləli ardıcıllıq üzərində qurulub: birinci mərhələdə enerji infrastrukturu vasitəsilə tərəfdaşlıq şəbəkəsi və dayanıqlı resurs bazası formalaşdırılır; ikinci mərhələdə nəqliyyat-logistika infrastrukturu inkişaf etdirilərək Azərbaycan geoiqtisadi çəkisi yüksək olan tranzit platformaya çevrilir; üçüncü mərhələdə isə postmünaqişə dövründə kommunikasiyaların açılması və iqtisadi inteqrasiya yolu ilə sülhün institusional dayaqları yaradılır.

4

## VƏTƏNƏ DÜŞMƏNÇİLİK EDƏNLƏR

Bəzən insanlar hər hansı səbəbdənsə başqa ölkədə yaşamalı olurlar...

Normal və təbii haldır.

Amma əsl vətən övladları heç zaman doğma vətənlərini unutmurlar, daim ondan xəbər tutur, uğurlarına sevinir, kədərli günlərini bölüşür, gücü çatanda əlindən gələn köməyini əsirgəmirlər.

Vətən dilini unudub, dinini dəyişənlər də olur...

Bu da bir paralarının seçimidir...

Ən böyük rəzillik isə Vətənə xəyanətdir!

Bu, həm də bütün dövlətlərdə ən ağır cinayət sayılır!

Çünki Vətənə xəyanət təkcə Vətən adlı məkanda yerləşən dövlətə xəyanət deyil!

Vətənə xəyanət torpağına, suyuna, dostlarına, ata-anana, bütün cəddi-əqrəbana xəyanətdir!

Bundan da aşağısı və müdhişi isə Vətənə düşmən kəsilməkdir!

Bunun yalnız bir adı var: MURDARLIQ!

❖ ❖ ❖

"Vətən murdarları" üçün həyatda müqəddəs heç nə olmur...

Nə namus, nə qeyrət, nə şərəf, nə də ləyaqət hissi!

Nə ailə dəyərlərinin nə olduğunu bilirlər, bacı namusu, arvad qeyrəti çəkirlər, nə də kişilik barədə təsəvvürə malik olurlar.

Bütövlükdə belələrində insanlıqdan bir qram da əsər-əlamət qalmır!

Qəribədir ki, "vətən murdarları"nın əksəri "kişi" cinsindən olur.

Amma bütün varlıqlarında - nə mənən, nə də cismən kişiliyi xatırladan bir nişanə belə olmur!

Əslində, heç birinin cinsi də bilinmir!

Hansısa "oriyentasiya"ya malik olurlar!

Ona görə hamıya, xüsusən, uğur qazanmış insanlara, tanınmışlara, məşhurlara nifrət bəsləyirlər.

Həyatdakı uğursuzluqlarının, başlarına gələn müsibət və bəlaların qisasını uğur qazananlardan almağa can atırlar.

Belələri müəyyən muzd məbləğində kimlərinsə əlində alətə çevrilirlər.

Tərəddüd etmədən, çətinlik çəkmədən doğmalarını və dostlarını da rahatlıqla satırlar.

Bir vaxtlar vətəndaşı olduqları dövlətə qarşı açıq düşmənçiliyə keçirlər!

* Belələri kəsə bilmirlər, təkcə hürə bilirlər!

* Belələri zərər verə bilmirlər, ürək bulandırırlar!

* Belələri rəzilliklərinin, düşdükləri çıxılmaz vəziyyətin qisasını hamıdan, xüsusən keçmiş vətənlərinin vətəndaşlarından almağa çalışırlar!

Sonda öz yaratdıqları çirkab quyusunda murdar olaraq üfunətə çevrilirlər...

Amma bu üfunət keçmiş vətənlərinə gəlib çatmır!

Onlara pul və dil verənlərin, müdafiə və mühafizə edənlərin ömürlük qismətinə çevrilir!

5

## Azərbaycanın xarici siyasəti sülhsevərliyin nümunəsidir

### Bu həm də ölkəmizin milli maraqlarını təmin edir




2025-ci il oktyabrın 13-də Prezident İlham Əliyev Prezident Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Sülh Sammitində iştirak etmişdir. Tədbirdə ABŞ Prezidentinin Azərbaycan rəhbərinə göstərdiyi xüsusi rəğbət diqqət çəkmişdir. Dövlət başçısı sammitin işində aktiv iştirak etmişdir. Mühüm sənədin - sülh sazişinin imzalanması göstərdi ki, həmin tədbir Yaxın Şərqdə davamlı sülhün bərqərar olmasında mühüm rol oynayacaq. Son dövrlərdə İsrail-Fələstin münaqişəsinin həlli istiqamətində atılan addımlar bu proqnozu tam təsdiq etdi.

Sülh Şurası ümumilikdə "dünyada sabitliyin təşviqini, etibarlı və qanuni idarəetməni bərpa edən və münaqişədən təsirlənən ərazilərdə dayanıqlı sülh prosesini dəstəkləyən beynəlxalq təşkilat" kimi təqdim edilir. ABŞ Prezidenti Şülh Şurasının BMT-nin yaratdığı boşluğu doldurmaq məqsədilə yaradıldığını bəyan etmişdir. Azərbaycan 2026-cı il yanvarın 21-də yeni beynəlxalq təşəbbüsə qurucu üzvlərdən biri kimi qoşulmuşdur.

Bu cür təşkilatın yaradılması XXI əsrdə önəmli hadisədir. Onun məqsədinin qlobal miqyasda münaqişələrin həlli ilə bağlı olması xüsusi əhəmiyyət kəsb edir. Bu yeni geosiyasi düzənin formalaşması baxımından prinsipial əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bir sıra ekspertlər Sülh Şurasını "Beynəlxalq koalisiya" adlandırırlar.

Sülh Şurasının ilk "işi"nin İsrail-Fələstin münaqişəsinin diplomatik yolla həll edilməsi olacağı gözlənilir. Qarşıya qoyulan məqsəd göstərir ki, bu məsələdə Şülh Şurası uğur qazansa, qurumun nüfuzu xeyli artacaq. Ona görə də fikrimizcə, təşkilat problemlərin həlli ilə ciddi məşğul olacaqdır. Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycanın beynəlxalq platformalarda fəal iştirakı xüsusi qürurverici haldır.

7

# Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı

## YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

**Fevralın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı" adlı tədbir keçirilib.**





Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və partiyanın Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə təbrik edib: "Bugünkü tədbir partiyamızın, o cümlədən YAP Yasamal rayon təşkilatının ötən müddət ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna bir daha nəzər salınması baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov bildirib ki, bu gün dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və payı var: "Ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin gələcək taleyini müəyyən edən əlamətdar hadisələrdən biri məhz Yeni Azərbaycan Partiyasının yaradılması olmuşdur. Bu, sadəcə olaraq, bir partiyanın təsis olunması deyil, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin dönüş nöqtəsidir. Bəllidir ki, Yeni Azərbaycan Partiyasının yarandığı şərait olduqca mürəkkəb dövrə təsadüf edir. Hələ XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində istər SSRİ miqyasında, istərsə də respublika səviyyəsində dağıdıcı proseslər baş verərkən - sovetlər ittifaqının çöküşü fonunda digər bir sıra ölkələr kimi, Azərbaycan da olduqca çətin vəziyyətlə qarşılaşmışdı. Respublikada faktiki olaraq ictimai-siyasi böhran mövcud idi, iqtisadi tənəzzül, siyasi qeyri-müəyyənlik və vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və ölkəmizin bölgədə təcrid vəziyyətinə düşməsi ciddi təhdidlər, o cümlədən müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Belə bir şəraitdə məqsədyönlü siyasət nəticəsində milli birliyin təmin edilməsi, müstəqil dövlət quruculuğunun həyata keçirilməsi və Azərbaycanın təlatümlərdən xilas edilməsi zərurətə çevrilmişdi. Bunun üçün isə təcrübəli, qətiyyətli, vətənpərvər və milli maraqları hər şeydən üstün tutan güclü siyasi liderə ehtiyac var idi. Bu tarixi şəxsiyyət isə, heç şübhəsiz, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalq yalnız onun liderliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanıla və parlaq gələcəyinin qurula biləcəyinə inanırdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə müraciət edərək yeni, müstəqil Azərbaycan uğrunda Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi də məhz bu inamdan qaynaqlanırdı. Ulu Öndərin həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməsi isə taleyi sual altında olan Azərbaycanın gələcəyi naminə müstəsna əhəmiyyətə malik olmuşdur. Beləliklə, 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması Heydər Əliyevin bənzərsiz liderlik və fenomenal idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qısa müddət ərzində respublikanın bütün bölgələrində yerli təşkilatların yaradılması istiqamətində mühüm addımlar atılmış, müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi və qarşıda duran hədəflərə çatmaq üçün sistemli fəaliyyət həyata keçirilmişdir".

YAP Sədrinin müavini vurğulayıb ki, yeni dəyərlər yaradaraq siyasi mədəniyyət nümunəsi ortaya qoyan Yeni Azərbaycan Partiyasına göstərilən yüksək etimad onun ümumxalq partiyasına çevrilməsini şərtləndirmişdir: "YAP ölkədə keçirilən bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə - lider partiya olduğunu sübuta yetirmiş, hər bir siyasi marafondan uğurla və daha güclü çıxaraq siyasi sistemdə yerini daha da möhkəmləndirmişdir. Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi - milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görərək mühüm nailiyyətlərə imza atmışdır".

Tahir Budaqov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə, Azərbaycan dövlətini milli maraqlara, mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasəti ilə zirvələrə daşıyacaq lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra həm partiyamızın həyatında, həm də Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Ən əsası ölkəmiz öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksələrək regionumuz üçün də yeni perspektivlər yaratmışdır. Bu gün Cənubi Qafqazda Azərbaycanın konstruktiv siyasəti və prinsipial mövqeyi nəticəsində sülh və etimad quruculuğu uğurla həyata keçirilməkdədir".

"Hazırda sıralarında 750 mindən artıq vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, konstruktiv əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən, plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası müasir çağırış və hədəfləri əsas götürərək məqsədyönlü fəaliyyətini müvəffəqiyyətlə davam etdirir", - deyən YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib ki, bu, partiyamızın ictimai-siyasi dayaqlarını gücləndirir və xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir.

Tahir Budaqovun sözlərinə görə, YAP milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, partiyamızın və ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə hədəflənmiş mühüm tədbirlər reallaşdırır: "Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirmək əzmindədir. Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin mütərəqqi siyasi kursuna uyğun fəaliyyətini davam etdirən YAP Yasamal rayon təşkilatı da yeni dövrün reallıqlarından irəli gələn çağırışları diqqət mərkəzində saxlamalıdır. 1993-cü il fevralın 20-də yaradılan YAP Yasamal rayon təşkilatının sıralarında hazırda 34 min nəfərə yaxın üzv birləşmişdir ki, onlardan 18 mindən çoxu qadınlar, 2500-i isə gənclərdir. Bu böyük potensial rayon təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir".

"Ümummilli Liderimizin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Dünən Azərbaycan naminə tarixi məsuliyyəti öz üzərinə götürən Ulu Öndərin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri - Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP sabah da ümumxalq partiyası kimi fəaliyyətini uğurla davam etdirərək xalqımıza möhtəşəm nailiyyətlər qazandıracaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram. Yaşasın Ulu Öndərimizin qurucusu olduğu müasir müstəqil Azərbaycan dövləti və Heydər Əliyev dühasının xalqımıza böyük mənəvi-siyasi mirası olan Yeni Azərbaycan Partiyası! Vətənimizi, xalqımızı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə eşq olsun!", - deyə YAP Sədrinin müavini əlavə edib.

Sonra çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov qeyd edib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır: "Partiyanın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını və sarsılmaz olduğunu təsdiqləyir. Bu gün müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda Azərbaycan vətəndaşları Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərirlər. Bu istiqamətdə əldə olunan nailiyyətlərdə, heç şübhəsiz, YAP Yasamal rayon təşkilatının da özünəməxsus rolu vardır".

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyətində ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, beynəlxalq aləmdə layiqli yer tutması kimi əsas milli prioritetlər istiqamətində qurmaqla cəmiyyətdə yüksək nüfuza malik olub: "Gələcəyə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Əldə olunan uğurların siyasi müstəvidə möhkəmləndirilməsində Yeni Azərbaycan Partiyasının, eləcə də YAP Yasamal rayon təşkilatının mühüm xidmətləri var".

44 günlük Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, "Azərbaycan Bayrağı" ordenli Nurlan Mustafayevin anası, "H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rahilə Ramazanova bildirib ki, Yeni Azərbaycan Partiyası bu günədək xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib: "Bu gün partiyamızın gücü Ulu Öndər Heydər Əliyev ideyalarından və Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Prezident İlham Əliyev ölkəmizin nüfuzunu artırmaqla onu dünyada müstəqil xarici siyasət yürüdən dövlət və etibarlı tərəfdaş kimi tanıdıb. Tarixi Zəfərimizdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan dövləti Liderimiz İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləməkdədir".

Çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yolu keçib: "Yarandığı gündən Yeni Azərbaycan Partiyasının əsas məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaradılmasından ibarət olub. Partiya ötən müddət ərzində öz məqsədlərinə uyğun fəaliyyət göstərib, çox mühüm nailiyyətlər əldə edib. Ölkəmizin əldə etdiyi uğurlarda Yeni Azərbaycan Partiyasının müstəsna rolu var".

YAP Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən Bəxtiyar Nəbiyev qeyd edib ki, təşkilat yarandığı gündən bu günə qədər ictimai-siyasi həyatda öz uğurlu fəaliyyəti ilə hər zaman seçilib: "YAP Yasamal rayon təşkilatı Yeni Azərbaycan Partiyasının Proqramına uyğun fəaliyyəti ilə cəmiyyətin müxtəlif təbəqələrinin partiya ətrafında sıx birləşməsinə mühüm töhfələr verir. Təşkilatımız bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını uğurla təmin edəcəkdir".

Çıxışlardan sonra YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə partiyanın və rayonun ictimai-siyasi həyatında fərqlənən şəxslərə fəxri fərmanlar təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# *Professor:* "Orta dəhliz Azərbaycanın coğrafiyasını üstünlüyə çevirən strateji seçimdir"

**"Azərbaycan Prezidenti İlham Əliyev praqmatik və uzaqgörən siyasətçi kimi ölkənin geosiyasi mövqeyini dəqiq təhlil edərək dövlət siyasətinin əsas prioritetlərini müəyyənləşdirib. Azərbaycanın inkişaf strategiyasının mərkəzində güclü iqtisadiyyatın formalaşdırılması, siyasi-iqtisadi sabitliyin qorunması və uzunmüddətli dayanıqlı inkişaf dayanır.**
**Dövlət başçısı yüksək peşəkarlıqla ölkənin açıq dənizlərə və okeanlara birbaşa çıxışının olmamasını Asiya ilə Avropa arasında yerləşmənin yaratdığı strateji üstünlüklərlə uğurla kompensasiya edib. Bu baxımdan Orta dəhliz layihəsi Prezident İlham Əliyevin həyata keçirdiyi ən mühüm geosiyasi və geoiqtisadi təşəbbüslərdən biri kimi xüsusi əhəmiyyət daşıyır".**

Bu fikirləri Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri, professor Aygün Attar Azərbaycan Prezidentinin regional və qlobal proseslərdə həyata keçirdiyi siyasəti AZƏRTAC-a şərh edərkən deyib.



Onun sözlərinə görə, Trans-Xəzər marşrutu üzərindən reallaşan Orta dəhliz Azərbaycanın Avrasiya məkanında əsas nəqliyyat arteriyalarının kəsişdiyi nadir ölkələrdən biri statusunu daha da möhkəmləndirir. Professor qeyd edib ki, Orta dəhlizin potensialının tam şəkildə reallaşdırılmasında rəqəmsal infrastrukturun inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə atılacaq addımlar layihənin səmərəliliyini və rəqabət qabiliyyətini artıracaq.

"Prezident İlham Əliyevin bu istiqamətdə atdığı ardıcıl addımlar logistika xidmətlərinin təkmilləşdirilməsinə, vahid nəqliyyat operatorlarının yaradılmasına, texniki və tarif şərtlərinin müasirləşdirilməsinə, inzibati manelərin aradan qaldırılmasına və qapalı logistika dövrəsinin formalaşdırılmasına xidmət edir. Orta dəhlizin inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması üçün marşruta artan beynəlxalq maraqdan maksimum istifadə olunur, eyni zamanda infrastrukturun genişləndirilməsi məqsədilə yeni ölkələrin cəlb edilməsi istiqamətində mühüm addımlar atılır. Beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq Şərq-Qərb istiqamətində yüklərin daşınmasının sabitliyini və operativliyini təmin edəcək", - deyə professor bildirib.

O bildirib ki, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Vaşinqtonda paraflanmış sülh sənədinin Orta dəhlizin perspektivlərinə müsbət təsirini nəzərə alaraq, bu marşrutun əsas seqmentlərindən biri olan Zəngəzur (TRIPP) dəhlizinin regionda yeni əməkdaşlıq formatlarının formalaşmasına xidmət etməsi üçün mühüm addımlar atır. Bu təşəbbüs bölgədə sülhün möhkəmlənməsinə, qarşılıqlı etimadın artmasına və davamlı tərəqqinin təmin olunmasına mühüm töhfə verir.

"Türk dünyasını birləşdirəcək bu dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları Azərbaycanın ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutları ilə inteqrasiya olunacaq. Bu isə beynəlxalq daşımalar üçün Orta dəhlizi ən cəlbedici marşrutlardan birinə çevirir. Orta dəhliz alternativ yol deyil, əksinə, region dövlətləri ilə Azərbaycanın maraqlarının üst-üstə düşdüyü, bölgədə formalaşan sülh mühitinin yeni regional inkişaf modelinin avanqardına çevrilən strateji keçid yoludur. Bu dəhlizin tam işlək vəziyyətə gətirilməsi ticarət imkanlarını və yük dövriyyəsini əhəmiyyətli dərəcədə artıracaq", - deyə Aygün Attar qeyd edib.

Professor əlavə edib ki, Orta dəhliz həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində "qazan-qazan" prinsipinə cavab verən nadir marşrutdur və ilk növbədə Azərbaycanın, eləcə də bütövlükdə regionun inkişafında xüsusi rol oynayaraq yeni əməkdaşlıq formatlarının yaranmasına, sülhün və tərəqqinin möhkəmlənməsinə xidmət göstərəcək.

# Trans-Xəzər marşrutu regionda etimad və siyasi sabitliyi gücləndirən strateji təşəbbüsdür

**"Münxen Təhlükəsizlik Konfransında aparılan müzakirələrdə beynəlxalq münasibətlər sistemində çoxqütblülüyün gücləndiyi və regional güc mərkəzlərinin yüksəliş mərhələsinə daxil olunduğu xüsusi vurğulanıb. Konfrans çərçivəsində bildirilib ki, dünya artıq təkqütblü modeldən uzaqlaşıb, çoxqütblü struktur formalaşıb, regional güc mərkəzləri ön plana çıxıb və prinsipial qeyri-müəyyənliklərin artdığı yeni bir dövr başlanıb".**



Bunu AZƏRTAC-a açıqlamasında Türkiyənin Qaziantep Universitetinin professoru Ali Fuat Gökçe deyib.

Onun sözlərinə görə, qlobal nizamın gələcəyi bundan sonra yalnız hərbi balans amili ilə deyil, eyni zamanda iqtisadi dayanıqlılıq, texnoloji üstünlük və ictimai legitimlik kimi əsas göstəricilərlə müəyyənləşəcək: "Bu kontekstdə hərbi təhlükəsizliklə yanaşı, iqtisadi təhlükəsizlik məsələlərinin də ön plana çıxdığı diqqətə çatdırılıb. Bu yanaşma fonunda Trans-Xəzər marşrutu iqtisadi təhlükəsizlik siyasətlərinin mühüm tərkib hissəsi kimi aktuallaşır. Trans-Xəzər marşrutu Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, yalnız nəqliyyat və logistika layihəsi deyil, eyni zamanda regionda etimadın möhkəmləndirilməsi, əməkdaşlığın genişləndirilməsi və siyasi sabitliyin təmin olunması baxımından strateji əhəmiyyət daşıyan siyasi təşəbbüsdür. Bu marşrut bölgədə qarşıdurmaların qarşısını almaq, münaqişə yaşayan ölkələr arasında dialoq və əməkdaşlıq imkanlarını artırmaq baxımından birləşdirici funksiyaya malikdir".

Ali Fuat Gökçe vurğulayıb ki, ABŞ-nin Orta dəhliz və Trans-Xəzər təşəbbüslərinə müdaxiləsi diqqətlə izlənilməlidir. Onun fikrincə, əgər ABŞ bu ticarət və nəqliyyat dəhlizlərində iştirakını sırf iqtisadi məqsədlərlə məhdudlaşdırarsa və iqtisadi təhlükəsizlik çərçivəsində fəaliyyət göstərərsə, bu, region üçün problem yaratmayacaq.

"Lakin bu marşrutların siyasi alətə çevrilməsi, region ölkələri üzərində ayırıcı siyasətlərin aparılması, eləcə də regional güclər: Rusiya-İran, Azərbaycan-Türkiyə arasında mövcud balansın pozulmasına yönəlmiş addımların atılması bölgədə yeni qeyri-sabitlik riskləri yarada bilər. Bu baxımdan Trans-Xəzər və Orta dəhliz təşəbbüslərinin regional əməkdaşlıq, qarşılıqlı fayda və iqtisadi təhlükəsizlik prinsipləri əsasında həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan mövcud ictimai strukturu, iqtisadi potensialı və siyasi imkanları ilə regionda sabitliyi önə çəkən, qarşıdurmadan deyil, əməkdaşlıqdan çıxış edən siyasət yürütməyə üstünlük verir. Azərbaycanın bu potensialının milli suverenlik və ərazi bütövlüyünə hörmət çərçivəsində istifadəsi bütövlükdə regionun sabitliyinə mühüm töhfə verəcək", - deyə türk ekspert əlavə edib.

Ali Fuat Gökçe sonda onu da qeyd edib ki, strateji coğrafi mövqedə yerləşən Azərbaycanın indiyədək yürütdüyü humanist və sülhpərvər siyasət beynəlxalq ictimaiyyət tərəfindən nəzərə alınmalı, ölkənin ərazi bütövlüyünə və suverenliyinə hörmət göstərilməlidir. Məhz bu yanaşma Trans-Xəzər təşəbbüsünün uğurlu icrası və regionda uzunmüddətli sabitliyin təmin olunması üçün əsas şərtlərdən biridir.



# Leyla Əliyeva Tiranada Albaniyanın Baş naziri Edi Rama ilə görüşüb





**Leyla Əliyeva Albaniya Respublikasında səfərdədir.** AZƏRTAC **xəbər verir ki, Leyla Əliyeva səfər çərçivəsində Albaniyanın Baş naziri Edi Rama ilə görüşüb.**



Səmimi dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycan ilə Albaniya arasında əlaqələrin yüksək səviyyədə olduğu bir daha vurğulanıb.

Tərəflər mədəni əlaqələrin möhkəmləndirilməsini müzakirə edərək, incəsənətin birgə yaradıcılıq üçün universal vasitə kimi rolunu qeyd ediblər.

Söhbət zamanı Leyla Əliyeva və Edi Rama ekoloji məsələlərə xüsusi diqqət ayıraraq, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizədə səylərin birləşdirilməsinin vacibliyini qeyd ediblər.

# Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib

**Fevralın 17-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əli Hüseynli gündəliyə "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında" və bəzi qanunlarda dəyişiklik edilməsi barədə bir sıra qanun layihələrinin daxil edildiyini söyləyib.**




Komitə sədri əvvəlcə "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında" qanun layihəsini təqdim edib. O, Azərbaycanın hər zaman beynəlxalq hüquqa, öz üzərinə götürdüyü öhdəliklərə sadiq olduğunu vurğulayıb, İnsan orqanlarının alverinə qarşı Konvensiyaya qoşulmağın ali məqsədlərimizdən irəli gəldiyini bildirib.

Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, bu sahədə müəyyən əməllərin kriminallaşdırılmasının təmin edilməsi, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir.

Komitənin üzvü Nizami Səfərov məsələ barədə fikirlərini açıqlayaraq Azərbaycan Respublikasının bu Konvensiyaya xüsusi bəyanatla qoşulduğunu qeyd edib. Nəzərə çatdırılıb ki, bu, Ermənistanla münasibətlərin normallaşana qədər Konvensiyanın müddəalarının Ermənistanla münasibətdə tətbiq olunmaması ilə əlaqədardır.

Sonra Əli Hüseynli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Diqqətə çatdırılıb ki, layihə müvafiq qanunla elektron siqaretlərin və ya onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və ya pərakəndə satışı və ya istifadəsinin qadağan edilməsindən irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Sənədə əsasən, qeyd olunan əməllər inzibati xəta hesab edilərək İnzibati Xətalar Məcəlləsinə "Elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılması" adlı yeni 212-1-ci maddə əlavə edilir. Yeni maddədə qanunvericilikdə qadağan edilmiş yerlərdə, küçələrdə və digər ictimai yerlərdə elektron siqaretlərdən istifadə ilə bağlı cərimələrin tətbiqi, habelə elektron siqaretlərin və ya onların komponentlərinin idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılması halında inzibati xətanın bilavasitə obyekti olmuş malların müsadirə edilməsi və cərimələrin tətbiq olunması nəzərdə tutulur.

Məsələ barədə komitə üzvləri Kamran Bayramov və Azay Quliyev öz fikir və qeydlərini bölüşüblər.

Sonra komitə sədri Əli Hüseynli "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) məlumatı diqqətə çatdırıb. O qeyd edib ki, layihə yol hərəkəti qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Sənəddə "avtomagistral" anlayışı yeni redaksiyada təqdim edilir. Həmçinin ödənişli avtomagistrallarda sürət həddinin tənzimlənməsi ilə əlaqədar bir sıra dəyişikliklər nəzərdə tutulur. Belə ki, yaşayış məntəqələrindən kənarda minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri üçün sürət həddinin saatda 130 kilometrdən, digər avtobuslar, qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün isə saatda 90 kilometrdən çox olmayan həddə müəyyən edilməsi təklif olunur. Bununla yanaşı, layihədə nəqliyyat vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın mühafizə olunan duracağına aparılması ilə bağlı məsələlər öz əksini tapıb.

Onlayn iclasda, habelə Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) müzakirəyə çıxarılıb. Layihədə "Uşaq hüquqları haqqında" yeni qanun layihəsindən irəli gələrək uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması məqsədilə bir sıra qanunvericilik aktlarında müvafiq dəyişikliklər ehtiva olunur.

Bununla yanaşı, komitə üzvləri Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda nəzərdən keçiriblər. Layihə ölkəmizin "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulmasının dəstəklənməsi məqsədini daşıyır. Sənəddə emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu, saxlanılması, izlənməsi sahəsində dövlət nəzarəti mexanizminin yaradılması, habelə idxal və ixracla əlaqədar müəyyən olunacaq mexanizmin pozulmasına görə inzibati məsuliyyətlə bağlı məsələlər tənzimlənir.

Onlayn iclasın gündəliyində olan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# Yer təkindən istifadə sahəsində bir sıra qaydaların hüquqi əsası yaradılır

**Fevralın 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Sadiq Qurbanov iclası açaraq, gündəliyə bir məsələnin - "Yerin təki haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini diqqətə çatdırıb.**

Komitə sədri əvvəlcə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasətdə qazandığı uğurlardan söz açıb. O qeyd edib ki, balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursu ölkəmizin etibarlı tərəfdaş kimi nüfuzunu artırıb. Bildirilib ki, həyata keçirilən uğurlu diplomatik fəaliyyət nəticəsində beynəlxalq arenada mövqeyimiz daha da möhkəmlənib, bir sıra mühüm strateji tərəfdaşlıqlar qurulub. Komitə sədri bu nailiyyətlərin ölkənin dayanıqlı sosial-iqtisadi inkişafına, investisiya mühitinin daha da güclənməsinə müsbət təsirlərini vurğulayıb.

Sonra qanun layihəsini müzakirəyə təqdim edən komitə sədri bildirib ki, sənəddə qanunun yeddinci və on üçüncü maddələrinə dəyişiklik və qanuna bir maddənin (13.1-ci maddə) əlavə olunması təklif edilib. Bu layihə təbii ehtiyatlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, ekoloji balansın qorunması, dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunması və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılması məqsədlərinə xidmət edir.

İclasda Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi İdarə Heyətinin sədri Samir İdayətov layihə ilə bağlı ətraflı məlumat verib. O, layihənin "Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2024-cü il tarixli sərəncamına əsasən hazırlandığını deyib. Agentliyin sədri layihədə təklif olunan dəyişikliklərin əsas istiqamətlərindən bəhs edib. Bildirilib ki, sənəddə su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin, habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxurların istifadəsi yerin təkindən istifadənin növləri sırasına daxil edilir. Digər istiqamət yer təkindən istifadə sahəsində bir sıra qaydaların hüquqi əsasının yaradılması ilə bağlıdır. Qeyd olunub ki, qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar qəbul ediləcək.

Eyni zamanda layihədə yer təki istifadəçiləri tərəfindən istismardan sonrakı mərhələdə rekultivasiya işlərinin aparılması və dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə qaydalarının müəyyən edilməsi təsbit olunub.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədri Sadiq Qurbanov, komitə sədrinin müavini Fatma Yıldırım, komitə üzvləri Rövşən Muradov, Asif Əsgərov, Eyvaz Qurbanov, Vüqar Rəhimzadə çıxış edərək dəyişikliklərlə bağlı fikirlərini bildiriblər, suallarını səsləndiriblər.

Samir İdayətov deputatların suallarını cavablandırandan sonra qanun layihəsi baxılmaq üçün birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Ruben Vardanyana hökm oxunub

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi fevralın 17-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

İclasda təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin bir qismi və onların nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, həmçinin Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib.

Ötən il yanvarın 17-də başlamış və bir ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxsin barəsində yekun məhkəmə qərarı (hökm) elan edilib.

Elan olunub ki, təqsirləndirilən şəxsə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.3-cü maddəsi ilə elan edilmiş ittihamlar həmin Məcəllənin 228.2.1-ci maddəsinə tövsif edilib.

Bundan başqa, irəli sürülmüş ittihamdan Cinayət Məcəlləsinin 279.1 və 279.2-ci maddələri rəqəmlə ifadədə xaric edilib.

Elan edilib ki, Vardanyan Ruben Karlenoviç Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Xatırladaq ki, dövlət ittihamını müdafiə edən prokuror məhkəmə prosesində təqsirləndirilən şəxsin ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsini məhkəmədən xahiş etmişdi.

Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə təqsirli bilinib.




# İlham Əliyevin geoiqtisadi konsensus doktrinası və yeni regional reallıq

**Qlobal siyasətdə liderlik böhranların idarəsi ilə yanaşı, qeyri-müəyyənliyi strateji imkanlara çevirmək bacarığı ilə ölçülür. Tarixən imperiyalararası rəqabət məkanı olmuş Cənubi Qafqazda Azərbaycan İlham Əliyevin balanslaşdırılmış və geoiqtisadi yanaşması nəticəsində geosiyasi obyektlikdən subyektliyə yüksəlib. 44 günlük Vətən müharibəsində əldə olunan qələbə bu strategiyanın effektivliyini təsdiqləyib və müharibədən sonrakı mərhələdə yeni regional reallıq enerji, nəqliyyat və iqtisadi əməkdaşlıq mexanizmləri ilə möhkəmləndirilib.**

Prezident İlham Əliyevin strategiyası enerji, nəqliyyat və təhlükəsizlik alətlərini birləşdirərək regionda yeni reallıq, geosiyasi coğrafiyanı yenidən düzənləyən, qlobal oyunçuların ziddiyyətlərini regional əməkdaşlıq mexanizmlərinə çevirən güclü liderliklə icra olunur. Bu liderlik strategiyası iki paralel xətdən ibarətdir: 1 - dövlətin gücünü, iqtisadi potensialını artırmaqla və beynəlxalq mövqelərini möhkəmləndirməklə milli suverenliyi təmin etmək. 2 - yumşaq güc və geoiqtisadi alətlər vasitəsilə böyük güclərin maraqlarını uzlaşdırmaq.

Bu strategiya və liderlik münaqişə coğrafiyasını iqtisadi əməkdaşlıq coğrafiyasına çevirir, səngərlərin yerini dəmir yolları, blokadaların yerini tranzit müqavilələri, qeyri-müəyyənliyin yerini isə institusional zəmanətlər tutur.

## Ümummilli Lider Heydər Əliyevin geosiyasi qambiti: daxili sabitlikdən qlobal konsensusa strateji keçid

1990-cı illərin əvvəllərində Azərbaycan paralel şəkildə bir neçə fundamental təzyiq istiqaməti ilə üz-üzə qalmışdı: dövlət institutlarının zəifləməsi fonunda dərin daxili siyasi qeyri-sabitlik, separatizm meyilləri və ərazi bütövlüyünə yönəlmiş birbaşa təhlükələr, ardınca Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkün probleminin yaranması, eyni zamanda regional güclər arasında rəqabətin kəskinləşməsi şəraitində beynəlxalq təcrid riski. Məhz bu mürəkkəb konfiqurasiyada Ümummilli Lider Heydər Əliyevin əsas strateji nailiyyətlərindən biri daxili siyasi sabitliyin bərpası ilə yanaşı, Azərbaycanın qlobal enerji bazarına inteqrasiyasını təmin etmək və ölkə ətrafında böyük güclərin maraqlarını tarazlaşdıran institusional xarakterli "zəmanətlər sistemi" formalaşdırmaq oldu.

Bu sistemin konseptual və praktiki mərkəzində 20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" dayanırdı. Geosiyasi baxımdan müqavilənin əsas nəticəsi ondan ibarət idi ki, Azərbaycan ətrafında rəqabət aparan beynəlxalq aktorlar arasında ortaq məxrəc formalaşdı və onlar eyni platformada müəyyən edilmiş "oyun qaydaları" çərçivəsində fəaliyyət göstərməyə razılaşdılar. Beləliklə, Cənubi Qafqaz məkanında enerji əməkdaşlığı ilə təhlükəsizlik zəmanətlərini birləşdirən funksional model tətbiq olundu. Bu model çərçivəsində Rusiya üçün Bakı-Novorossiysk marşrutunun saxlanılması və konsorsiumda iştirak, Türkiyə üçün tranzit imkanlarının genişlənməsi və enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, Gürcüstan üçün iqtisadi resursların cəlbi və strateji əhəmiyyətin artması, Qərb şirkətləri üçün isə Xəzər hövzəsinin enerji ehtiyatlarına çıxış imkanları vahid paket məntiqi daxilində uzlaşdırıldı. Sonrakı proseslər göstərdi ki, bu yanaşma Xəzər hövzəsində yerləşən Qazaxıstan və Türkmənistan kimi dövlətlər üçün də presedent xarakteri daşıyan geoiqtisadi və geosiyasi modelə çevrildi.

## Azərbaycan Prezidentinin strateji doktrinası: balanslaşdırmadan regional transformasiyaya keçid

İlham Əliyevin liderliyinin mahiyyəti Heydər Əliyev dövründə qurulmuş "balanslaşdırma və konsensus" modelini daha geniş geoiqtisadi-geoenerji ekosisteminə çevirməkdədir. Bu ekosistemin strateji hədəfi Azərbaycanı təkcə enerji ixracatçısı kimi deyil, Avrasiyanın əsas əlaqələndirici platforması kimi mövqeyə sahib olmasını təmin etmək və bununla da Cənubi Qafqazın geosiyasi orientirlərini dəyişməkdir.

Henri Kissinger diplomatiyanı "gücün cilovlanması sənəti" kimi xarakterizə edirdi. Bu yanaşma kontekstində İlham Əliyevin geosiyasi doktrinası strukturlaşdırılmış və mərhələli mexanizmi ilə seçilir. Sözügedən doktrina üçpilləli ardıcıllıq üzərində qurulub: birinci mərhələdə enerji infrastrukturu vasitəsilə tərəfdaşlıq şəbəkəsi və dayanıqlı resurs bazası formalaşdırılır; ikinci mərhələdə nəqliyyat-logistika infrastrukturu inkişaf etdirilərək Azərbaycan geoiqtisadi çəkisi yüksək olan tranzit platformaya çevrilir; üçüncü mərhələdə isə postmünaqişə dövründə kommunikasiyaların açılması və iqtisadi inteqrasiya yolu ilə sülhün institusional dayaqları yaradılır. Bu ardıcıllıq strateji baxımdan "zəmanətlər arxitekturası" formalaşdırır. Azərbaycan üzərindən keçən marşrutlardan istifadə edən ölkə və şirkətlərin sayı artdıqca, həmin marşrutların davamlılığında, eyni zamanda regionun sabitliyində kollektiv maraq güclənir. Beləliklə, təhlükəsizlik klassik hərbi ölçülərlə yanaşı, iqtisadi və logistik qarşılıqlı asılılıq üzərində təmin olunur.

Prezident İlham Əliyevin strategiyası enerji, nəqliyyat və təhlükəsizlik alətlərini vahid çərçivədə birləşdirərək uzunmüddətli perspektivdə geniş regional kontekstdə yeni imkanlar açması ilə fərqlənir. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" yeni geosiyasi reallıqda artan strateji dəyərə malikdir. BTC-nin əhəmiyyəti neft daşınması funksiyası ilə yanaşı, ixrac marşrutlarının diversifikasiyası, tranzit risklərinin azaldılması və alternativ enerji arxitekturasının formalaşdırılması ilə ölçülür. Eyni zamanda Gürcüstan və Türkiyənin regional çəkisi artır, digər Xəzər hövzəsi ölkələri üçün alternativ marşrut modeli praktik müstəviyə keçirilir. Qazaxıstan neftinin bir hissəsinin BTC vasitəsilə ixracı bu kəmərin uzunmüddətli strateji aktiv kimi aktuallığını təsdiqləyir və Azərbaycanın infrastrukturunun Avrasiya miqyasında funksional alternativə çevrildiyini göstərir.

Avropa İttifaqı (Aİ)-Azərbaycan enerji əməkdaşlığı 2022-ci ilin iyulunda imzalanmış Strateji Tərəfdaşlıq Memorandumu ilə keyfiyyətcə yeni mərhələyə keçdi. Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji təhlükəsizliyi ciddi risklərlə üzləşdiyi şəraitdə, Azərbaycanın etibarlı və proqnozlaşdırılan tərəfdaş kimi seçilməsi Bakının illər ərzində formalaşdırdığı balanslı xarici siyasətin məntiqi nəticəsi oldu. Bu razılaşma Azərbaycanı regional tədarükçüdən Avropanın enerji təhlükəsizliyinin struktur elementinə çevirdi və ölkəyə əlavə diplomatik resurslar qazandırdı.

Memorandumun əsas geosiyasi əhəmiyyəti Azərbaycanın böyük güclərin maraqlarını uzlaşdırmaq qabiliyyətini bir daha nümayiş etdirməsidir. Aİ ilə əməkdaşlıq genişləndirilərkən Rusiya ilə münasibətlərdə konfrontasiya xəttinə çıxılmadı, eyni zamanda Çinin Avrasiya enerji və logistika maraqları ilə ziddiyyət yaranmadı. Bakı göstərdi ki, düzgün planlaşdırılmış infrastruktur Avropaya enerji tədarükü ilə yanaşı, Mərkəzi Asiya resurslarının Qərbə inteqrasiyasına və regional sabitliyə xidmət edə bilər. Bu yanaşma İlham Əliyevin xarici siyasət fəlsəfəsini - balans və qarşılıqlı fayda prinsipini - praktik müstəvidə təsdiqlədi.

Son iki onillikdə Azərbaycan nəqliyyat sahəsini iqtisadi fəaliyyət istiqaməti ilə yanaşı, strateji geosiyasi alət kimi formalaşdırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəqliyyat geosiyasəti regionu rəqabət və bloklaşma məkanından əməkdaşlıq zonasına transformasiya edir. Orta dəhliz, "Şimal-Cənub" marşrutu və Trans-Xəzər bağlantıları eyni anda Aİ-nin enerji və ticarət təhlükəsizliyi maraqlarına, Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə, eyni zamanda Mərkəzi Asiya ölkələrinin çıxış imkanlarının genişlənməsinə xidmət edir. Bu marşrutların inklüziv və açıq xarakteri Azərbaycanın böyük güclər üçün zəruri tranzit tərəfdaş statusunu möhkəmləndirir.

Azərbaycanın nəqliyyat habına çevrilməsi təhlükəsizlik zəmanətlərinin yeni modelini yaradır. Marşrutlar Avropanın enerji təhlükəsizliyini, Mərkəzi Asiyanın dünya bazarlarına çıxışını, Asiyanın Avropa ilə birbaşa əlaqəsini təmin etdikcə, onların təhlükəsizliyi bütün tərəflərin ortaq marağına çevrilir və eskalasiya riskləri azalır. Bu siyasət qısa müddətli qazancdan daha çox sabitlik və əməkdaşlıq mexanizmlərinə əsaslanır. Zəngəzur dəhlizi ideyası da regional inteqrasiyanı tamamlamaq məqsədi daşıyan bu yanaşmanın məntiqi davamıdır. Bu çərçivədə Bakı-Tbilisi-Qars dəmir yolu Orta dəhlizin quru komponentini gücləndirən əsas layihə kimi xüsusi əhəmiyyət kəsb edir. Qlobal təchizat zənciri böhranları fonunda marşrut üzrə yük və konteyner daşımalarında artım Azərbaycanın vaxtında qurduğu infrastrukturun qeyri-müəyyənlik dövrlərində strateji üstünlük yaratdığını göstərir.

Nəticə etibarilə Prezident İlham Əliyevin geosiyasi doktrinası böyük güclərin rəqabətini idarə olunan formata salaraq regional sabitliyi möhkəmləndirir. Bu doktrina enerji, nəqliyyat və təhlükəsizlik alətlərinin sintezi üzərindən Cənubi Qafqazı əməkdaşlıq məkanına çevirən rasional və uzunmüddətli strateji model kimi çıxış edir.

## Postmünaqişə sülh quruculuğunda kommunikasiyalar vasitəsilə təhlükəsizlik

Postmüharibə mərhələsində Azərbaycanın əsas strateji hədəfi əldə edilmiş hərbi-siyasi qələbəni dayanıqlı və institusional sülhə çevirməkdir. Bu kontekstdə İlham Əliyev strategiyası kommunikasiyaların açılması və iqtisadi inteqrasiyanı sülhün praktiki mexanizmi kimi irəli sürür. İqtisadi əməkdaşlıq imkanları genişləndikcə münaqişənin yenidən başlama ehtimalı azalır, eyni zamanda sülhün real dividendləri formalaşır.

Bu yanaşma Cənubi Qafqazda uzun müddət xarici güclər tərəfindən formalaşdırılmış, zor tətbiqinə əsaslanan təhlükəsizlik modellərini dəyişmək potensialına malikdir. Azərbaycanın sülh gündəliyi blokadadan tranzitə, təcriddən ticarətə, hərbiləşmiş xətlərdən kommunikasiyalara keçidi təmin edən transformativ məzmun daşıyır. Zəngəzur dəhlizi bu transformasiyanın konseptual simvolu kimi Naxçıvanla quru əlaqəsini bərpa edir, Türkiyənin Azərbaycan və Mərkəzi Asiya ilə fiziki bağlantısını gücləndirir, Ermənistan üçün isə regional iqtisadi layihələrə inteqrasiya imkanları yaradır. Azərbaycanın eyni vaxtda "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarında qovşaq funksiyasını möhkəmləndirməsi regionun geoiqtisadi çəkisini artırır; bu çəki təhlükəsizlik kapitalına çevrilərək sabitliyi obyektiv marağa çevirir və sülh gündəliyini struktur səviyyəsində stimullaşdırır.

Bu strategiyanın ardıcıllığı İlham Əliyevin liderliyində mərhələli şəkildə reallaşdırılmış layihələrdə aydın görünür: 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qlobal enerji konsensusu formalaşdırıldı, Bakı-Tbilisi-Ceyhan xətti ilə alternativ ixrac arxitekturası yaradıldı, Bakı-Tbilisi-Qars dəmir yolu Orta dəhlizin quru komponentini gücləndirdi, "Cənub qaz dəhlizi" Avropa ilə strateji enerji tərəfdaşlığını institusional səviyyəyə yüksəltdi, Ələt limanı və Orta dəhliz daşımaları Azərbaycanın tranzit platforma statusunu möhkəmləndirdi. Bu ardıcıllıq onu göstərir ki, sözügedən təşəbbüslər ayrı-ayrı layihələr deyil, İlham Əliyevin uzunmüddətli, təkamül edən strateji dizaynının mərhələləridir. Burada liderliyin əsas keyfiyyəti açıq şəkildə üzə çıxır: gündəliyi hadisələr deyil, siyasi iradə və strateji baxış formalaşdırır.

## Liderlik və strateji ardıcıllıq, risk idarəçiliyi və uzaqgörənlik

İlham Əliyevin liderlik modeli balans, ardıcıllıq və uzunmüddətli strateji planlama üzərində formalaşmış idarəetmə konsepsiyasıdır. Bu modeldə ilkin mərhələdə uzunmüddətli məqsədlər dəqiq müəyyənləşdirilir, strategiya sistemli dizayn olunur və icra prosesi tərəfdaşların, eyni zamanda rəqiblərin davranışlarına uyğun adaptasiya edilir, bununla yanaşı, əsas strateji xətt dəyişməz saxlanılır. Sözügedən yanaşma klassik strateji idarəetmədə ardıcıllıqla davamlı adaptasiyanın tarazlığını təmin edən optimal model kimi səciyyələnir.

Modelin ikinci əsas elementi risklərin qabaqlayıcı idarə olunmasıdır. Qlobal enerji bazarlarında volatillik, regional rəqabətin dərinləşməsi, beynəlxalq sanksiyalar və silahlı münaqişələr alternativlərin strateji dəyərini yüksəldir. Alternativlərin əvvəlcədən formalaşdırılması böhran anlarında dövlətə geniş seçim imkanları qazandırır. Avropaya qaz ixracının genişləndirilməsi, Bakı-Tbilisi-Ceyhan marşrutunun alternativ ixrac xətti kimi aktuallığını qoruması və Orta dəhlizin cəlbedici tranzit platformasına çevrilməsi bu "seçim azadlığı"nın praktik nəticələridir.

Üçüncü element strateji uzaqgörənlikdir. Azərbaycan öz infrastrukturunu yalnız cari iqtisadi ehtiyaclar üçün deyil, gələcək geosiyasi ssenarilər nəzərə alınmaqla inşa etmişdir. Məhz bu səbəbdən 2022-ci ildən sonra geosiyasi turbulentlik artdıqca Azərbaycanın enerji, nəqliyyat və sülh gündəliyinə xidmət edən layihələrinin dəyəri daha aydın şəkildə üzə çıxmış, institusional dayaqlar artıq mövcud vəziyyətdə fəaliyyət göstərməyə başlamışdır.

Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıq əhəmiyyətli dərəcədə Prezident İlham Əliyevin strateji vizyonunun nəticəsidir. Heydər Əliyevin "Əsrin müqaviləsi" ilə əsasını qoyduğu qlobal konsensus platforması İlham Əliyev dövründə enerji, nəqliyyat və təhlükəsizlik alətlərinin inteqrasiyası vasitəsilə inkişaf etdirilmiş, regionun Avrasiyanın əsas əlaqələndirici qovşaqlarından birinə çevrilməsi üçün real potensial formalaşdırılmışdır.

İlham Əliyevin tarixi missiyası Cənubi Qafqazda münaqişə yaradan struktur şərtləri transformasiya etməkdən ibarətdir. Bu miqyasda dəyişiklik yalnız uzunmüddətli vizyon, güclü siyasi iradə və qlobal prosesləri dərindən təhlil edə bilən liderlik modeli ilə mümkün ola bilər. Azərbaycanın həyata keçirdiyi meqalayihələr ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Türkiyə və İran kimi əsas aktorların maraqlarını vahid geoiqtisadi müstəvidə uzlaşdırır, eyni zamanda regionun sülh və əməkdaşlıq məkanına transformasiyası üçün yeni imkanlar pəncərəsi yaradır.

## Cənubi Qafqazın gələcək yol xəritəsi və Azərbaycanın rolu

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfər yalnız hərbi-siyasi uğur deyil, həm də son üç onillikdə qurulan enerji və nəqliyyat geopolitikasının nəticəsi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin strategiyası müharibə dövründə xarici güclərin birbaşa müdaxiləsinin qarşısını almağa imkan verdi. Bu uğur təsadüfi deyildi. İllər boyu Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına, Rusiya üçün regional sabitlik təminatçısına, Türkiyə ilə strateji müttəfiqə və Mərkəzi Asiya üçün çıxış qapısına çevrilmişdi. Beynəlxalq aktorlar üçün bu status-kvo dəyişməsi risk yox, yeni reallığın qəbul edilməsi zərurəti kimi dəyərləndirildi.

Müharibədən sonra Azərbaycan Zəngəzur dəhlizi və regional kommunikasiyaların açılması kimi təşəbbüslərlə sülh gündəliyini geoiqtisadi mexanizmə çevirərək revanşizmə deyil, qarşılıqlı asılılıq və inteqrasiya üzərində təhlükəsizlik konsepsiyasına üstünlük verdi. Qarabağ və ətraf rayonların azad olunması ilə daxili kommunikasiya xəritəsi bərpa olundu, Şərqi Zəngəzur və Qarabağ isə nəqliyyat, logistika və "yaşıl enerji" mərkəzləri kimi planlaşdırıldı. TRIPP layihəsi və digər meqalayihələr yalnız fiziki infrastruktur deyil, onlar Cənubi Qafqazda geoiqtisadi model və inteqrasiya platformasıdır, qarşıdurma yerinə kommunikasiyalar, blokada yerinə əməkdaşlıq, təhlükə yerinə qarşılıqlı faydalılıq təklif edir. Prezident İlham Əliyev qalib ölkənin lideri kimi riskləri üzərinə götürərək regionun uzunmüddətli sabitliyinə yönəlmiş cəsarət nümayiş etdirdi.

Beləliklə, İlham Əliyev strategiyası regionun təhlükəsizlik arxitekturasını dəyişən "zəmanətlər paketi" yaradır - enerji tədarükü, tranzit imkanları və kommunikasiya gündəliyi bir-birini tamamlayır, böyük güclərin maraqlarını uzlaşdırır və Cənubi Qafqazı əməkdaşlıq və sabitlik məkanına çevirir.

## ABŞ-dən etiraf: İlham Əliyevin liderliyi Azərbaycanı regional reallığı formalaşdıran aktora çevirib

ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Ermənistan və Azərbaycana səfəri bir daha Cənubi Qafqaz regionunun formalaşmaqda olan yeni dünya nizamında yeri və roluna Vaşinqtonun baxışını sərgilədi. ABŞ Azərbaycanın təklif etdiyi, Prezident İlham Əliyevin müəllifi olduğu "Dayanıqlı sülh gündəliyi ilə Cənubi Qafqazın transformasiyası" strategiyasını əsas tutur, Vaşinqton regionun gələcəyi, onun potensialının reallaşdırılması, enerji, nəqliyyat və təhlükəsizlik alətlərini birləşdirməklə yeni reallıq yaradılması ilə əlaqədar Bakı ilə eyni baxışa malikdir.

Fevralın 10-da Bakıda Azərbaycan Prezidenti ilə birgə mətbuata açıqlamasında ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens bunu belə ifadə etdi: "Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz sülh sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir. Bu məsələlərdə ABŞ Prezidenti xarici siyasətimizi qurur. Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!

Fikrimcə, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq, ABŞ-nin iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar.

Düşünürəm ki, bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək".

Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur.

## Azərbaycan Prezidentinin Münxendə ustad geosiyasət dərsi, yaxud Azərbaycan Aİ-nin baxışını necə dəyişir?

Cənubi Qafqaz regionu və onun Şərq-Qərb bağlantılarında rolu, potensialı, Azərbaycanın meqalayihələr ilə yeni reallıq yaratması, regionu transformasiya etməsi, Avrasiyanın nəqliyyat hablarından birinə çevrilməsi perspektivinin açılması fevralın 13-15-də keçirilən 62-ci Münxen Təhlükəsizlik Konfransında əsas mövzulardan biri oldu.

Fevralın 14-də Konfrans çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə iştirak edən Prezident İlham Əliyev bir daha ölkəmizin böyük Xəzər regionu (Mərkəzi Asiya, Cənubi Qafqaz) ilə Qara Dəniz regionu arasında regional bağlantıların qurulması, Çin-Avropa nəqliyyat-logistika sistemində yeni imkanlar, alternativlər yaratmasını geniş təhlil elədi və gələcəyin necə şəkilləndirilməsi ilə bağlı atılan addımları vurğuladı: "Bir məqamı da vurğulamaq istəyirəm, biz region ölkələri haqqında danışdıq və Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı unutmamalıyıq. Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük.

Biz bağlantı sahəsində çox işlər görürük, Mərkəzi Asiya ölkələri ilə Çin arasında da bağlantı sahəsində çox işlər görülür. Xanım Helqanın vurğuladığı mövcud yollarla yanaşı, Çin tərəfindən tikilməkdə olan və maliyyələşdirilən başqa bir yol da var - Xəzərə aparan daha bir yol. Çindən Qazaxıstan vasitəsilə Xəzərə uzanan mövcud yoldan əlavə olaraq. Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər yolunu maliyyələşdirir. Yenə də yol Xəzər dənizinə gedir. Bu o deməkdir ki, o, Azərbaycana və sonra Cənubi Qafqazdan keçərək Avropaya çatacaq. Beləliklə, xeyli geosiyasət, xeyli beynəlxalq münasibətlər, xeyli diplomatiya həyata keçirilir. Azərbaycan bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq".

Prezident İlham Əliyevin bu təhlili Azərbaycanın regional siyasətini yalnız milli kontekstdə deyil, Avrasiyanın dəyişən geoiqtisadi arxitekturası kontekstində oxunmasının vacibliyini diqqətə çatdırdı. Azərbaycan dövlət başçısı bu vizyon və təşəbbüslərlə Aİ-nin də baxışını dəyişir və daha geniş, strateji düşünməyə vadar edir. Artıq Aİ-də qəbul edirlər ki, Prezident İlham Əliyevin "böyük güclərin maraqlarını cilovlamaq" strategiyası ilə Azərbaycan klassik qarşıdurma və bloklaşma modelini deyil, maraqların qarşılıqlı asılılıq üzərindən idarə edilmə yanaşmasını seçməklə regional geosiyasətdə yeni ölçülər və baxış formalaşdırıb. Bu strategiyanın hədəfi böyük güclərin maraqlarını Cənubi Qafqazın nəqliyyat-logistika, qovşaq potensialını reallaşdırmaqla uzlaşdırmaq, rasional maraqlar balansı yaratmaqdır.

İlham Əliyevin bu strategiyasının əsas nəticələrindən biri Azərbaycanın geosiyasi subyekt kimi mövqeyinin möhkəmlənməsidir. Cənubi Qafqazın gələcəyi, Mərkəzi Asiyanın Avropaya çıxışı, enerji təhlükəsizliyi və əsas nəqliyyat marşrutları ilə bağlı bütün real planların mərkəzində Azərbaycan amili dayanır. Bu gün Azərbaycanın addımları təkcə mövcud vəziyyətə deyil, gələcək onilliklərə hesablanan geosiyasi reallıqlara uyğun qurulur.

Azərbaycan Prezidentinin analizlərindən sonra Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos sözügedən panelin sonuna yaxın verdiyi açıqlama rəsmi Bakının mərhələ-mərhələ Aİ-nin strateji yanaşmasının dəyişməsinə, daha obyektiv olmasına necə nail olduğunu nümayiş etdirir: "Əsrlər keçir, lakin biz bu dəyişikliklər haqqında indidən düşünməliyik. Bəlkə də bizə keçmişdə bu, inanılmaz görünürdü, lakin gələcək üçün yollar açılır və region liderləri bunu anlayırlar ki, biz bundan necə faydalana bilərik, Avropa necə faydalana bilər və bu baxımdan, əlbəttə ki, Azərbaycan üçün də bu, faydalıdır. Bu, belə də olmalıdır. Bu, Avropa üçün yaxşıdır, çünki Çinə daha yaxşı çıxış əldə olunacaq. Bu çıxış Mərkəzi Asiya vasitəsilə təmin ediləcək. Bütün bu münaqişələrin və geosiyasi çağırışların həlli asan məsələ deyil".

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# VƏTƏNƏ DÜŞMƏNÇİLİK EDƏNLƏR

**Dünyaya gələn hər bir insana Tanrı Vətən adlı müqəddəs bir məkan bəxş edir.**

* Bu Vətəndə onun yaşamaq üçün hər şeyi - torpağı, suyu, havası və odu olur.

* Bu Vətəndə onu dünyaya gətirən valideynləri, doğmaları, qohum-əqrəbası yaşayır.

* Bu Vətəndə onun əcdadlarının uyuduqları məzarlıqlar olur.

* Bu Vətəndə onun milləti, dövləti, müqəddəs məbədləri, inanc yerləri olur.

*Bəzən insanlar hər hansı səbəbdənsə başqa ölkədə yaşamalı olurlar...*

*Normal və təbii haldır.*

**Amma əsl vətən övladları heç zaman doğma vətənlərini unutmurlar, daim ondan xəbər tutur, uğurlarına sevinir, kədərli günlərini bölüşür, gücü çatanda əlindən gələn köməyini əsirgəmirlər.**

*Vətən dilini unudub, dinini dəyişənlər də olur...*

*Bu da bir paralarının seçimidir...*

**Ən böyük rəzillik isə Vətənə xəyanətdir!**

**Bu, həm də bütün dövlətlərdə ən ağır cinayət sayılır!**

Çünki Vətənə xəyanət təkcə Vətən adlı məkanda yerləşən dövlətə xəyanət deyil!

*Vətənə xəyanət torpağına, suyuna, dostlarına, ata-anana, bütün cəddi-əqrəbana xəyanətdir!*

**Bundan da aşağısı və müdhişi isə Vətənə düşmən kəsilməkdir!**

**Bunun yalnız bir adı var: MURDARLIQ!**

❖ ❖ ❖

*"Vətən murdarları" üçün həyatda müqəddəs heç nə olmur...*

*Nə namus, nə qeyrət, nə şərəf, nə də ləyaqət hissi!*

Nə ailə dəyərlərinin nə olduğunu bilirlər, bacı namusu, arvad qeyrəti çəkirlər, nə də kişilik barədə təsəvvürə malik olurlar.

Bütövlükdə belələrində insanlıqdan bir qram da əsər-əlamət qalmır!

**Qəribədir ki, "vətən murdarları"nın əksəri "kişi" cinsindən olur.**

**Amma bütün varlıqlarında - nə mənən, nə də cismən kişiliyi xatırladan bir nişanə belə olmur!**

*Əslində, heç birinin cinsi də bilinmir!*

*Hansısa "oriyentasiya"ya malik olurlar!*

**Ona görə hamıya, xüsusən, uğur qazanmış insanlara, tanınmışlara, məşhurlara nifrət bəsləyirlər.**

Həyatdakı uğursuzluqlarının, başlarına gələn müsibət və bəlaların qisasını uğur qazananlardan almağa can atırlar.

Belələri müəyyən muzd məbləğində kimlərinsə əlində alətə çevrilirlər.

*Tərəddüd etmədən, çətinlik çəkmədən doğmalarını və dostlarını da rahatlıqla satırlar.*

**Bir vaxtlar vətəndaşı olduqları dövlətə qarşı açıq düşmənçiliyə keçirlər!**

* Beləleri kəsə bilmirlər, təkcə hürə bilirlər!

* Beləleri zərər verə bilmirlər, ürək bulandırırlar!

* Beləleri rəzilliklərinin, düşdükləri çıxılmaz vəziyyətin qisasını hamıdan, xüsusən keçmiş vətənlərinin vətəndaşlarından almağa çalışırlar!

**Sonda öz yaratdıqları çirkab quyusunda murdar olaraq üfunətə çevrilirlər...**

Amma bu üfunət keçmiş vətənlərinə gəlib çatmır!

*Onlara pul və dil verənlərin, müdafiə və mühafizə edənlərin ömürlük qismətinə çevrilir!*

❖ ❖ ❖

**"Vətən murdarları" həmişə mövcud olublar.**

Müxtəlif adla adlandırılsalar da, mahiyyətcə bir-birilərindən fərqlənməyiblər:

* Azərbaycanda sovet hakimiyyəti qurulanda xalqımızın seçilmişlərini, ziyalılarını çuğullayaraq həbsxanaya, sürgünə göndərdiblər...

* Repressiya dövründə "xalq düşməni" adını qoyduqlarının hətta həyat yoldaşlarına və körpə övladlarına belə, rəhm etməyiblər...

* Birinci Qarabağ müharibəsi dövründə ermənilərə, digər qonşu dövlətlərə casusluq edərək yüzlərlə qeyrətli Azərbaycan oğlunun qanına bais olublar...

* "5-ci kolon"un quluna çevrilərək "qrant" qazanmaqdan ötrü sabitliyimizin, təhlükəsizliyimizin pozulmasına dəstək veriblər...

* Adlarını "jurnalist" qoyaraq söz azadlığının arxasında gizlənməklə şərəfsiz əməllərindən qalmayıblar!

**İndi isə hərəsi bir "sayt", "internet televiziyası" yaradaraq (ağalarının maliyyəsi və çətiri altında) keçmiş vətənlərinin qatı düşməninə çevriliblər!**

*Azərbaycanın 44 günlük Zəfər müharibəsi bir daş olaraq təpələrinə düşüb!*

Qələbəmiz ermənilərdən çox onları yandırır!

Bacardıqları qədər yalan, böhtan, şərşəbədə püskürürlər.

**Bir dəfə də olsun dillərindən Azərbaycanla bağlı bir kəlmə xoş söz çıxmayıb.**

*Bu murdarlıqlar onların özlərinə seçdikləri "həyat tərzidir"!*

* Guya "haqq-ədalət carçısıdırlar"...

* Guya bu yolla özlərinə "çörək qazanırlar"!

*Necə on illər bundan qabaq Əliağa Vahidin söylədiyi bir beyt elə bil boyunlarına biçilib:*

**Üzü dönsün görüm o ağuya dönmüş çörəyin,**

**Yaxşı möhtac eyləyir q...yə, o...şa sizi!**

Amma bu yolla qazandıqları və yedikləri çörək deyil!

İRİNDİ...

QANDI...

ZƏHƏRDİ...

ZƏHRİMARDI!




❖ ❖ ❖

*Bu yazının yazılmasına səbəb bu günlər ölkə xaricində baş verən çox maraqlı bir hadisə oldu!*

**Yuxarıda söylənənlər kateqoriyasına məxsus olan ünsürlərdən biri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya arxadan çataraq guya "ölkədə demokratiyanın durumu ilə bağlı" sual vermək istədiyini bildirdi.**

*Mehriban xanım özünü "jurnalist" kimi təqdim edən ünsürü dərhal tanıdı!*

*Çox sakit bir tərzlə "vətən murdarları"ndan ("otxod" da demək olar) sayılan birisinə iki qısa cümlədən ibarət möhtəşəm bir cavab verdi:*

**"Qadın paltarında səfirlikdə gizlənən insan sizsiniz?**

**Sizə cansağlığı arzulayıram".**

*Bu iki cümlə "vətən murdarı"nın nitqini batırdı!*

**Bu cavabda həm də Mehriban xanımın iti zəkasının, yüksək insani və siyasi mədəniyyətinin, akademik soyuqqanlılığının şahidinə çevrildik!**

* Acı ifadə işlətmədi!

* Kobud söz söyləmədi!

* Çox sakit bir tərzdə dedi.

*Hətta "vətən murdarı"na "cansağlığı" belə arzuladı!*

*Özünü "jurnalist" adlandırana "jurnalist" də demədi!*



"Qadın paltarında" ifadəsini işlətdi, "arvad paltarında" yox!

"Cansağlığı" uzun ömür sürməyin şərtlərindən biridir!

*Amma bu məqamda "murdarlıqlar və şərəfsizliklər içərisində keçən uzun ömür" anlamına gəlir!*

*Belə bir uzun ömür arzuladı!*

**Bu, əsl Azərbaycan xanımının prinsipial və vətənpərvər mövqeyidir!**

**Həm də yüksək mədəni formada və üslubda nümayiş olunan mövqe!**

*Deyəsən, Avropa "dəyərlərinə" yiyələnmiş, bir tikə "ağuya dönmüş çörək" qazanmaqdan ötrü "vətən murdarı"na çevrilmiş saxta jurnalist ona nə deyildiyini başa düşdü!*

Amma artıq gecdir!

❖ ❖ ❖

Azərbaycan tarixində hər kəsin öz yeri olur...

Vətən azadlığı uğrunda canından və qanından keçən müqəddəs şəhidlərin də, adını şərəfsizlər guşəsinə yazdıranların da!

Hərə öz seçimini edir!

Xalq isə hər kəsə dəyərini verir!

**Bəxtiyar SADIQOV**

## Ekspertlər Avropa iqtisadiyyatının dirçəldilməsi üçün əsas addımları müəyyən edirlər

**Avropa İttifaqı iqtisadiyyatı son illərdə zəif artım nümayiş etdirir ki, bu da ekspertlərin fikrincə, xarici böhranlardan daha çox daxili struktur problemlərin nəticəsidir.**



AZƏRTAC xəbər verir ki, Aİ ölkələrində mətbuatın monitorinqinin nəticələrinə görə, aparıcı Avropa iqtisadçıları tərəfindən hazırlanmış çoxsaylı hesabatlara və tövsiyələrə baxmayaraq, real islahatlar yavaş-yavaş irəliləyir.

Analitiklərin qeyd etdiyi kimi, əsas səhv Avropa hakimiyyət orqanlarının mücərrəd "rəqabətədavamlılıq" amilinə diqqət yetirməsidir, halbuki əsas məqsəd əmək məhsuldarlığının artırılması olmalıdır. Aİ güclü ixracatçı olaraq qalır və ticarət profisitini qoruyur, lakin İttifaqın iqtisadiyyatı davamlı gəlir artımını təmin etmək üçün kifayət qədər dinamik deyil.

Avropada məhsuldarlıq 2000-ci illərin əvvəlindən bəri ildə 1 faizdən az artır və 2020-ci ildən başlayaraq, faktiki olaraq durğunluq vəziyyətindədir. Bu, ABŞ-də olan vəziyyətlə kəskin şəkildə ziddiyyət təşkil edir. Ekspertlər qeyd edirlər ki, Avropanın iqtisadi modeli böyük, mövcud korporasiyalara həddindən artıq üstünlük verir, habelə rəqabəti, innovasiyanı və yeni şirkətlərin böyüməsini məhdudlaşdırır.

Vəziyyət Ukraynada müharibənin başlamasından sonra yüksək enerji qiymətləri, Amerika proteksionizminin artması və Çinin bir sıra "yaşıl sənaye"lərdə texnoloji üstünlüyü ilə daha da ağırlaşır. Ekspertlər hesab edirlər ki, dərin islahatlar - bazarın liberallaşdırılması, investisiya təşviqləri və tənzimləyici maneələrin azaldılması olmadan Avropa uzun müddət iqtisadi durğunluq vəziyyətində qalmaq riskini daşıyır ki, bu da təkcə iqtisadi deyil, həm də ciddi siyasi nəticələr doğuracaq.

# Münxendə Azərbaycanın rəqəmsal perspektivləri də müzakirə olundu

**Cənubi Qafqazın iqtisadi lokomotivinə çevrilmiş Azərbaycan indi də öz rəqəmsal infrastrukturunu dünya standartları səviyyəsinə çatdırır. Ölkəmizin qlobal texnoloji transformasiya mərkəzinə çevrilməsi istiqamətində növbəti mühüm addım ötən həftə Münxendə atıldı. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 13-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-nin "Oracle" korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşdü.**

Söhbət zamanı ölkəmizdə texnoloji transformasiya və süni intellekt sahələrinin inkişafı üzrə həyata keçirilən siyasətə toxunuldu. Bu xüsusda "Oracle" korporasiyası ilə əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın olduğu bildirildi. Eyni zamanda tərəfdaşlığın perspektivləri ilə bağlı artıq çərçivə razılaşmasının əldə edildiyi vurğulandı. Bununla yanaşı, "Oracle" şirkətinin Azərbaycanda dövlət və özəl müəssisələrə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı uzunmüddətli əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycanın müxtəlif aparıcı ali təhsil müəssisələrində üç "Oracle" akademiyasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycan-ABŞ arasında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunularaq həmin sənəddə ölkələrimiz arasında süni intellekt sahəsinin prioritet istiqamət kimi əks olunduğu xüsusi diqqətə çatdırıldı.

Prezident İlham Əliyevin ABŞ-nin texnologiya nəhəngi "Oracle" korporasiyasının rəhbərliyi ilə görüşü ölkəmizdə süni intellekt və bulud texnologiyalarının tətbiqi sahəsində yeni dövrün başlanğıcı kimi qiymətləndirilir. Bu görüş Azərbaycanın informasiya texnologiyaları infrastrukturunun modernləşdirilməsi və süni intellekt sahəsində kadr potensialının artırılması baxımından xüsusi əhəmiyyətə malikdir. ABŞ-nin aparıcı korporasiyası ilə qurulan yeni əməkdaşlıq formatı yaxın gələcəkdə ölkəmizin regionun əsas texnoloji mərkəzinə və trans-regional rəqəmsal layihələrin qovşağına çevrilməsini təmin edəcək. "Oracle" dünyada bulud infrastrukturu və "verilənlər bazası" idarəetməsində liderlərdən biridir. Müasir dövrdə dövlət xidmətlərinin daha sürətli və təhlükəsiz olması üçün "Oracle" texnologiyaları mühüm rol oynayır.



"Oracle" korporasiyası ilə əldə olunan razılaşmalar ölkəmizin ali təhsil müəssisələrində innovativ sistemin gücləndirilməsinə, yüksək ixtisaslı mühəndis kadrların yetişdirilməsinə təkan verəcək. Bu tərəfdaşlıq Azərbaycanın kibertəhlükəsizlik və "böyük verilənlər"in (Big Data) idarə olunması sahəsində qlobal standartlara inteqrasiyasını sürətləndirərək, yerli mütəxəssislər üçün beynəlxalq qapıları açacaq. Xüsusən, Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində fəaliyyət göstərən üç "Oracle" akademiyası gənc kadrların yetişdirilməsi üçün kritik əhəmiyyət daşıyır. Bununla tələbələr beynəlxalq səviyyəli sertifikatlar alaraq qlobal əmək bazarına çıxış əldə edirlər. Yerli İT mütəxəssislərinin "Oracle" ekosistemində ixtisaslaşması Azərbaycanın texnoloji asılılığını azaldır və yerli həllərin yaradılmasına kömək göstərir. Hazırda Azərbaycanda bu akademiyalar, əsasən, texnoloji profilli ali təhsil müəssisələrində (məsələn, ADNSU, ADA Universiteti və Bakı Ali Neft Məktəbi) fəaliyyət göstərir. Proqramların əsas üstünlükləri odur ki, tələbə və müəllimlər "Oracle"ın bulud infrastrukturuna pulsuz çıxış əldə edirlər. Tələbələr məzun olduqda qlobal bazarda tanınan "Oracle Certified Associate" dərəcəsini almaq şansı qazanırlar. Yüksək texnologiyalar sahəsində əməkdaşlıq həm də milli təhlükəsizlik məsələsidir. ABŞ-nin nəhəng texnologiya şirkətləri (Oracle, Microsoft və s.) ilə qurulan əlaqələr kritik infrastrukturun kiberhücumlardan qorunmasına, məlumatların idarə edilməsində ən müasir bulud (Cloud) həllərinin tətbiqinə imkan verir.

ABŞ ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində texnoloji əməkdaşlıqlar iki ölkə arasındakı münasibətlərin təkcə enerji sahəsində deyil, həm də yüksək texnologiyalar üzərində qurulduğunu göstərir. Azərbaycan neft-qaz sektorundan asılılığı azaltmaq üçün "ağıllı iqtisadiyyat" modelinə keçidi sürətləndirir.

Strateji Xartiya Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirmək hədəfinə birbaşa xidmət edir. Xartiyada süni intellektin xüsusi yer tutması təsadüfi deyil. Bu həm dövlət idarəçiliyinin modernləşdirilməsini, həm də sənayedə avtomatlaşdırmanı nəzərdə tutur. Bu əməkdaşlıq Azərbaycanı regionda, sadəcə enerji tədarükçüsü kimi yox, yüksəktexnologiyalı həllərin tətbiq olunduğu strateji qovşaq kimi dünyaya təqdim edir. ABŞ texnologiyalarının ölkəyə gəlişi digər Qərb investorları üçün müsbət siqnal rolunu oynayır.

Azərbaycan, sadəcə, texnoloji proqram təminatlarının alışını reallaşdırmır, ölkənin texnoloji infrastrukturunun köklü şəkildə müasirləşdirilməsini həyata keçirir. Dövlətimizin başçısı Münxendə Azərbaycan telekanallarına müsahibə zamanı da vurğuladı ki, iqtisadi inkişaf, enerji təhlükəsizliyi və nəqliyyatla yanaşı, süni intellekt məsələsi də bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə süni intellektin və informasiya texnologiyalarının inkişafı istiqamətində çoxsaylı addımlar atılıb. Dövlət xidmətlərində süni intellekt əsaslı "chatbot"ların və proqnozlaşdırıcı analitikanın tətbiqi vətəndaş müraciətlərinin insan müdaxiləsi olmadan daha sürətli həllinə yol açır. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələri nəticəsində enerji idarəetməsi, tullantıların monitorinqi və təhlükəsizlik sistemləri süni intellekt alqoritmləri ilə qurulur. 2021-ci ilin yanvar ayında yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Kooperasiya Mərkəzi Azərbaycanda süni intellekt strategiyasının "beyin mərkəzi" rolunu oynayır və beynəlxalq texnologiya nəhəngləri ilə əlaqələri koordinasiya edir.

Dövlətimiz hazırda özünün milli süni intellekt strategiyasını formalaşdırır. Bu sənəd yaxın illərdə təhsil, səhiyyə və iqtisadiyyatın bütün qollarında avtomatlaşdırmanı sürətləndirəcək. Həmçinin yerli mütəxəssislərin qlobal bazarda rəqabətədavamlılığını artırmaqla yanaşı, ölkəmizi transregional rəqəmsal layihələrin əsas operatoruna çevirəcək.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan konstruktiv və praqmatik siyasət yürüdür

**Münxen Təhlükəsizlik Konfransı artıq təkcə təhlükəsizlik müzakirələrinin aparıldığı platforma deyil, həm də qlobal güc balansının, yeni siyasi narrativlərin və dövlətlərin mövqelərini açıq şəkildə nümayiş etdirdiyi əsas diplomatik kürsülərdən biridir. 2026-cı il Konfransının "Dağıdıcı siyasət dövrü - beynəlxalq nizama çağırışlar" mövzusu, əslində, mövcud beynəlxalq sistemin dərin böhran içində olduğunu təsdiqləyir. Qaydaların aşındığı, güc siyasətinin normativ diplomatiyanı sıxışdırdığı bir mərhələdə dövlətlər artıq daha açıq və prinsipial mövqelər sərgiləməyə məcburdurlar.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu kontekstdə Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı, xüsusilə "France 24" kanalına verdiyi müsahibə siyasi baxımdan çoxölçülü əhəmiyyət daşıyır: "Birincisi, Azərbaycan liderinin alicənablığıdır ki, adətən, ölkəmizə qarşı qərəzli mövqe tutmuş Fransa mediasında öz baxışlarını birbaşa beynəlxalq auditoriyaya çatdırdı. Bu, həm də informasiya müharibəsində diplomatik üstünlükdür. Dövlət başçımızın müharibə cinayətləri ilə bağlı Azərbaycanın məhkəmə prosesini Nürnberq ilə müqayisə etməsi hüquqi və tarixi arqumentlərə söykənən güclü siyasi mesaj idi. Burada əsas narrativ ondan ibarətdir ki, ədalət və hüquq prinsipləri selektiv yanaşma ilə tətbiq oluna bilməz. Açıq məhkəmə, beynəlxalq müşahidə imkanları və hüquqi təminatlar Azərbaycanın beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək müharibə caniləri üçün lazımi şərait yaratmışdı. Lakin onları azad etmək Nürnberq prosesindəki faşistləri azad etmək kimidir, hətta daha pisdir".

Deputat qeyd edib ki, ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens Azərbaycana səfəri zamanı bu məsələni qaldırıb və ona ölkəmizin haqlı mövqeyi izah olunub: "Azərbaycan ABŞ-dən istədiyi hər şeyi alıb, ancaq bu məsələdə prinsipiallıq qorunub. Budur, İlham Əliyev diplomatiyasının gücü - ABŞ kimi lider ölkə ilə sövdələşmədə belə müvəffəqiyyətlə milli maraqlarımız naminə strateji, gələcəyə-yönəlik, düşünülmüş addımlar atır. Qarabağdan köçən ermənilərin qayıdışı məsələsində Prezidentin mövqeyi balanslı və qarşılıqlı yanaşmaya əsaslanır. Qayıdış hüququna Azərbaycanın universal hüquq kimi yanaşması kontekstində yüz minlərlə qərbi azərbaycanlıların taleyinin cənab Prezident tərəfindən gündəmə gətirilməsi beynəlxalq diskursda kənarda saxlanılan mühüm bir ədalətsizliyi siyasi paralellərlə ön plana çıxardı. Qarabağdan köçən ermənilərin inteqrasiyası üçün lazımi şərait yaradılsa da, bugünkü Ermənistandan zorla deportasiya olunmuş qərbi azərbaycanlılara heç bir hüquq tanınmamaqla yanaşı, onların çoxsaylı müraciətləri Ermənistan hökuməti tərəfindən cavabsız qalıb".

P.Vəliyeva vurğulayıb ki, Fransa-Azərbaycan münasibətləri ilə bağlı səsləndirilən arqumentlər isə Parisin ikili standartlarını açıq şəkildə ifşa edir. Parisin bir tərəfdən Ukrayna və digər ölkələrin ərazi bütövlüyünü müdafiə etməsi, digər tərəfdən, Qarabağda separatizmi dolayısı ilə dəstəkləməsi ikili yanaşmadan xəbər verirdi. "Sonda isə münasibətlərin bundan sonrakı taleyi şərh olunur: "Kopenhagendə ötən il Fransa Prezidenti Makronun dəvəti ilə görüş olub. Görüş müsbət keçib. Azərbaycanın da ən son istəyəcəyi hansısa ölkə ilə probleminin olmasıdır. İki tərəf də münasibətlərin normallaşmasına hazırdı. Yaxın gələcəkdə yenidən görüş ola bilər". Rəsmi Bakının normallaşmaya açıq mesajlar verməsi Azərbaycanın konstruktiv və praqmatik diplomatiyasının göstəricisidir", - deyə o bildirib.

Deputat qeyd edib ki, Zəngəzur dəhlizi ətrafında aparılan müzakirələr isə Azərbaycanın regional deyil, qitələrarası strateji aktora çevrildiyini təsdiqləyir. Marta Kos Avropa İttifaqının bu layihədə maraqlı olduğunu bildirib. Bu, Çindən başlayaraq, Avropayadək uzanan ərazidə bütün coğrafiya boyunca ölkələrin bəhrələnəcəyi bir layihədir. Nəticə etibarilə, Münxen Təhlükəsizlik Konfransı Azərbaycanın beynəlxalq sistemdə daha açıq, prinsipial və daha təsirli aktor kimi çıxış etdiyini ortaya qoydu. İlham Əliyevin diplomatiyası güc, hüquq və praqmatizmin balansına söykənir, bu isə belə çətin geosiyasi dövrdə Azərbaycanın mövqelərini möhkəmləndirən əsas faktordur.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*



## Azərbaycan beynəlxalq münasibətlər sistemində güclü mövqelərə malikdir

**Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün 13-14 fevral tarixlərində Almaniyaya səfəri zəngin məzmunu, geniş görüş proqramı və mühüm müzakirələrlə yadda qaldı. Dünyanın aparıcı dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri, ekspertlər və biznes nümayəndələri Münxen Təhlükəsizlik Konfransında bir araya gələrək beynəlxalq münasibətlərin gələcək istiqamətlərini müzakirə ediblər. Prezident İlham Əliyevin tədbir çərçivəsində panel müzakirələrində iştirakı, keçirdiyi görüşlər və verdiyi müsahibələr Azərbaycanın beynəlxalq sistemdə artan nüfuzunun və mövqeyinin göstəricisi oldu.**

Bu nüfuzlu platformada həm Azərbaycanın milli inkişaf strategiyası təqdim edildi, həm də ölkəmizin ədalətli və yeni dünya nizamının formalaşmasında sülh təşəbbüskarı kimi rol oynadığı vurğulandı. Eyni zamanda ölkəmizin iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində mühüm əməkdaşlıq platforması kimi rolu ön plana çıxdı.

Bir sözlə, Münxen Təhlükəsizlik Konfransı Azərbaycanın beynəlxalq tərəfdaşlıq əlaqələrinin daha da genişləndiyini və ölkəmizə artan marağı bir daha nümayiş etdirdi.

### Regional daşımalar qovşağı

Azərbaycan strateji mövqeyi və infrastruktur layihələri sayəsində regionun əsas daşımalar və logistika qovşağına çevrilərək beynəlxalq nəqliyyat marşrutlarında vacib tərəfdaş rolunu oynayır.

Fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələr zamanı Prezident İlham Əliyev moderatorun bu mühüm məsələ barədə ona ünvanladığı suala ətraflı cavab verdi: "Sonuncu dəfə panel sessiyasında görüşdükdən sonra regionumuzda dəhlizlər və bağlantılar baxımından xeyli dəyişikliklər olub. Həmin dövrdə Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Birmənalı olaraq, regional daşımalar qovşağına çevrilmək üçün sizin qonşularınızla yaxşı münasibətləriniz olmalıdır və Azərbaycanda həm Qərb, həm də Şərq istiqamətlərində belədir".

Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur.

Prezident vurğuladı ki, bu yol çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta dəhlizin iki hissəsinə malik olacağıq: "Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək".

Bu isə ötən ilin avqust ayında Vaşinqtonda iki ölkə arasında əldə olunan razılaşmaların bölgə və daha geniş coğrafiyada əməkdaşlıq üçün praktik müstəvidə əhəmiyyətli imkanlar yaratdığını göstərir. Xüsusilə "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun (TRIPP) açılması Trans-Xəzər əməkdaşlıq çərçivəsini genişləndirir.

"...yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" tamamilə yeni vəziyyət yaradacaq. Çünki qeyd etdiyim kimi, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq", - deyə dövlətimizin başçısı panel müzakirələr zamanı bildirdi.

Azərbaycanın liderliyi ilə yürüdülən sülh prosesinin Cənubi Qafqazda inkişaf, əməkdaşlıq və tərəqqi vəd edən yeni reallıqlar yaratması beynəlxalq aləm tərəfindən də diqqətlə izlənilir və təqdir edilir. "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə də bu, xüsusi qeyd edildi.

### Sülhü əldə etmiş dövlət başçısı

Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə, sülh müqaviləsinin mətninin paraflanması faktiki olaraq regionda sülhü təmin edib. Sülh müqaviləsinin imzalanması isə Ermənistanın qarşıda siyasi iradə ortaya qoyaraq Konstitusiyasının preambula hissəsindən Azərbaycana qarşı ərazi iddiasını çıxarmasından asılı olacaq.

Prezident İlham Əliyevin Münxendən bununla bağlı verdiyi mesaj da açıq idi: "Ümid edirəm ki, biz bu il sülh müqaviləsini imzalayacağıq... ...Avqustdan bəri biz nəinki sərhədimizdə tamamilə yeni vəziyyət yaratmışıq, o cümlədən orada artıq nə atışma, nə ölənlər, nə yaralananlar, nə də ki, problemlər müşahidə olunur. Bununla bərabər, biz Ermənistanla fiziki əməkdaşlığa da başlamışıq".

Dövlətimizin başçısı söylədi ki, imzalanacaq rəsmi sülh sazişi baxımından, hər şey Azərbaycana qarşı üç onillik ərzində mövcud olan ərazi iddiasının Ermənistan Konstitusiyasından çıxarılmasını nəzərdə tutan dəyişiklikdən asılıdır: "O, baş verdikdən sonra növbəti gün sülh sazişi rəsmən imzalanacaq".

Prezident İlham Əliyevin Münxendə keçirdiyi çoxsaylı görüşlər Azərbaycana beynəlxalq səviyyədə artan marağın, onun başçısına şəxsi ehtiram və hörmətin göstəricisi oldu.

Dövlətimizin rəhbərinin İraq Kürdüstan Regionunun başçısı, Bolqarıstan Prezidenti, Ukrayna Prezidenti, Slovakiya Baş nazirinin müavini, Bundestaqın xarici siyasət komitəsinin sədri, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti, "Oracle" korporasiyasının baş icraçı direktoru ilə keçirdiyi görüşlər də bunu təsdiqlədi.

Prezident İlham Əliyevin Münxendə Azərbaycan telekanallarına və "France 24" telekanalına müsahibəsi də geniş diqqət çəkdi.

Prezidentin "France 24" telekanalına müsahibəsi həm də ölkəmizin ədalətə söykənən milli maraqlarının bu platformadan bir daha dünyaya bəyanı oldu. Ölkəmizin nəinki yerləşdiyi bölgədə, ümumiyyətlə, dünyada sülhə nail olunması üçün göstərdiyi səylər, irəli sürdüyü effektiv təşəbbüslər faktlarla ortaya qoyuldu.

Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın beynəlxalq aləmə çatdırdığı mesajlar qlobal sülhə yönəldi.

Azərbaycan telekanallarına müsahibəsində Prezident İlham Əliyev də söylədi ki, həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib: "İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq".

Bəli, ötən müddətdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət həm də Azərbaycanın bugünkü dünya nizamında tutduğu vacib yerini və rolunu müəyyənləşdirib. Cənubi Qafqazın bütün sferalarda ən inkişaf etmiş ölkəsi olan Azərbaycan qlobal siyasi böhranların həll edildiyi, təhlükəsizliklə bağlı mühüm çıxış yollarının arandığı masalarda söz sahibidir.

Prezident İlham Əliyevin Almaniyaya səfərinin zəngin və məhsuldar keçməsi Azərbaycanın qlobal sistemdə mövqeyinin möhkəmləndiyini, ölkəmizin etibarlı tərəfdaş kimi qəbul olunduğunu bir daha təsdiqlədi. Qarşılıqlı maraqlara əsaslanan bu təmaslar Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, gələcək əməkdaşlıq perspektivləri üçün də möhkəm zəmin yaratdı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Əməkdaşlıq üçün yeni platforma

**Azərbaycanla Serbiya arasında münasibətlər son illərdə siyasi, iqtisadi və enerji sahəsində dinamik inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri, Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının keçirilməsi ikitərəfli münasibətlərdə dönüş nöqtəsi hesab oluna bilər. Toplantının Serbiyanın Dövlətçilik Gününə təsadüf etməsi bu baxımdan rəmzi xarakter daşıyır. Dövlətimizin başçısının da söylədiyi kimi, Balkanlarda, Cənubi Qafqazda və daha geniş regionda vəziyyət çox sürətlə inkişaf edir, bir çox gözlənilməz ssenarilər mövcuddur: "Ona görə də fikir mübadiləsi, məlumat mübadiləsi aparmaq, baş verənlərlə bağlı müəyyən təhlillər etmək üçün hazır və daimi əlaqədə olmalıyıq ki, hədəfimizə maksimum dərəcədə çataq".**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan-Serbiya münasibətləri son illərdə təkcə ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, daha geniş geosiyasi məkanda - Cənubi Qafqaz və Balkanlar arasında yeni körpü modelinin formalaşması kontekstində diqqət çəkir: "Bu əlaqələr iki region arasında siyasi dialoq, enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları baxımından yeni mərhələnin əsas elementlərindən biri kimi dəyərləndirilə bilər. Cənubi Qafqaz və Balkanlar tarixən mürəkkəb siyasi proseslərin, etnik və ərazi münaqişələrinin yaşandığı region olub. Hər iki regionda dövlət suverenliyi və ərazi bütövlüyü məsələləri xarici siyasətin prioritet istiqamətlərindəndir. Məhz bu oxşar geosiyasi təcrübə Bakı ilə Belqrad arasında qarşılıqlı dəstəyi gücləndirir".

Səfərin əsas istiqamətlərindən birinin enerji əməkdaşlığı olduğunu deyən deputat qeyd edib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib rol oynayır və alternativ mənbələrin şaxələndirilməsi siyasətini uğurla həyata keçirir. Serbiya üçün də etibarlı və sabit enerji tərəfdaşı ilə əməkdaşlıq strateji əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər resurslarının Avropa bazarına çıxışı regionlararası inteqrasiyanın real iqtisadi bünövrəsinə çevrilib. "Serbiya üçün alternativ mənbələrə çıxış ilk növbədə iqtisadi sabitlik deməkdir. Bu mənada Azərbaycan-Serbiya əməkdaşlığı Cənubi Qafqaz-Balkanlar arasında enerji körpüsünün formalaşması kimi qiymətləndirilə bilər. Bu əlaqələr enerji təhlükəsizliyi, nəqliyyat-logistika inteqrasiyası baxımından regionlararası əməkdaşlığın praktik modelini təqdim edir", - deyə əlavə edib.

N.Məmmədova vurğulayıb ki, Bakı ilə Belqrad arasında inkişaf edən strateji tərəfdaşlıq yalnız ikitərəfli münasibət deyil, həm də Cənubi Qafqaz-Balkan xəttində sabitlik, qarşılıqlı fayda və uzunmüddətli əməkdaşlıq üçün yeni platforma kimi çıxış edir: "Bu kontekstdə hər iki ölkənin gələcək üçün birgə açıq planları var. Prezident İlham Əliyev də qeyd etdi ki, məqsəd həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələrimizi daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahələrində yeni yaranmış imkanlardan yararlanaraq, daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır".

*"Azərbaycan"*

## Bakı və Belqrad arasında dialoq konkret layihə və icra mexanizmlərinə əsaslanır

**Azərbaycanla Serbiya arasında münasibətlərin bugünkü mərhələsi, sadəcə siyasi dialoqun fəallaşması ilə məhdudlaşmır. Bu əməkdaşlıq artıq institusional əsaslar üzərində qurulan strateji tərəfdaşlıq formatına keçib. Azərbaycan Prezidentinin bu ölkəyə rəsmi səfəri, prezidentlər İlham Əliyev və Aleksandar Vuçiçin iştirakı ilə Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının keçirilməsi Bakı ilə Belqrad arasında münasibətlərin sistemli koordinasiya mərhələsinə qədəm qoyduğunu açıq şəkildə nümayiş etdirdi.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, burada söhbət formal bəyanatlardan getmir, çünki Strateji Tərəfdaşlıq Şurasının yaradılması ikitərəfli əlaqələrə daimi işləyən mexanizm qazandırır. Bu mexanizm nəticəsində razılaşmaların icrasına nəzarət, prioritetlərin uzlaşdırılması və əməkdaşlığa real məzmun verilməsi üçün konkret platforma formalaşır. "Qlobal qeyri-sabitlik fonunda orta gücə malik dövlətlərin etibarlı tərəfdaşlıqlara ehtiyac duyduğu bir dövrdə bu cür formatlar xüsusi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan və Serbiya arasında qarşılıqlı münasibətlər bir neçə əsas istiqamət üzrə inkişaf edir. İlk növbədə siyasi ölçü diqqət çəkir. Bakı və Belqrad suverenlik və ərazi bütövlüyü prinsiplərinə ardıcıl sadiqlik nümayiş etdirir. Müasir beynəlxalq münasibətlər sistemində bu, artıq sıradan bir yanaşma deyil, selektiv hüquq tətbiqinin geniş yayıldığı şəraitdə belə mövqelər xüsusi siyasi çəkidədir. Azərbaycan və Serbiya arasında formalaşan qarşılıqlı etimad məhz bu prinsiplər üzərində qurulur", - deyə deputat əlavə edib.

Enerji sahəsinin də əməkdaşlığın əsas sütunlarından biri olduğunu deyən deputatın fikrincə, Serbiya üçün enerji mənbələrinin şaxələndirilməsi milli təhlükəsizlik məsələsinə çevrilib. Azərbaycan isə mövcud enerji potensialı və ixrac infrastrukturu ilə Balkan regionunun enerji dayanıqlılığının gücləndirilməsində mühüm tərəfdaş kimi çıxış edir. Paralel olaraq Bakı üçün Serbiya istiqaməti Avropa bazarlarında mövqelərin genişləndirilməsi strategiyasının tərkib hissəsinə çevrilir. Lakin iqtisadi gündəlik təkcə energetika ilə məhdudlaşmır, nəqliyyat, logistika, infrastruktur və investisiya əməkdaşlığı da xüsusi yer tutur. Birbaşa kommunikasiya xətlərinin, o cümlədən hava əlaqəsinin inkişafı biznes təmasları, humanitar mübadilələr və turizm axınları üçün əlavə imkanlar yaradır. Bu, eyni zamanda kiçik və orta sahibkarlığın prosesə cəlb olunmasına birgə layihələrin reallaşmasına zəmin formalaşdırır.

Sevinc Fətəliyeva qeyd edib ki, Azərbaycan-Serbiya yaxınlaşmasını daha geniş geosiyasi kontekstdə də qiymətləndirmək lazımdır: "Bu əməkdaşlıq Bakının çoxtərəfli xarici siyasət kursuna uyğun olaraq tərəfdaşlıqların diversifikasiyası və Avropa məkanı ilə əlaqələrin dərinləşdirilməsi xəttinin tərkib hissəsidir. Balkan istiqaməti artıq ayrıca strateji məna daşıyır və Azərbaycanın Avropa siyasi-iqtisadi məkanına inteqrasiyasında əlavə kanal rolunu oynayır. Serbiya üçün isə Azərbaycanla tərəfdaşlıq xarici iqtisadi əlaqələrin genişləndirilməsi, mənbələrin şaxələndirilməsi və manevr imkanlarının artırılması baxımından əhəmiyyətlidir. Qlobal rəqabətin sərtləşdiyi və bazar konfiqurasiyasının dəyişdiyi şəraitdə bu cür münasibətlər strateji üstünlük yaradır".

Deputat vurğulayıb ki, diqqətçəkən məqam isə Bakı ilə Belqrad arasında dialoqun abstrakt formullara deyil, konkret layihələrə və icra mexanizmlərinə əsaslanmasıdır. Bu isə münasibətlərin yetkin mərhələyə çatdığını göstərir. Strateji Tərəfdaşlıq Şurası ikitərəfli əməkdaşlıq üçün yeni standartlar müəyyən edir - strukturlaşdırılmış yanaşma, müntəzəm təmaslar və ölçülə bilən nəticələr. Eyni zamanda, əməkdaşlıq potensialı hələ tam reallaşdırılmayıb. "Yaşıl enerji", rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı, innovasiya və təhsil sahələri yeni inkişaf nöqtələri kimi ön plana çıxır. Məhz bu istiqamətlər gələcək mərhələdə tərəfdaşlığa əlavə dinamika verə bilər", - deyə o bildirib.

S.Fətəliyeva qeyd edib ki, ümumilikdə Azərbaycan-Serbiya münasibətləri qlobal güc mərkəzləri olmayan dövlətlərin də qarşılıqlı faydaya əsaslanan, dayanıqlı və strateji baxımdan düşünülmüş əlaqələr qura bildiyini göstərir. Bu tərəfdaşlıq siyasi iradəyə, ortaq maraqlara və müasir dünyanın reallıqlarının düzgün dərk edilməsinə söykənir. Azərbaycan üçün Serbiya istiqaməti Avropa xəttinin mühüm komponentinə çevrilir. Serbiya üçün isə bu əməkdaşlıq daha balanslı və müstəqil xarici iqtisadi strategiyanın formalaşmasına töhfə verir. Region üçünsə bu model praqmatizmə, sabitliyə və konstruktiv dialoqa xidmət edən əlavə amildir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Ümumi politoloji yanaşmaya görə, xarici siyasətdə ölkələr öz maraqlarını təmin etmək üçün bir-birinə təsir göstərməyə çalışırlar. Bu zaman onlar bir çox alətlərdən istifadə edirlər. Adətən, həmin alətləri siyasi, iqtisadi və hərbi növlərə bölürlər. Buradan müasir dövr üçün də əhəmiyyətli olan məntiqi bir nəticə yaranır - xarici siyasətdə tətbiq edilən və ümumi olaraq "alətlər" adlanan təsir vasitələri bir-birindən hansı xüsusiyyətlərinə görə fərqlənirlər? Bu suala cavab axtarışı göstərir ki, bir qayda olaraq, ölkələrin xarici siyasəti ya sülhsevərliyə, yəni dinc yanaşı yaşamağa, barışa, əməkdaşlığa, təhlükəsizliyin təmininə istiqamətlənir, ya başqa ölkələrə aqressiv münasibətə köklənir, ya da mümkün olduqca bitərəf xarakter daşıyır.**



## Azərbaycanın xarici siyasəti sülhsevərliyin nümunəsidir

### Bu həm də ölkəmizin milli maraqlarını təmin edir

Ümumilikdə xarici siyasətin xüsusiyyətlərinə konseptual səviyyədə yanaşmanın tarixi təcrübəsinin öyrənilməsi bu sahədə müxtəlif istiqamətləri fərqləndirmək üçün nəzəri maraq doğurur. Bu kontekstdə ABŞ-nin timsalında bir məqamı vurğulayaq. Məlumdur ki, xarici siyasətin klassik nəzəriyyələri təcridçilik və beynəlmiləlçilik düşərgələrinə bölünürlər. Təcridçilikdə ölkənin başqalarının işlərinə qarışmadan öz maraqlarını təmin etmək xətti üstünlük təşkil edir. Yəni məntiqi baxımdan dövlət digər ölkələrin daxili işlərinə qarışmamaqla münaqişələrdən sığortalanır. Bu istiqamətdə ABŞ-nin təcrübəsi vardır. Hətta onun mahiyyəti və nəticələri ilə bağlı geniş müzakirələr də aparılmışdır.

XXI əsrdə Donald Trampın siyasi kursunun timsalında Amerika "yeni təcridçilik" siyasətinə keçmişdir. Bu zaman təcridçilik beynəlxalq təşkilatlardan məsafəli mövqe tutmağı və müasir çağırışları nəzərə alaraq Monro doktrinasına qayıdışı nəzərdə tutur.

Neokonservatizm müəyyən mənada təcridçilik xətti ilə ortaq məqamlara malikdir. ABŞ nümunəsində neokonservatizm Amerikanın fövqəldövlət kimi "müstəqil fəaliyyət" göstərməsinə üstünlük verir. Bu zaman ticarət və iqtisadi siyasət istisna olmaqla, digər xarici müdaxilə addımlarından çəkinməyi nəzərdə tutur. Bunlarla yanaşı, XXI əsrdə ABŞ üçün "seçimli qarşılıqlı əlaqələr strategiyası" da mövcud olmuşdur ki, hazırda elə də populyar deyildir. Onunla müqayisədə D.Trampın təcridçilik siyasəti daha təsirli hesab olunur.

Buradan iki politoloji qənaətə gələ bilərik. Əvvəla, hər bir dövlətin xarici siyasətinin başlıca məqsədi başqa faktorlarla yanaşı, onun ranqından da asılıdır. ABŞ nümunəsi göstərir ki, tarixin bütün dönəmlərində onun xarici siyasətinin konkret hədəfi Amerikanın hegemonluğunu qəbul etdirməklə bağlı olmuşdur. Buna nail olmağın strategiyası və mexanizmləri dəyişə bilər. Lakin son məqsəd dəyişilməzdir - dünya liderliyi!

Təbii ki, başqa fövqəldövlətlərin və o gücdə olmayan çoxsaylı dövlətlərin özünəməxsus xarici siyasət kursu var. Buradan ikinci nəticə meydana çıxır: hər bir ölkə özünün tarixinə, potensialına və konkret dövrdə dövlət kimi qarşıya qoyduğu məqsədlərə uyğun xarici siyasət formalaşdırmağa çalışır. Məsələn, XXI əsrin gəlişi ilə ABŞ-lə yanaşı, digər böyük güclər də xarici siyasətlərinə korrektələr etmişlər. Bütövlükdə isə tədqiqatçılar XXI əsrin qlobal geosiyasi mənzərəsini aşağıdakı kimi təsvir edirlər: qlobal geosiyasi məkan bir-biri ilə rəqabətdə olan müxtəlif sistemlərə bölünür, burada qlobal və regional dövlətlərin sayı çoxalacaq və nəticə etibarilə inteqrasiya və ixtilafların özünü göstərdiyi polimərkəzli modeldə inteqrasiyaya yönəlmiş siyasi kurslar daha cəlbedici olacaqdır.

Beləliklə, XXI əsrdə fövqəldövlətlərlə yanaşı, ümumiyyətlə, müstəqil dövlətlərin də xarici siyasət kurslarının fərqli strateji hədəfləri ola bilər. Onlar siyasi kursun məzmunu, istifadə etdikləri alətlər və məqsədlərinə görə müxtəlif ola bilərlər. O cümlədən Azərbaycanın XXI əsrdə xarici siyasətinin özünəməxsus məzmunu və məqsədi mövcuddur. Azərbaycan kontekstində məsələnin bu tərəfini nəzərdən keçirək.

### Müstəqil dövlətlərin sülhsevər xarici siyasəti

Müasir siyasi nəzəriyyələrdə sülhsevər xarici siyasətin bir neçə əlaməti göstərilir. Onlar münaqişələrin sülh yolu ilə həllinə istiqamətlənmək; qarşılıqlı faydalı əməkdaşlığın inkişafı; beynəlxalq hüquqa əməl etmək; təcavüzdən imtina etməkdən ibarətdir.

Bu cür siyasət münaqişələrin dinc yolla həlli üçün etibarı gücləndirir, sülhü dayanıqlı edir və beynəlxalq hüququn gözlənilməsinə vurğu edir. Əsas prinsiplər kimi suverenliyi, qeyri-təcavüzkarlığı və qarşılıqlı faydanı göstərmək olar.

Sülhsevər xarici siyasətin başlıca əlamətləri olaraq preventiv diplomatiya, yəni mübahisələrin yaranmasının öncədən qarşısının alınması, vasitəçilik və əməkdaşlıq göstərilir. Sülh siyasətinin beş əsas prinsipi olaraq beynəlxalq münasibətlərin normalarına əməl olunmasını, suverenliyə qarşılıqlı hörməti, qeyri-təcavüzkarlığı, daxili işlərə qarışmamağı, bərabərliyi və qarşılıqlı faydalı əməkdaşlığı müəyyən edirlər.

Sülhsevər siyasi kursda, ümumiyyətlə, münaqişəli vəziyyətlərin yaranmaması üçün konkret addımlar zəruri hesab edilir. Bu zaman əməkdaşlıq və təhlükəsizliyin təmini vəhdətdə çıxış edir. Məqsədə çatmaq üçün beynəlxalq təşkilatların potensialından geniş istifadə olunur. Bu mənada sülhsevər siyasət yeridən ölkənin özünün həqiqi mənada sülh yaratmaq niyyətinin olması vacib xüsusiyyət sayılır.

Hər hansı ölkənin xarici siyasətinin sülhsevərliyi bir neçə istiqamət üzrə izah edilir. Birincisi, "güclü tarixi milli identiklik" dövlətin sülhsevərliyinin mənəvi qaynağı ola bilər. Belə bir "sülhsevər identiklik" yeridilən siyasətə etibar qazandırır. Ölkənin bu aspektdə təcrübəsi və əldə etdiyi praktiki nəticələr yeni şəraitdə sülhün təminini stimullaşdıran faktor ola bilər. Bu xüsusiyyət həm də beynəlxalq nüfuzu möhkəmləndirir ki, bu da siyasətdə uğur qazanmaqda ciddi parametr hesab olunur.

İkincisi, "dünyaya müxtəlif istiqamətlərdən baxmaq yeni ideya yarada bilər". Bu gedişat sülhü dərk etmək üçün geniş imkanlar yaradır.

Üçüncüsü, "ölkə yalnız sülhdən danışmaqla kifayətlənməməlidir, həm də konkret siyasi alətlərə sərmayə qoymalıdır". Bununla sülh dövlətlərin "ümumi məsuliyyət zonası"na çevrilə bilər.

Dördüncüsü, "sülhün dəyər olması ilə yanaşı, həm də münasibət olduğu" qəbul edilməlidir. Buna isə praktikada nail olmaq mümkündür. Yəni sülhə konseptual yanaşma ilə praktiki davranış uyğunluq təşkil etməlidir. Əməkdaşlıq və qarşılıqlı anlaşma bu yolda səmərəli vasitələrdir.

Beşincisi, "gərginliyin yaranmaması, legitimliyin və etimadın itirilməməsi üçün münasibətlərdə şəffaflıq təmin edilməlidir".

Bütün bu əlamətlər Azərbaycanın xarici siyasətində öz əksini tapmışdır.

### Azərbaycan xalqının tarixi milli identikliyi: sülhsevərliyin qaynağı

Azərbaycan xalqının etnogenetik cəhətdən çox böyük hissəsinin türk mənşəli olduğu danılmaz faktdır. Türklərin dünyagörüşü və həyat tərzi dayanıqlı Azərbaycan mədəniyyəti yaratmışdır. Tarixən türklərin sülhsevər olduğu isə tədqiqatçılar tərəfindən kifayət qədər geniş araşdırılmışdır. Xüsusilə coğrafi və mədəni olaraq sivilizasiyaların kəsişməsində yerləşən Azərbaycanda əsrlərlə sülh mühiti olmuşdur. Buna görə də azərbaycanlıların tarixi identikliyində sülhsevərlik həmişə aparıcı yer tutmuşdur.

Azərbaycan dövlətlərinin xarici siyasətində sülh istiqaməti əsas yerdə olmuşdur. Bunun mənbəyi kimi dövlət başçıları həmişə xalqın identikliyində sülh, humanizm və əməkdaşlığın başlıca rol oynadığını vurğulamışlar. Təsadüfi deyildir ki, müasir müstəqil Azərbaycanın dövlət kimi identikliyinin təməlində xalqın identiklik xüsusiyyətləri yer almışdır.

Azərbaycan xalqının tarixən azadlıqsevər olması onun yaratdığı dövlətləri də sülhsevər etmişdir. Tarix boyu azərbaycanlılar hər bir qonşu ölkəyə çətin vaxtlarında yardım əlini uzatmış, öz mərhəməti və şəfqətini əsirgəməmişdir. Bu xüsusiyyət Azərbaycan türklərinin davranış normaları kimi möhkəmlənmişdir.

Müasir Azərbaycanın müstəqil dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyev də Azərbaycan xalqının sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qarşılıqlı münasibətlərdə olduğu bir coğrafiyada yaşadığını və onun bütövlükdə qövmün mənəvi-əxlaqi, siyasi və mədəni dəyərlərinə əsaslı təsir etdiyini müxtəlif çıxışlarında, müraciətlərində açıq vurğulamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev də vurğulamışdır ki, xalqımızın sülhsevərliyi və humanizmi dövlətin siyasi kursunda geniş ifadəsini tapmışdır.

### Çoxistiqamətli xarici siyasətdə balansın saxlanması

1993-cü ildən başlayaraq, Azərbaycan Cənubi Qafqaz regionunda, ümumiyyətlə, qərb, şərq, himal və cənub istiqamətlərində milli maraqlar üzərində balanslaşdırılmış davamlı siyasət həyata keçirir. Bu kontekstdə dövlətin uğuru böyükdür. Bu siyasət müxtəlif sferaları əhatə edir və əməkdaşlıqla təhlükəsizliyi əlaqələndirir.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan üçün həm daha əlverişli vəziyyət yarandı, həm də böyük dövlətlərin ziddiyyətli münasibətləri fonunda bütövlükdə geosiyasi situasiya mürəkkəbləşdi. Belə ki, Qərbin bəzi böyük dövlətləri Azərbaycanın qələbəsini həzm edə bilmirdilər. Onların müxtəlif bəhanələrlə Bakını ittiham etmək cəhdləri, şübhəli təklif və təkidləri, təcavüzkarı Azərbaycana nisbətən daha üstün siyasi mövqeyə çıxarmaq cəhdləri danılmaz faktlardır. Lakin məhz bu kimi təzyiqlərin fonunda Azərbaycanın öz sülhsevər xarici siyasətini tam təsdiq etməsi əlamətdar hadisədir. Azərbaycan Prezidenti həm yuxarıda vurğuladığımız balansı saxladı, həm də Qərb istiqamətində çox səmərəli siyasət həyata keçirdi. Bunun əsas təsdiqi 2025-ci ilin 8 avqustunda Vaşinqtonda paraflanan sülh sazişidir. Məhz Azərbaycan tərəfinin öncədən müəyyən etdiyi və qəbul olunmasında davamlı təkid etdiyi baza prinsiplər üzərində digər məsələlər razılaşdırılmışdır. Həmin baza prinsiplər real və davamlı (qalıcı) sülhü təmin etmək imkanına malikdir. Bunu Prezident Donald Tramp başda olmaqla, Vaşinqton tam qəbul etmişdir. Həmin məqamı Azərbaycanın dövlət olaraq xarici siyasətində sülhsevərliyin ön sırada olması faktı kimi qəbul etmək lazımdır.

Bu hadisədən sonrakı mərhələdə Azərbaycanın konkret sülh layihələrinə siyasi-diplomatik sərmayə qoyduğunu, sülhü dövlətlərarası münasibətlərin mərkəzinə gətirdiyini və münasibətlərdə şəffaflığı təmin edən addımlar atdığını sübut edən çoxsaylı hadisələr baş verməkdədir. Bu kontekstdə bir neçə əlaməti vurğulamaq lazımdır.

### Rusiya istiqaməti

Etiraf edək ki, Kremlin bir sıra qeyri-müəyyən addımları fonunda Azərbaycan rəhbərliyi kifayət qədər təmkinli və tarazlı mövqe tutmuşdur. Rusiyada müxtəlif dairələrin dostluğa uyğun olmayan və bir sıra hallarda təhdid xarakterli fikirlərinə baxmayaraq, Azərbaycan Prezidenti şimal qonşumuzla əməkdaşlıq xəttini saxlamaqda davam edir.

Azərbaycan Zəngəzur dəhlizindən Rusiyanın təcrid olunması siyasətini dəstəkləmir. Rəsmi Bakının prinsipi hər kəsin qarşılıqlı fayda götürməsi ilə bağlıdır. Buna görə də Azərbaycanın Rusiya istiqamətində illərdir gözlədiyi balans siysətini davam etdirdiyini demək mümkündür.

### İran istiqaməti

Bu istiqamətdə də Prezident İlham Əliyevin tam konstruktiv və mehriban qonşuluq siyasi xəttini davam etdirdiyi məlumdur. İndi İran rəhbərliyinin bir sıra nümayəndələri Azərbaycanla məsləhətləşməyə və münasibətləri inkişaf etdirməyin yollarını axtarmağa gəlirlər. Bu prosesdə Prezident Məsud Pezeşkianın Xankəndiyə səfəri və cari ilin fevral ayında Prezident İlham Əliyevin ona telefon edərək müzakirə aparması ciddi rol oynamışdır. Rəsmi Tehran Azərbaycanın qonşu, dost və qardaş dövlət kimi İranla münasibətləri inkişaf etdirmək əzmini dəyərləndirmişdir.

Bütün bunlar İran-İsrail və İran-ABŞ münasibətlərinin daha da kəskinləşməsi fonunda çox mühüm proseslərdir. Əvvəla, aydın olur ki, ən kritik situasiyada belə Azərbaycan dövləti sülhsevər mövqedən kənara çəkilmir. Qonşu İranın sabitliyi və bütövlüyü üçün lazım olan dəstəyi verməyə hazırdır.

İkincisi, İrana münasibətdə Azərbaycan regional balansı saxlamaqda davam edir. Yəni geosiyasi proseslərin necə davam etməsindən asılı olmayaraq, İranı arxa plana atmır - illərdir verdiyi önəmi qoruyub saxlayır.

Üçüncüsü, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi regional geosiyasi konfiqurasiyanı formalaşdıran dövlət statusunu saxlayır. Başqa sözlə, ABŞ-nin regiona müxtəlif mənalarda gəlişi Bakının mövqeyini zərrə qədər də dəyişmir. O cümlədən Azərbaycan Rusiya, Türkiyə və İrana olan münasibətini tam olaraq davam etdirir. Bu baxımdan, "3+3" formulu qüvvəsində qalır və onu həyata keçirmək xətti davam edir.

Bütün bunlar Azərbaycanın geniş geosiyasi məkanda formalaşan və əsas qayəsi fərqli nisbətdə güc tarazlığının yaradılması olan yeni geosiyasi konfiqurasiyanın formalaşması prosesinin iştirakçısı statusuna yüksəlməsində öz ifadəsini tapmışdır. Bu baxımdan, Azərbaycanın ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasına təsisçi üzv qismində dəvət olunması və Yaxın Şərq Sülh Sammitində iştirakı xüsusi əhəmiyyət kəsb edir.

### Sülh Sammiti

2025-ci il oktyabrın 13-də Prezident İlham Əliyev Prezident Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Sülh Sammitində iştirak etmişdir. Tədbirdə ABŞ Prezidentinin Azərbaycan rəhbərinə göstərdiyi xüsusi rəğbət diqqət çəkmişdir. Dövlət başçısı Sammitin işində aktiv iştirak etmişdir. Mühüm sənədin - sülh sazişinin imzalanması göstərdi ki, həmin tədbir Yaxın Şərqdə davamlı sülhün bərqərar olmasında mühüm rol oynayacaq. Son dövrlərdə İsrail-Fələstin münaqişəsinin həlli istiqamətində atılan addımlar bu proqnozu tam təsdiq etdi.

Sülh Şurası ümumilikdə "dünyada sabitliyin təşviqini, etibarlı və qanuni idarəetməni bərpa edən və münaqişədən təsirlənən ərazilərdə dayanıqlı sülh prosesini dəstəkləyən beynəlxalq təşkilat" kimi təqdim edilir. ABŞ Prezidenti Şülh Şurasının BMT-nin yaratdığı boşluğu doldurmaq məqsədilə yaradıldığını bəyan etmişdir. Azərbaycan 2026-cı il yanvarın 21-də yeni beynəlxalq təşəbbüsə qurucu üzvlərdən biri kimi qoşulmuşdur.

Bu cür təşkilatın yaradılması XXI əsrdə önəmli hadisədir. Onun məqsədinin qlobal miqyasda münaqişələrin həlli ilə bağlı olması xüsusi əhəmiyyət kəsb edir. Bu yeni geosiyasi düzənin formalaşması baxımından prinsipial əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bir sıra ekspertlər Sülh Şurasını "Beynəlxalq koalisiya" adlandırırlar.

Sülh Şurasının ilk "işi"nin İsrail-Fələstin münaqişəsinin diplomatik yolla həll edilməsi olacağı gözlənilir. Qarşıya qoyulan məqsəd göstərir ki, bu məsələdə Şülh Şurası uğur qazansa, qurumun nüfuzu xeyli artacaq. Ona görə də fikrimizcə, təşkilat problemlərin həlli ilə ciddi məşğul olacaqdır. Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycanın beynəlxalq platformalarda fəal iştirakı xüsusi qürurverici haldır.

Başqa səbəblərlə yanaşı, həm də ona görə ki, Azərbaycan özü Ermənistanla münaqişəni tam həll etmək təcrübəsinə malik dövlət kimi təşkilata beynəlxalq miqyasda sülh yaratmaq prosesində iştirakına ehtiyac olan ölkə statusunda qatılır. Bu təşkilata daxil olan başqa bir ölkənin analoji təcrübəsi yoxdur. Deməli, Azərbaycan həm konseptual, həm də praktiki olaraq dünyada sülhyaratma prosesində iştirakı zəruri olan ölkə kimi qəbul edilir.

Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondunun təsis etdiyi və beynəlxalq miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın 2026-cı il üzrə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunması Azərbaycan liderinin regionda həyata keçirdiyi sülh siyasətinə verilən yüksək beynəlxalq qiymətdir. Bu mötəbər mükafata Azərbaycan rəhbəri uzun müddət və davamlı şəkildə həyata keçirdiyi sülh siyasətinə görə layiq görülmüşdür. Təsadüfi deyil ki, məhz Prezident İlham Əliyevin siyasi-diplomatik fəaliyyəti sayəsində Cənubi Qafqazda sülhə nail olunmuşdur.

Bu məqamlar, sözün həqiqi mənasında, Azərbaycan dövlətinin sülhsevərliyini təsdiq edir. Maraqlıdır ki, ekspertlər Azərbaycanın liderliyi ilə Cənubi Qafqazın bütövlükdə dünya siyasətində yeri və rolunun yeniləşməsi haqqında fikirlər ifadə edirlər.

Beləliklə, Azərbaycan Prezidentinin davamlı olaraq həyata keçirdiyi xarici siyasət kursu sülhsevər mahiyyətini dünyada sübut etmişdir və ölkənin nüfuzu yeni səviyyəyə yüksəlmişdir. Hazırda Azərbaycan qlobal miqyasda sülhyaratma prosesinin ön sıralarında bərqərar olmuşdur. Bu isə yeni tarixi mərhələdə Azərbaycanın siyasi və geosiyasi statusunun yüksələn xətlə davam etdiyini göstərir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

---

<u>*BƏƏ-nin Azərbaycandakı səfiri:*</u>

## "İki ölkə arasında birgə müəssisələrin yaradılması müzakirə olunur"





**"Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə Azərbaycan arasında bütün sahələr üzrə əməkdaşlıq əlaqələri inkişaf edir. Qarşılıqlı iqtisadi əməkdaşlıq əlaqələri hər iki dövlətin milli maraqlarına cavab verir. Əlaqələrin daha da möhkəmlənməsi üçün bu il bir sıra nazirlər müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycana səfər edəcəklər".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında BƏƏ-nin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi deyib.

Onun sözlərinə görə, bu səfərlər çərçivəsində iki dövlət arasında investisiya, iqlim və şəhərsalma sahələri üzrə əməkdaşlıq məsələləri müzakirə ediləcək.

"Əgər zərurət yaranarsa, memorandumların imzalanması da planlaşdırıla bilər. Yaxın zamanda BƏƏ və Azərbaycan birgə müəssisələrinin yaradılmasına investisiya qoyuluşu ilə bağlı müzakirələr də aparılacaq. Hər iki tərəf artıq üzərində işləyəcəkləri layihələr barədə aydın təsəvvürə malikdir. Son iki il ərzində müxtəlif sektorlarda əməkdaşlığı təşviq edən 20-dən çox saziş imzalanıb. Artıq qida sahəsində əməkdaşlıq əlaqələri müzakirə edilir", - deyə Məhəmməd Əl Bluşi əlavə edib.

Səfir vurğulayıb ki, BƏƏ və Azərbaycanın şirkətləri hər iki ölkənin ixrac sahəsində tələbatını qarşılamaq üçün birgə işləmək potensialına malikdir: "Hər iki tərəf arasında logistika məsələləri, o cümlədən qarşılıqlı və ya birgə müəssisə layihələrinə investisiya qoyuluşu ilə bağlı müzakirə olunmalı müəyyən istiqamətlər var. Bununla bağlı müzakirələr tezliklə baş tutacaq. Yaxın gələcəkdə şirkətlərimiz arasında mühüm əməkdaşlığın olacağını gözləyirəm. BƏƏ və Azərbaycan kimi qardaş, dost ölkələr arasında çox güclü münasibətlər mövcuddur. Bu münasibətləri inkişaf etdirib daha yüksək səviyyəyə çatdırmaq və qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələrini artırmaq üçün fəaliyyətimizi davam etdirəcəyik.

## Azərbaycanın ixrac potensialı Yaponiyanın 5000 üzvü olan biznes şəbəkəsində dəstəklənəcək



**"Azexport" portalı ilə Yaponiyanın 5000-dən artıq üzvü olan "Shinseikai" biznes platforması arasında görüş keçirilib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, görüşdə "Azexport" portalının rəhbəri Ayxan Qədəşov və "Shinseikai" təşkilatının nümayəndəsi Hitoşi Usukura iştirak ediblər.

Görüşün əsas məqsədi Azərbaycan məhsullarının Yaponiya bazarına çıxış imkanlarının genişləndirilməsi, iki ölkənin sahibkarları arasında birbaşa əlaqələrin qurulması və ixrac prosesindəki texniki-hüquqi prosedurların müzakirəsi olub.

Hitoşi Usukura bildirib ki, "Shinseikai" təşkilatı Yaponiyanın iqtisadi həyatında mühüm rol oynayan 5000-dən çox üzvü özündə birləşdirir. Təşkilatın üzvləri tekstil, kənd təsərrüfatı, sənaye istehsalı, logistika və digər strateji sektorları təmsil edən sahibkarlardan ibarətdir. Yaponiyalı qonaq Azərbaycanın ixrac potensialı ilə yaxından maraqlandıqlarını və təmsil etdiyi şəbəkə vasitəsilə Azərbaycan məhsullarının Yaponiyada tanıdılmasına dəstək verə biləcəklərini vurğulayıb.

"Azexport" portalının rəhbəri Ayxan Qədəşov qonağa portalın fəaliyyət istiqamətləri, yerli sahibkarlara göstərilən dəstək mexanizmləri və qlobal e-ticarət platformaları ("Amazon", "Alibaba" və s.) ilə inteqrasiya barədə təqdimatla çıxış edib.

Təqdimat zamanı nümayiş etdirilən "Azexport"un rəqəmsal sərgi zalı qarşı tərəfin xüsusi marağına səbəb olub. Hitoşi Usukura qeyd edib ki, məsafədən asılı olmayaraq, məhsulların vizual və detallı şəkildə nümayişini təmin edən bu innovativ həll yaponiyalı alıcıların Azərbaycan məhsulları haqqında dolğun məlumat əldə etməsi üçün unikal vasitə ola bilər.

Tərəflər ixrac zamanı qarşıya çıxan texniki standartlar, sertifikatlaşdırma tələbləri və hüquqi prosedurlar ətrafında fikir mübadiləsi aparıb, bu istiqamətdə sahibkarların maarifləndirilməsi və logistik maneələrin aradan qaldırılması üçün birgə əməkdaşlığın vacibliyini vurğulayıblar.

Görüşün yekunu olaraq, "Shinseikai" təşkilatının üzvləri ilə Azərbaycan ixracatçıları arasında B2B əlaqələrin qurulması və məhsullarımızın Yaponiyanın ticarət şəbəkələrinə inteqrasiyası istiqamətində konkret addımların atılması barədə razılıq əldə olunub.



# Azərbaycan-Serbiya strateji tərəfdaşlığı daha da genişlənir

**Son günlər respublikamız üçün mühüm siyasi hadisələrlə əlamətdardır. Belə ki, Prezident İlham Əliyevin həm Münxen Təhlükəsizlik Konfransında iştirakı, həm də Serbiyaya rəsmi səfəri Azərbaycanın yüksək beynəlxalq nüfuzunun növbəti təcəssümü oldu.**

Serbiya Azərbaycanın yaxın siyasi və iqisadi tərəfdaşlarından biridir. İki ölkə arasında diplomatik münasibətlər 1997-ci il avqustun 21-də təsis olunub və həmin tarixdən etibarən ölkələrimiz arasındakı əlaqələr ardıcıl inkişaf edib. Bakı ilə Belqrad arasında siyasi dialoq daim yüksək səviyyədə olub, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər formalaşıb.

2011-ci il iyunun 8-9-da Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri əlaqələrin tarixində mühüm mərhələ kimi qiymətləndirilir. Serbiyanın dövlət başçıları da müxtəlif dövrlərdə Azərbaycana səfər edərək əməkdaşlığın inkişafına əhəmiyyətli töhfələr veriblər. Prezident İlham Əliyev də bir neçə dəfə Serbiyaya səfər edib. Bu səfərlər iki ölkə arasındakı münasibətlərin daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyıb.

Bütün bu qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərdə ikitərəfli münasibətlərin genişləndirilməsi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi məsələləri geniş müzakirə olunub. Müxtəlif istiqamətlər üzrə imzalanan sənədlər və əldə edilən razılaşmalar əlaqələrin sistemli və məqsədyönlü şəkildə inkişaf etdiyini bir daha təsdiqləyir.

Bu gün Azərbaycan ilə Serbiya arasında siyasi münasibətlər yüksək səviyyədə olmaqla yanaşı, davamlı dialoq və qarşılıqlı dəstək prinsipləri üzərində qurulub və strateji tərəfdaşlıq mərhələsinə yüksəlib. Məhz bu mənada dövlətimizin başçısının Serbiyaya rəsmi səfəri də mühüm əhəmiyyət kəsb edib. Bu səfər iki dost ölkə arasında formalaşmış etimadın, strateji tərəfdaşlığın və siyasi iradənin növbəti təsdiqidir. Belqradda dövlətimizin başçısının yüksək səviyyədə, xüsusi ehtiramla qarşılanması, Serbiya Prezidentinin qarşılanma mərasimində şəxsən iştirak etməsi iki ölkənin və onların rəhbərlərinin dostluğunun göstəricisidir. Bu səfər onu nümayiş etdirdi ki, Azərbaycan həm təhlükəsizlik, həm enerji, həm də siyasi dialoq müstəvisində etibarlı tərəfdaşdır.

Belqradda keçirilən görüşlərdə münasibətlərin dərinliyi və gələcək perspektivləri bəyan edildi. Aleksandar Vuçiçin Prezident İlham Əliyev haqqında səsləndirdiyi fikirləri səmimiyyətin, dostluğun təcəssümüdür. O, Azərbaycan Prezidentinin təcrübəsini, uzaqgörənliyini və liderlik keyfiyyətlərini xüsusi vurğuladı. Bu, iki lider arasında şəxsi etimadın dövlətlərarası münasibətlərə necə müsbət təsir göstərdiyini bir daha nümayiş etdirdi.

Azərbaycanla Serbiya arasında ticarət dövriyyəsinin dəfələrlə artması, xidmət sektorunda əməkdaşlığın genişlənməsi və qarşılıqlı investisiyaların həcminin yüksəlməsi əlaqələrin inkişafının real nəticələridir. Xüsusilə də 2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəmizin 16 dəfə artması əməkdaşlığın dinamik inkişafını sübut edir. Bu göstərici davamlı siyasi dialoqun iqtisadi müstəvidə real nəticəyə çevrilməsinin bariz nümunəsidir.

Enerji sahəsində əməkdaşlıq da səfər zamanı müzakirə edilən əsas məsələlərdən biri oldu. Azərbaycan Serbiyanın enerji təhlükəsizliyində əsas tərəfdaşdır. Serbiyaya təbii qaz ixracının başlanması və həcmin artırılması ilə bağlı razılaşmalar iki ölkə arasında sıx münasibətlərdən xəbər verir. Serbiyada 500 meqavatlıq elektrik stansiyasının birgə inşası isə əməkdaşlığın yeni mərhələsidir. Bu layihə həm iqtisadi, həm də strateji məzmun daşıyır.

Belqradda Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının keçirilməsi tərəfdaşlıqda yeni bir mərhələdir. Müasir beynəlxalq münasibətlər sistemində çeviklik, qarşılıqlı məsləhətləşmə və koordinasiya əsas şərtlərdir. Strateji Tərəfdaşlıq Şurasının fəaliyyəti qarşılıqlı etimadın və uzunmüddətli strateji baxışın göstəricisidir.

Səfər çərçivəsində paraflanan sənədlər də əməkdaşlığın çoxşaxəli xarakterini təsdiqləyir. Qida təhlükəsizliyi, elektrik stansiyasının tikintisi, iqtisadiyyat nazirlikləri arasında memorandum, media və kommunikasiya sahəsində əməkdaşlıq, mədəniyyət üzrə 2026-2030-cu illəri əhatə edən proqram, idman sahəsində anlaşma, tibbi sığorta sistemləri üzrə əməkdaşlıq, bütün bu istiqamətlər göstərir ki, münasibətlər həm də cəmiyyətlərin müxtəlif sahələrini əhatə edir. Bu isə əlaqələrin dayanıqlılığını daha da artırır.

Bakı-Belqrad birbaşa aviareyslərinin açılması iki xalq arasında təmasları intensivləşdirəcək. Turizm, biznes, tələbə mübadiləsi və mədəni əlaqələr üçün yeni imkanlar yaranacaq. Serbiya Prezidentinin Bakının gözəlliyi, təhlükəsizliyi və inkişafı barədə səsləndirdiyi fikirlər Azərbaycanın müasir, sabit və cəlbedici ölkə imicinin beynəlxalq aləmdə yüksək qəbul olunduğunu bir daha təsdiqləyir: "Mən Serbiyanın bütün vətəndaşlarına şəxsən deyə bilərəm ki, Bakı gözəl şəhərdir. Onlar orada bir çox yeniliklər görə bilərlər. Şəhər Xəzər dənizinin sahilində yerləşir. O, təmiz, səliqəli şəhərdir. Mən nə zaman Bakıya səfər edirəm, yeni möcüzələr görürəm, Prezident Əliyevin Azərbaycan hökuməti ilə bir yerdə inşa etdiyi yeni və gözəl yerləri görürəm".

Ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir. İndiyədək iki ölkə arasında müxtəlif sənədlər imzalanıb. Bu sənədlər arasında 2013-cü ildə imzalanmış Dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə və 2018-ci ildə imzalanmış Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı xüsusi əhəmiyyət daşıyır.

Bu səfər siyasi baxımdan da mühüm mesajlar verdi. Vurğulanmalıdır ki, Azərbaycan və Serbiya beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Bu prinsipial mövqe münasibətlərin əsas göstəricilərindən biridir. Dövlətçilik anlayışına verilən önəm hər iki ölkənin ortaq dəyəridir. Prezident İlham Əliyevin Serbiyanın milli bayramı olan Dövlətçilik Günü münasibətilə təbriki də bu mənada xüsusi əhəmiyyət daşıyır. Həmin bayram ərəfəsində Azərbaycan nümayəndə heyətinin qəbul edilməsini xüsusilə vurğulayan dövlətimizin başçısı bunu yüksək münasibətlərin təzahürü kimi qiymətləndirdi.

Prezident İlham Əliyevin Münxen görüşləri və Serbiyaya rəsmi səfəri göstərir ki, dövlətimizin başçısının liderliyi ilə həyata keçirilən ardıcıl siyasət ölkəmizin nüfuzunu daha da artırır, milli maraqlarının qorunmasını təmin edir. Eyni zamanda qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıq və uzaqgörən diplomatiya Azərbaycanın beynəlxalq arenadakı uğurlarının əsasını təşkil edir. Bu səfərlər həm də Azərbaycanın artan siyasi çəkisinin və qlobal miqyasdakı nüfuzunun aydın nümayişidir.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# Bərpaolunan enerji stansiyalarının genişləndirilməsi Azərbaycanın ixrac potensialını artıracaq

**"Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri müasir beynəlxalq münasibətlər sistemində müstəqil siyasət yürüdən iki dövlətin strateji yaxınlaşmasının bariz nümunəsi kimi qiymətləndirilə bilər. Bu səfər təkcə diplomatik protokol çərçivəsində keçirilən görüşlərlə məhdudlaşmadı, həm də konkret iqtisadi və energetik layihələrin gündəmə gətirilməsi ilə yadda qaldı".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Şahin Seyidzadə bildirib.

Onun sözlərinə görə, Serbiya Prezidenti Aleksandar Vuçiçin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkənin iqtisadi dayanıqlılığını artırıb, xarici sərmayə axınını gücləndirib. Energetika sahəsində əməkdaşlıq iki ölkə münasibətlərinin əsas sütunlarından birinə çevrilib. Azərbaycan artıq Serbiyaya təbii qaz ixrac edir və bu ixracın artırılması barədə razılıq əldə olunub. Bu, Serbiyanın enerji şaxələndirilməsi siyasətinə mühüm töhfə verir. Eyni zamanda qazın elektrik enerjisinə çevrilməsi və təmiz enerji istehsalı gələcəkdə regional enerji bazarında yeni imkanlar açır. Azərbaycanın 2032-ci ilə qədər əlavə 8 qiqavat enerji gücü yaratmaq planı ölkənin "yaşıl enerji" strategiyasının tərkib hissəsidir. Bərpaolunan enerji stansiyalarının tikintisi və genişləndirilməsi Azərbaycanın ixrac potensialını əhəmiyyətli dərəcədə artıracaq.

Deputat qeyd edib ki, bu kontekstdə Serbiya ilə əməkdaşlıq həm ənənəvi, həm də alternativ enerji sahələrini əhatə edir. Birgə elektrik stansiyasının inşası layihəsi isə iqtisadi əməkdaşlığın konkret təzahürüdür. Bu layihə həm investisiya əməkdaşlığını dərinləşdirəcək, həm də Serbiyanın enerji təhlükəsizliyini möhkəmləndirəcək. Azərbaycan sərmayəsinin bu layihədə iştirakı iki ölkə arasında etimadın və uzunmüddətli tərəfdaşlığın göstəricisidir. Nəqliyyat və transmissiya imkanlarının genişləndirilməsi də gündəmdə olan məsələlərdəndir. Azərbaycanın əsas ixrac istiqaməti Avropa məkanıdır və bu marşrutların şaxələndirilməsi strateji prioritetdir.

"Serbiya coğrafi mövqeyi etibarilə bu prosesdə mühüm rol oynaya bilər. Prezident İlham Əliyevin səfər zamanı səsləndirdiyi fikirlər göstərir ki, Bakı və Belqrad münasibətləri təsadüfi deyil, sistemli və uzunmüddətli strateji baxışa əsaslanır. Qarşılıqlı səfərlərin davam etdirilməsi, institusional mexanizmlərin yaradılması əməkdaşlığın davamlılığını təmin edəcək. Beləliklə, fevralın 15-də həyata keçirilmiş səfər Azərbaycan-Serbiya münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu mərhələ qarşılıqlı sərmayə, enerji təhlükəsizliyi, beynəlxalq platformalarda həmrəylik və dostluq münasibətlərinin daha da möhkəmlənməsi ilə xarakterizə olunur, - deyə Ş.Seyidzadə vurğulayıb.

# Ermənistanın müstəqillik bəyannaməsi beynəlxalq müqavilələrin şərtlərinə ziddir

**Ermənistan Konstitusiyasının qüvvədə olan redaksiyasının preambulasında istinad edilən Ermənistanın müstəqillik bəyannaməsi beynəlxalq razılaşmaların, o cümlədən Brest-Litovsk sülh müqaviləsinin şərtlərinə ziddir.**



AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin bir sıra ölkələrdəki keçmiş səfiri Numan Xəzər Ankarada "Brest-Litovsk müqaviləsi və onun Türkiyə ilə Sovet İttifaqı, daha sonra isə Ermənistan arasında münasibətlərə təsiri" mövzusunda keçirilən konfransda çıxışı zamanı bildirib.

Ankaradakı Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) təşkil etdiyi konfrans iştirakçılarına müraciət edən təqaüddə olan diplomat xatırladıb ki, Osmanlı imperiyası 1918-ci il martın 3-də sovet Rusiyası ilə müqavilə imzalayan dövlətlər sırasında olub.

O, Brest-Litovsk sülh müqaviləsini Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti üçün "böyük diplomatik qələbə" adlandırıb.

"Bu sənədə əsasən, sovet hakimiyyəti 1878-ci ildə Rusiyanın nəzarətinə keçmiş Qars, Ərdəhan və Batumu Osmanlı dövlətinə qaytarmağı öhdəsinə götürmüşdü. Brest-Litovsk sülhü üzrə danışıqlar zamanı Osmanlı nümayəndə heyəti digər materiallarla yanaşı, Şərqi Anadoluda ermənilərin törətdiyi qanlı cinayətlər barədə məlumatları da sovet nümayəndələrinə təqdim edib", - deyə N.Xəzər qeyd edib.

O, "Qərbi Ermənistan" iddialarını Türkiyə-Ermənistan münasibətlərinin perspektivləri üçün açıq təhdid adlandırıb.

Diplomat vurğulayıb ki, Türkiyənin Cənubi Qafqaz bölgəsindəki sərhədləri 1921-ci ildə Brest-Litovsk sülhünün şərtlərinin qismən tanınması olan Moskva müqaviləsinə uyğun olaraq tamamilə formalaşıb. "Qars və Ərdəhan Türkiyənin tərkibində tanınıb, Batum isə SSRİ-nin tərkibinə daxil edilib", - deyə keçmiş səfir vurğulayıb.

# İordaniya mediasında Bakının turizm imkanları və şəhərsalma ənənələri barədə məlumatlar yayımlanıb







**İordaniya mediasında Bakı şəhərinin tarixi, turizm imkanları, eləcə də ölkəmizin unikal şəhərsalma nümunələri olan "Ağ Şəhər" və "Sea Breeze" layihələri, habelə Bakı limanı barədə materiallar yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, "ər-Ray" qəzetində dərc edilmiş məqalədə Azərbaycan paytaxtının mədəni irsi, müasir infrastrukturu və turizm imkanları barədə yazılıb.

Yazıda İçərişəhər, Nizami küçəsi, Dənizkənarı park, Alov qüllələri və şəhərin digər görməli yerləri haqqında məlumat verilib. Qeyd olunub ki, Azərbaycanın paytaxtı tarixlə müasirliyin ahəngdar vəhdətini özündə birləşdirən şəhər kimi xarici qonaqlarda dərin təəssürat yaradır. Əsrlər boyu mühüm ticarət və mədəniyyət mərkəzi kimi tanınan bu ərazi qədim İpək yolunun əsas dayanacaqlarından biri olub. Daş döşənmiş dar küçələr, möhtəşəm qala divarları və Qız qalası paytaxtın zəngin tarixinin canlı şahidləridir.

Eyni zamanda vurğulanıb ki, dahi Azərbaycan şairinin adını daşıyan və şəhərin qonaqlarının sevimli məkanlarından olan Nizami küçəsində klassik Avropa memarlıq üslubunda inşa edilmiş binalar, çoxsaylı mağazalar və ictimai iaşə obyektləri Bakının dinamik inkişafını nümayiş etdirir. Bura qədim Avropa şəhərlərini xatırlatsa da, aydın Qafqaz ruhunu daşıyır.

Diqqətə çatdırılıb ki, Alov qüllələri müasir Bakının rəmzi kimi seçilir. Onların möhtəşəm dizaynı Azərbaycan mədəniyyətinin əsas simvollarından biri olan alov rəmzindən ilhamlanıb.

Bildirilib ki, Bakını fərqləndirən yalnız memarlıq gözəlliyi deyil, inkişafla milli kimliyin qorunması arasında yaratdığı tarazlıqdır. Müasir layihələr tarixi abidələrlə yanaşı dayanır. Küçələr və meydanlar düşünülmüş planlaşdırmanın və aydın baxışın nəticəsi kimi görünür.

İordaniyanın "Roya" telekanalında yayımlanan reportajda isə Azərbaycanın paytaxtında şəhərsalma, nəqliyyat-logistika, turizm və bərpaolunan enerji sahələrində həyata keçirilən iri layihələr barədə danışılıb. Qeyd olunub ki, bu layihələr vasitəsilə Bakının dayanıqlı inkişaf modeli ardıcıl şəkildə möhkəmləndirilir.

Vurğulanıb ki, son illər Bakı geniş inkişaf mərhələsinə qədəm qoyub. Həyata keçirilən layihələr şəhərin müasir urbanizasiya prinsipləri əsasında yenidən qurulmasını, infrastrukturun təkmilləşdirilməsini və investisiya mühitinin daha da yaxşılaşdırılmasını hədəfləyir. Bu layihələr arasında 2011-ci ildə əsası qoyulan "Ağ Şəhər" layihəsi xüsusi yer tutur. Layihə çərçivəsində keçmiş sənaye zonası müasir və dayanıqlı şəhər məkanına çevrilir.

Xəzər dənizi sahilində reallaşdırılan "Sea Breeze" layihəsi isə regionun ən iri inteqrasiya olunmuş turizm komplekslərindən biri hesab olunur. Müasir yaşayış infrastrukturu ilə istirahət və əyləncə obyektlərini birləşdirən layihə Bakının regional və beynəlxalq turizm mərkəzi kimi mövqeyini möhkəmləndirməyə xidmət edir.

Reportajda həmçinin Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat qovşaqlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tarixi və fəaliyyəti barədə məlumat verilib. Bu limanın böyük əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

# Azərbaycan ilə Serbiya arasında iqtisadi və ticarət əlaqələri sabit müsbət tendensiya göstərir

**"Azərbaycan ilə Serbiya arasında iqtisadi və ticarət əlaqələri yüksəksəviyyəli siyasi dialoq və dövlətlərarası əməkdaşlıqdan irəli gələn sabit müsbət tendensiya göstərir".**



Bu barədə AZƏRTAC-a Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat kafedrasının dosenti və iqtisadiyyat üzrə fəlsəfə doktoru Emin Qəribli bildirib.

Ekspertin sözlərinə görə, iki ölkə arasında ticarət dövriyyəsi 2023-cü ildən bəri artım göstərib ki, bu da dövlət başçıları arasında münasibətlərin yüksək səviyyəsi və əlverişli institusional mühitin yaradılması ilə birbaşa bağlıdır, eyni zamanda dövlətlərarası əməkdaşlığın uğurlu modelini nümayiş etdirir.

Agentliyin müsahibi əlavə edib: "Neft, neft məhsulları, kimyəvi maddələr və təbii qaz Azərbaycanın Serbiyaya ixracının əsas komponentləridir. Azərbaycan öz növbəsində Serbiyadan sənaye avadanlıqları və kənd təsərrüfatı məhsulları idxal edir. Ölkəmiz həmçinin Serbiya və daha geniş şəkildə Şərqi Avropa ölkələri üçün enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayır. Serbiya potensial olaraq neft məhsulları, xam neft və qazın regional bazarlara tranziti və təkrar ixracı mərkəzinə çevrilə bilər".

E.Qəribli sözlərinə davam edərək bildirib ki, beləliklə, əməkdaşlıq tədricən klassik ticarətdən davamlı istehsal zəncirlərinin formalaşmasına doğru dəyişir.

Müdafiə sənayesində sürətlə inkişaf edən əməkdaşlığa toxunan ekspert qeyd edib ki, hazırda tərəflər bu sahədə birgə istehsala doğru irəliləyir və bu, sənaye əməkdaşlığı, texnoloji mübadilə üçün geniş perspektivlər açır.

"Biz artıq sənaye əməkdaşlığı mərhələsindəyik. Gələcəkdə enerji sektoru da daxil olmaqla birgə layihələr vasitəsilə məhsulların Avropa İttifaqı bazarlarına ixracı mümkündür", - deyə o vurğulayıb və əlavə edib ki, Aİ təkcə iqtisadi deyil, həm də ölkələrin institusional birliyini təmsil edir.

"Serbiya və digər regional dövlətlərlə tərəfdaşlıq Azərbaycan məhsullarının Avropa bazarlarına inteqrasiyasına əlavə imkanlar açır. Bu, xarici iqtisadi əlaqələrin şaxələndirilməsi üçün vacib strateji vektordur", - deyə ekspert sözlərini yekunlaşdırıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Azəri" 21 ildir Azərbaycanın "qara qızıl" xəzinəsidir

**2005-ci ilin fevral ayında Xəzərdə, "Azəri-Çıraq-Günəşli" (AÇG) müqavilə sahəsində yerləşən "Mərkəzi Azəri" platformasından hasilata başlandı. Fevralın 18-də Prezident İlham Əliyev yeni inşa olunmuş bu hasilat, qazma və yaşayış platformasına gələrək buradan ilk neftin əldə olunmasını rəsmi tədbirlə qeyd etdi.**



"Mərkəzi Azəri" platforması "Çıraq"dan sonra AÇG-də ikinci hasilat qurğusudur. Dənizdə, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Bu platformadan neft alınması ümumilikdə "Azəri" yatağının ilk neftinin əldə olunması demək idi. Çünki "Mərkəzi Azəri" necə deyərlər, yataq daxilində yataqdır, yəni nəhəng "Azəri"nin üç hissəsindən biridir. Digər hissələr "Qərbi Azəri" və "Şərqi Azəri" adlanır.

"Mərkəzi Azəri" platformasının digərlərindən bir mühüm fərqi də var. "Mərkəzi Azəri" ona körpü ilə birləşdirilmiş texniki platforma olan kompressor və suvurma qurğusu ilə birlikdə Xəzərdə ən böyük dəniz komplekslərindən biri sayılır. Bu kompleks AÇG-dəki digər platformalara və qurğulara vacib əməliyyatlar mərkəzi kimi də xidmət göstərir və öz geniş texniki imkanları sayəsində bütün əməliyyatların təhlükəsiz və etibarlı aparılmasını təmin edir.

Xatırladaq ki, "Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi haqqında Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) çərçivəsində hasilat İlkin Neft Layihəsi üzrə 1997-ci ilin noyabrında "Çıraq"dan başlanmışdı. "Azəri"nin işlənməsi isə növbəti mühüm mərhələni təşkil edirdi. "Azəri" AÇG layihəsi daxilində işlənən ən böyük yataqdır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə ilk axıdılan məhz bu yatağın nefti olub.

Bu baxımdan Azərbaycanı dirçəldən, beynəlxalq enerji "ailə"sinə qovuşduran "Əsrin müqaviləsi"nin salnaməsində 21 il əvvəlin bugünkü tarixinin - fevralın 18-nin xüsusi önəmi var. Məhz həmin vaxt AÇG layihəsi özünün kulminasiya nöqtəsinə çatıb.

Prezident İlham Əliyev "Mərkəzi Azəri" platformasındakı tədbirdə çıxış edərkən hadisənin əhəmiyyətini belə vurğulayıb: "Bu gün "Azəri" yatağında ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır".

Həmin vaxtdan indiyədək "Azəri"dən hasilat ahəngdar və təhlükəsiz şəkildə davam edir. Bu möhtəşəm yatağın sərvətindən Azərbaycan bu gün də bəhrələnir. Belə ki, keçən il yatağın mərkəzi hissəsindən gündə orta hesabla 90 min, qərbi hissəsindən 76 min, şərqi hissəsindən 43 min barel neft alınıb. Bütövlükdə isə 2025-ci ildə "Azəri-Çıraq-Günəşli" 120 milyon barel, yəni 16 milyon ton neft verib.

AÇG-dən neftlə bərabər səmt qazı da hasil edilir ki, onun da böyük hissəsi Azərbaycan dövlətinə təmənnasız olaraq təhvil verilir. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulur. Keçən il əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 2,7 milyard kubmetr səmt qazı təhvil verilib.

"Şah damarı"nı "Azəri" təşkil edən AÇG-də yeniliklər də az deyil.

İndi AÇG böyük həcmdə sərbəst təbii qaz (STQ) ehtiyatları da vəd edir. STQ ehtiyatlarının xeyli iri həcmdə - 4 trilyon kubfutadək olduğu düşünülür. STQ-nin kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də AÇG üzrə mövcud HPBS-yə yeni bir əlavə imzalanıb. Bundan sonra ilkin hasilat quyusu planlaşdırılıb və quyu "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılıb. Bu quyu qiymətləndirmə baxımından da əhəmiyyətlidir, çünki oradan əldə edilən məlumatlar AÇG-dəki sərbəst təbii qaz ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək.

Keçən il quyuda qazma işləri uğurla tamamlanıb və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layına - nisbətən dayaz Qırmakıüstü Qumlu və nisbətən dərin Qırmakıaltı lay dəstlərinə çıxış təmin edilib.

Quyu ilk sərbəst qaz hasilatı üçün əsas hədəf lay sayılan Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib. Bu laydan hasilat cari ilin ikinci yarısına planlaşdırılır. Bundan əlavə, Qırmakıaltı lay dəstində yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib. Cari ilin birinci yarısında həmin laydan hasilata başlanması gözlənilir. Lakin bu, sınaq məqsədilə aparılacaq hasilat kimi nəzərdə tutulur. Qeyd edildiyi kimi, bundan sonra daha dayaz hissədə yerləşən Qırmakıaltı layından hasilata keçiləcək.

Bu layihənin gerçəkləşməsi ölkəmizin neft-qaz sənayesində mühüm bir yenilik olacaq.

Prezident İlham Əliyev qarşıya ölkədə neft hasilatını sabitləşdirmək, qaz hasilatını artırmaq vəzifəsini qoyub. AÇG-də, o cümlədən onun əsas hissələrindən biri olan "Azəri"də görülən işlər də məhz bu məqsədə xidmət edir.

Onu da xatırladaq ki, hazırda AÇG-də iştirak payları belədir: BP (həm də operatordur, 30,37 faiz), SOCAR (31,65 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,92 faiz).

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## BVF ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



**İqtisadiyyat Nazirliyində Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri ilə görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Anna Bordonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycanın iqtisadi prioritetləri və bu istiqamətdə həyata keçirilən islahatlar barədə məlumat verilib. Ölkənin makroiqtisadi sabitliyi, sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq enerji, rəqəmsallaşma, vergi, sənaye və digər istiqamətlərdə həyata keçirilən tədbirlər, qabaqcıl təcrübələrin tətbiqi nəticəsində əldə olunmuş irəliləyişlər qeyd olunub.

Tərəflər əməkdaşlığın perspektivlərini nəzərdən keçiriblər.

## Əlilliyin qiymətləndirilməsində süni intellektin tətbiqi genişlənir

**Bu tətbiq çoxmənbəli informasiya bazalarının inteqrasiyasını, məlumatların sistemli təhlilini və mümkün uyğunsuzluqların operativ aşkarlanmasını da təmin edəcək.**



Əlilliyin qiymətləndirilməsi sistemində süni intellekt texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi istiqamətində kompleks işlər aparılır.

Bu tətbiq çərçivəsində tibbi-sosial məlumatların dərin təhlili, çoxmənbəli informasiya bazalarının inteqrasiyası, sənədlərin avtomatlaşdırılmış emalı və risk əsaslı qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi nəzərdə tutulub.

Nəticədə qiymətləndirmə zamanı qərarvermə prosesində həm sürət, həm də dəqiqlik əhəmiyyətli dərəcədə artacaq. Eyni zamanda süni intellekt alətlərinin tətbiqi bu prosesdə vahid standartları formalaşdıracaq və məlumatların sistemli şəkildə analizinə, mümkün uyğunsuzluqların operativ aşkarlanmasına imkan verəcək.

Qeyd edək ki, ötən il "Əlillik" altsistemində tətbiq edilmiş süni intellekt əsaslı funksionallıq tibbi göndərişlərdə mətn analizinin aparılmasına, qərarvermə üçün əhəmiyyətli göstəricilərin avtomatik müəyyənləşdirilməsinə və s. imkan yaradıb.

Bu texnoloji həll həmçinin sui-istifadə hallarına səbəb ola bilən həssas və riskli məlumatların avtomatik aşkarlanmasını təmin edərək nəzarət mexanizmlərini gücləndirib. Nəticədə subyektiv yanaşmaların və potensial yanlışlıqların minimuma endirilməsi istiqamətində mühüm addım atılıb.

Sosial sahədə rəqəmsal transformasiya prosesinin davamlı şəkildə inkişaf etdirilməsi nəzərdə tutulur.

## Startaplar - kiçik ideyadan böyük uğura imza atanlar

**Bir zamanlar adi bir tələbə olan Mark Zukerberg bu gün dünyanın ən böyük texnologiya şirkətlərindən biri - Meta (Facebook) platformasının qurucusudur. Onun hekayəsi göstərir ki, düzgün ideya və davamlılıq böyük uğurların təməlidir. Harvard Universitetində oxuduğu dövrdə o, sadəcə, tələbələrin bir-biri ilə daha rahat əlaqə qurması üçün platforma yaratmaq istəyib. İş elə gətirib ki, qısa müddət ərzində bu layihə universitet sərhədlərini aşaraq qlobal sosial şəbəkəyə çevrilib.**

İlk mərhələdə maliyyə çatışmazlığı, texniki problemlər və rəqabət kimi çətinliklər olsa da düzgün komanda quruculuğu və strateji qərarlar layihənin sürətlə böyüməsinə şərait yaradıb. Sadə bir tələbə layihəsinin qlobal şirkətə çevrilməsi startapların necə formalaşdığının aydın göstəricisidir. Kiçik bir ideyadan başlayaraq qlobal uğura çevrilən bu layihə həm də klassik startap modelidir. Təbii ki, facebook platrforması və bənzərləri asanlıqla başa gəlməyib. Arxasında uzunmüddətli planlama, risk etmək cəsarəti və fasiləsiz inkişaf dayanır. Hər bir startap ilkin mərhələdə kiçik və şübhəli görünsə də, doğru strategiya ilə qlobal miqyasda təsir gücünə malik ola bilər. Deməк ki, startap dünyasında əsas məsələ yalnız ideya deyil, həmin ideyanın həyata keçirilməsi, düzgün idarə olunması və dəyişən bazar şərtlərinə uyğunlaşdırılmasıdır.

Startap nədir? Bu, innovativ ideya əsasında qurulan və sürətli böyümə potensialı olan biznes modelidir. Ənənəvi biznesdən fərqli olaraq, startaplar adətən yeni texnologiya, rəqəmsal yanaşma və ya bazarda mövcud olmayan məhsul üzərində qurulur. Onların əsas məqsədi qısa müddətdə geniş auditoriyaya çatmaq və genişlənə bilən sistem yaratmaqdır.

Bu prinsipləri uğurla tətbiq edən yerli gənc startapçılardan biri hazırda Londonda yaşayan azərbaycanlı Murad Hüseynovdur. O, özünün "Mosaic Journal" adlı fotojurnal tətbiqini inkişaf etdirərək innovativ ideyaları praktik layihəyə çevirib. Murad Hüseynov startap layihəsi haqqında deyir: "Mosaic Journal" fotojurnal tətbiqidir. İstifadəçi qeydiyyatdan keçəndə əvvəlcə 365 boş səhifəsi olan bir jurnal alır. Tətbiq vasitəsilə hər gün həyatında dəyər verdiyi bir anı - fotonu tətbiqə yükləyir. Ayda bir dəfə həmin şəkillər çap olunur və istifadəçiyə göndərilir. İlin sonunda isə insan həyatının tam bir ilini əhatə edən fiziki fotoalboma sahib olur".

Bakıda doğulan gənc həmyerlimiz ideyasının haradan qaynaqlandığını belə izah edir: "Deyərdim ki, bu ideyanı formalaşdıran iki-üç əsas amil var. Ən önəmlisi isə şəxsi həyat yolumdur. Azərbaycan, Almaniya və London arasında keçən bir həyat. Mən hər zaman hiss etmişəm ki, hər bir insanın həyatı çox zəngindir, amma bu zənginlik sosial mediada əks olunmur. Hamımız valideynlərimizin evində köhnə fotoalbomlara baxmağın nə demək olduğunu bilirik. Mən isə düşündüm ki, 20 ildən sonra uşaqlarıma, sadəcə, telefonumu, sosial mediamı göstərmək istəmirəm. Elə orada anladım ki, fiziki fotoalbom ideyası üzərində işləmək istəyirəm".

Murad Hüseynovun layihəsi həm şəxsi xatirələri qorumağa, həm də insanların gündəlik həyatını daha şüurlu şəkildə sənədləşdirməyə imkan yaradır. Bu yanaşma həm innovativ, həm də emosional cəhətdən cəlbedicidir və startap anlayışının mahiyyətini əks etdirir. Startapların uğuru bir neçə əsas amildən asılıdır: bazarda fərqlilik yaradan innovativ ideya, peşəkar və motivasiyalı komanda, investor dəstəyi, riskləri idarə edə bilmə bacarığı və məhsulu doğru auditoriyaya çatdıran düzgün strategiya və marketinq. Bunlar bir araya gəldikdə kiçik bir layihənin qlobal uğura çevrilməsi mümkün olur.

Hər bir uğurlu startapın arxasında doğru qərarlar qəbul edən və riskləri idarə edən biznesmen dayanır. Biznesmen iqtisadi fəaliyyət göstərən, risk götürən və mənfəət əldə etməyi hədəfləyən sahibkardır. Təbii ki, biznesmen, sadəcə, ticarətlə məşğul olan şəxs deyil. O, həm də strateq, lider, idarəçi və yenilikçidir. Uğurlu biznesmen bazar tələbatını düzgün analiz edir, komanda qurmağı bacarır və dəyişən şəraitə uyğunlaşa bilir. Məsələn, Elon Musk Tesla, Inc. və kosmik texnologiya şirkəti olan SpaceX vasitəsilə innovasiyanın sərhədlərini genişləndirib. Nəticə etibarilə startaplar və biznesmenlər müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab olunur. Onlar yeni iş yerləri yaradır, innovasiyanı inkişaf etdirir və iqtisadi artıma təkan verirlər. Uğurlu startap qurmaq üçün isə təkcə yaxşı ideya kifayət deyil, zəhmət, səbir, risk və strateji düşüncə əsas şərtlərdir.

Startap anlayışı son 10-15 ildə qlobal iqtisadiyyatın əsas mövzularından biri kimi diqqət çəkir. Bu, yeni texnologiyalar və innovativ biznes modellərinin sürətli inkişafı ilə əlaqədardır. Həmin inkişaf fonunda aqrar texnologiyalar sahəsində rəqəmsal platformalar, "ağıllı kənd" modelləri və süni intellekt əsaslı sistemlər üzərində işləyən komandaların sayı artır. Dövlət proqramları, innovasiya mərkəzləri və texnoparklar gənc sahibkarların ideyalarını reallaşdırmasına dəstək verir. Bu da ölkədə neftdənkənar sahənin inkişafına mühüm töhfə verir.




Azərbaycanda startapların inkişafında mühüm rol oynayan qurumlardan biri İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyidir. Agentlik müxtəlif qrant proqramları və beynəlxalq əməkdaşlıqlar vasitəsilə gənc sahibkarlara dəstək göstərir. Bundan başqa ölkədə startapların inkişafında akselerasiya (qısamüddətli proqramlar) layihələri də onlara təlim, mentorluq və maliyyə dəstəyi verərək ideyalarının işlək biznes modelinə çevrilməsini sürətləndirir.

Belə bir mühitdə ölkəmizdə startapları dəstəkləyən forum və tədbirlər mühüm rol oynayır. Startap sahəsini inkişaf etdirmək üçün forum çərçivəsində müxtəlif layihələr təşkil edilir. 2022-ci ildən keçirilməyə başlayan Aqrar İnnovasiya Forumları və startap müsabiqələri gənclərin bu sahəyə marağını artırıb. O zaman keçirilən 1-ci forum startapçıların və gənclərin innovativ layihələrini nümayiş etdirməsi üçün əlverişli platforma yaratdı. Bu mənada fevralın 16-da keçirilən Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi ADA Universitetinin kənd təsərrüfatı və qida elmləri fakültəsi ilə birgə IV Aqrar Startaplar və İnnovasiya Forumu da bu qəbildəndir. Tədbir ADA Universitetinin nəzdində fəaliyyət göstərən İtaliya-Azərbaycan Universitetində baş tutub.

IV Aqrar Startaplar və İnnovasiya Forumunda startapçılar və inkubasiya mərkəzləri ilə özəl sektor nümayəndələri innovativ layihələrini təqdim ediblər. Tədbirdə 90-dan çox startapçı 43 məhsulla çıxış edib, həmçinin 20 ali təhsil müəssisəsi və bir sıra elmi-tədqiqat institutları öz texnologiyalarını sərgiləyiblər. Ziyarətçilər süni intellekt əsaslı suvarma sistemləri, aqrorobot texnologiyaları, ağıllı istixana sistemləri, torpaq və məhsul monitorinq texnologiyaları rəqəmsal aqrar platformalar kimi innovativ yeniliklərlə tanış olublar. Forumda öyrənilən yeniliklər və təşəbbüslər fevralın 28-də Qarabağda baş tutacaq "Startup School" vasitəsilə sahibkarlığın inkişafı və innovativ layihələrin dəstəklənməsinə çevriləcək.

Məlumat üçün bildirək ki, layihə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), "Enterprise Azerbaijan" və "Azexport" portalları ilə birgə "Karabakh Training Center" tərəfindən həyata keçiriləcək. Layihənin məqsədi işğaldan azad olunmuş ərazilərdə sahibkarlıq və startapların inkişafını, innovasiyaların tətbiqini və rəqəmsal ticarət bacarıqlarını təşviq etməkdir. Xankəndidə təşkil olunacaq tədbirdə Qarabağ Universiteti, sənaye parkları və özəl sektor əməkdaşlıq imkanlarını müzakirə edəcəklər. İştirakçılar təlim və mentorluq xidmətləri ilə bacarıqlarını göstərəcək və sahibkarlıq sahəsində yeni imkanlarla tanış olacaqlar.

IV Forum və "Startup School" layihəsi göstərir ki, hər böyük uğurun arxasında kiçik bir ideya dayanır. Kiçik təşəbbüslər düzgün idarə olunduqda və dəstək aldıqda qlobal miqyasda təsir göstərə bilər. Bu da o deməkdir ki, gələcək riskdən qorxmayan, yenilikçi ideyaları reallaşdırmaqdan çəkinməyən startapların əlindədir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ağstafalı fermerlər yaz-tarla işlərini sürətləndirirlər

**Bu il qış kənd təsərrüfatı üçün əlverişli keçir. Ən əsası, əkin sahələrinin su ilə təminatında çətinlik yoxdur. Əkinçilikdə vacib olan qarın yağması həm yazda bol su üçün zəmin yaradır, həm də ziyanvericiləri məhv edir.**

Bütün kənd rayonları kimi, Ağstafanın iqtisadiyyatının da özəyini aqrar sahə təşkil edir. Son illər bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində məhsul istehsalında xeyli uğurlar qazanılmışdır. Amma indi yaz-tarla işlərinin qızğın vaxtıdır. Fermerler, təsərrüfat sahibləri yaz-tarla işlərinə ilk olaraq meyvə bağlarından başlamışlar. Hazırda rayonda 1619,3 hektar meyvə bağı mövcuddur. Bu bağlara üzvi və mineral gübrələr verildikdən sonra ağacların dibi yumşaldılır. Ən çox diqqət rayonda salınmış intensiv meyvə bağlarının becərilməsinə yönəlib. Keçən il Kolxəlifəli kəndində Səxavət Binnətov 55, Aşağı Göyçəli kəndində Nazim Əhmədov 6, Zəlimxan kəndində Elfaq Mamayev 1,49 hekarda intensiv fındıq bağları salıblar. Bağlara yüksək səviyyədə qulluq edilməklə 100 faiz bitiş əldə edilib. Bağbanlar paralel olaraq xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri də görürlər.



Rayonda 508 hektar üzüm bağı da var. Üzümçülük gəlirli sahə olduğu üçün fermerlər arasında bu sahəyə maraq çoxdur. Ötən il fermerlər hər hektar üzüm bağından orta hesabla 153 sentiner məhsul əldə etmişlər. Poylu kəndindən Səməndər Vəliyev, Qurban Aslanov və Kolxəlifəli kəndindən Yuləti Kərimov üzüm bağlarından daha çox məhsul toplamışlar. Hazırda bağlarda budama ilə yanaşı, təmir işləri də aparılır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağsaqqalların təcrübəsinə həmişə ehtiyac var

**Şəmkirdə rayon  rayon ağsaqqalları ilə görüş keçirilmişdir. Görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev rayonun ictimai-siyasi həyatında ağsaqqalların fəal rolundan danışmış, onların zəngin təcrübələrinə həmişə ehtiyac duyulduğunu diqqətə çatdırmışdır.**

Qeyd edilmişdir ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Şəmkirdə böyük tikinti-quruculuq işləri aparılır. 2025-ci ildə dövlət başçısının sərəncamı ilə 20 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisinə başlanılmış, həmçinin  Şəmkir şəhərinin 5 küçəsində ümumi uzunluğu 4 kilometr olan avtomobil yoluna yeni asfalt örtüyü salınmış, 6,9 kilometr yolda cari təmir işləri aparılmışdır. İdman qurğuları, uşaq əyləncə meydançaları quraşdırılmış, rayon ərazisində 237 yaşayış binasının dam örtükləri əsaslı təmir olunmuşdur.

Görüşdə çıxış edən ağsaqqallar ölkəmizdə, o cümlədən Şəmkirdə aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirmiş, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əməli addımlar atan Prezident İlham Əliyevə Şəmkir ağsaqqalları adından minnətdarlıqlarını bildirmişlər.

*"Azərbaycan"*

"Şəhərsalma və Memarlıq İli"

## Şirvan: kiçik qəsəbədən böyük şəhərə

**Şirvan ölkənin sənaye şəhərlərindən sayılır. Kürün sağ sahilində, əlverişli coğrafi mövqedə yerləşən şəhər 1930-cu ilədək Ərəbşahverdi, Qırxçıraq, Yekaterinserd, Zubovka, Papanino adlanıb. XX əsrin əvvəllərində kiçik bir yaşayış məntəqəsi olan indiki Şirvan Zubovka qəsəbəsi və Papanino dəmiryol stansiyasını əhatə edirdi.**

1930-cu ildə Zubovka rayonu yaradılır və eyni adlı rayonun mərkəzinə çevrilir. 1938-ci ildə qəsəbənin adından işğalçı  çar ordusunun generalı Zubovun adı götürülür və ona yerli  inqilabçının - Əli Bayramlının adı verilir. 1963-cü ildə şəhər statusu alan Əli Bayramlı 2008-ci ildə Şirvan adlanır. Onu da qeyd edək ki, respublikamızın qərb istiqamətinə gedən dəmir yolu və avtomobil yolları da buradan keçib gedir. Həmin yolların keçdiyi indiki Hacıqabul 1990-cı ilə kimi Şirvan şəhərinin tabeliyində olmuşdur.

Şirvan şəhərinin əsaslı inkişafı 1950-ci illərdən başlanır. Həmin vaxt burada neft və qaz yataqları kəşf edilmiş, "Şirvanneft" Neft və Qazçıxarma İdarəsi yaradılmışdır. Amma şəhərə şöhrət gətirən keçmiş SSRİ-də, eləcə də Avropada açıq havada tikilən ilk İstilik-Elektrik Stansiyası olmuşdur. 1958-ci ildə inşasına başlanan stansiyanın birinci bloku 1962-ci ildə işə salınmışdır. Zaqafqaziyanın (Cənubi Qafqazın) vahid enerji sastemină qoşulan stansiya qonşu Gürcüstana və Ermənistana da elektrik enerjisi verilmişdir.

Sonra şəhərdə bir-birinin ardınca süni dəri, pambıqtəmizləmə, yağ ekstraksiyası, dəmir-beton məmulatları, saxsı boru, məişət cihazlarını avtomatik idarəetmə qurğuları, nərəbalıqartırma zavodları və digər müəssisələr tikilib istifadəyə verilmişdir. Bu müəssisələr hesabına şəhər aydan-aya, ildən-ilə böyümüş və nəticədə yaxın ərazidə, boz dağların ətəyində "Təzə şəhər" salınmışdır. Respublikamızın ayrı-ayrı rayonlarından, eləcə də keçmiş SSRİ-nin müxtəlif yerlərindən işləmək üçün buraya axın-axın gənclər gəlmişlər. Onların çoxu talelərini bu şəhərə bağlamışdır. Beləliklə, Şirvan şəhəri neftçilər, energetiklər, gənclər şəhəri kimi şöhrət tapmışdır.



90-cı illərin məlum hadisələri Şirvan şəhərindən də yan keçməmişdir. İdarə və müəssisələr, zavodlar fəaliyyətini dayandırmış, onilliklər boyu tikilib qurulanlar dağıdılmışdır. Ataların belə bir kəlamı var: "Yaman günün ömrü az olar". Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan inkişaf etməyə başladı. Neftdən gələn gəlirlər 2004-cü ildən başlayaraq, regionların dirçəldilməsinə də yönəldildi. Bundan Şirvan şəhərinə də pay düşdü. Qısa müddətdə şəhərdə Cənub Elektrik Stansiyası, Olimpiya İdman Kompleksi, Müalicə-Diaqnostika Mərkəzi, təhsil və istehsal müəssisələri, çoxmərtəbəli yaşayış evləri, ictimai binalar inşa edildi, parklar, xiyabanlar salındı. Şəhərin yaşıllaşdırılması diqqət mərkəzində saxlanıldı. Şəhər əhalisinin içməli suya, elektrik enerjisinə, təbii qaza olan ehtiyaclarının ödənilməsi üçün tədbirlər həyata keçirildi. Yollar çəkildi, şəhərin işıqlandırma sistemi yeniləndi. Şirvanda özünəməxsus cəhətlərdən biri də ayrı-ayrı məhəllələrdə inşa edilən mərasim evləri, söhbətgahlardır. Artıq bir neçə ildir "İDEA" İctimai Birliyi şəhərdə "Bizim həyət" layihəsi çərçivəsində abad məhəllələr və yaşıllıqlar salır.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısının 15 mart 2024-cü il tarixli sərəncamı ilə "Şirvan şəhərinin 2024 - 2028-ci illər üçün Yeniləşən Şirvan sosial-iqtisadi inkişaf proqramı" təsdiq edilmişdir. Proqramda 13 prioritet istiqamət müəyyən olunmuşdur.

Hazırda şəhərin şərqində Mənzil İnşaat Dövlət Agentliyinin (MİDA) həyata keçirdiyi layihə çərçivəsində ümumi ərazisi 8,11 hektar yaşayış kompleksi tikilir. 11-i onikimərtəbəli, 14-ü doqquzmərtəbəli olmaqla 25 yaşayış binasının inşa olunduğu kompleksdə 960 şagirdlik tam orta məktəb, uşaq bağçası və digər sosial əhəmiyyətli obyektlər də tikilir. Artıq 4 binada inşaat işləri başa çatıb.

Qeyd etmək lazımdır ki, MİDA tərəfindən kompleksdə görülən işlərin keyfiyyətinə ciddi nəzarət olunur. Bu məqsədlə tikintidə iştirak edən şirkətlərin məsul işçiləri ilə demək olar hər gün görüşlər keçirilir, ətraflı söhbətlər aparılır. Onlara izah edilir ki, Azərbaycan seysmik zonada yerləşdiyi üçün burada aparılan işlərə çox məsuliyyətlə yanaşılmalıdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Bərdə bələdiyyəsinin fəaliyyəti razılıq doğurur



**Yerli özünüidarəetmə strukturlarında həyata keçirilən islahatlar bələdiyyə qurumlarının fəaliyyətində əhəmiyyətli dəyişikliklərlə müşayiət olunur. Ötən seçkilərdən sonra yerli bələdiyyələrin əksəriyyəti işini yeni tərkibdə quraraq qarşıya qoyulan vəzifələrin uğurla reallaşmasına nail olur. Vətəndaş məmnunluğunun təmin edilməsinə çalışır.**

Bərdə bələdiyyəsi istər əhatə etdiyi ərazi baxımından, istərsə də əhalinin sayına görə xeyli üstünlüyə malikdir. Bu yerli özünüidarəetmə qurumu əvvəl yalnız Bərdə şəhərindən ibarət idisə, son seçkilərdən sonra şəhərə yaxın olan Qaradağlı, Türkmən və Alaçadırlı kəndlərini də əhatə edir.

Bərdə bələdiyyəsinin sədri Ruslan Əhmədov söhbət zamanı ötən ilin yekunlarından, qarşıda duran vəzifələrdən danışır:

- Ölkəmizdə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi idarəetmədə işin səmərəliliyini əhəmiyyətli dərəcədə artırmışdır. Bunu ötən ilin nəticələri də təsdiq edir. 2025-ci ildə Bərdə bələdiyyəsinin büdcə gəlirləri 233 min manat olmuşdur. Gəlirlərin əsas mənbəyi torpaqların icarəyə verilməsi, fiziki şəxslərdən əmlak və torpaq vergisidir. Bundan əlavə, torpaq satışından və mədən vergisindən xeyli gəlir əldə etmişik. İl ərzində vergilərin yığılmasında ən çox irəliləyiş fiziki və hüquqi şəxslərdən toplanan əmlak və torpaq vergisi ödənişində hiss olunur.

Ruslan Əhmədovun söhbətindən məlum olur ki, keçən il bələdiyyə büdcəsindən 173,7 min manat vəsait xərclənib. Ötən il torpaq ayrılması proseduruna başlanılmış, bu sahədə xeyli iş görülmüşdür. Sahibkarlıq məqsədilə və fərdi mənzil tikintisi üçün torpaq sahəsinin mülkiyyətə verilməsi haqqında qərarlar qəbul edilmişdir. Fərdi mənzil tikintisi üçün 5460 kvadratmetr ölçüdə torpaq sahəsi alqı-satqı yolu ilə 13 nəfərin mülkiyyətinə keçirilmişdir. Bundan əlavə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edən 11 nəfərə 877 kvadratmetr torpaq sahəsi mülkiyyətə verilmişdir. 5 nəfər isə 491 kvadratmetr ölçüdə torpaq sahəsini subicarəyə götürmüşdür.

Bərdə bələdiyyəsi ərazisindəki park, bağ, küçə və yolların nümunəvi saxlanması və mühafizə edilməsini daim diqqət mərkəzində saxlayır. Bu məqsədlə keçən il təmir və abadlıq işlərinə 46 min manat bələdiyyə vəsaiti xərclənmişdir. Diqqət ayrılan, önəm verilən sahələrdən biri də imkansız ailələrə, tənha yaşayan kimsəsiz şəxslərə maddi yardımların verilməsidir. Bu işlər pul, material, ərzaq bağlamaları və dəfn-yas mərasimlərinə edilən yardımlar şəklində həyata keçirilir.

Bərdə bələdiyyəsinin əhatə etdiyi şəhər və kənd sakinlərində məmnunluq yaradan bir məsələ xüsusi qeyd edilməlidir. Bu, kommunal xidmətin təşkili ilə bağlıdır. Bələdiyyənin təşəbbüsü ilə bağlanan müqavilələr əsasında şəhərlə bərabər hər üç kənddə vaxtaşırı evlərdən məişət tullantıları götürülür. Əvvəllər kəndlərdə heç vaxt işlər bu cür təşkil edilməyib. Bu yenilik, heç şübhəsiz, kəndlərin, məhəllələrin təmizliyinə, abad olmasına əhəmiyyətli təsir göstərir.

Bərdə bələdiyyəsi cari ildə yeni məqsədlər hədəfləyib. İstehsal və emal sahələri yaratmaq diqqət mərkəzində olacaq. İş yerləri açaraq, xüsusən, gənclərin faydalı məşğulluğunu təmin etmək də bələdiyyənin hədəfləri sırasındadır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Neftçalada su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi mövzusunda növbəti tədbir keçirilib

**Neftçala Rayon İcra Hakimiyyətində keçirilən seminar-müşavirədə rayon ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, suya olan tələbatın ödənilməsi və mövzu ilə bağlı digər məsələlər müzakirə olunub.**

Rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Burcalı Ağayev Azərbaycanın kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısı Ulu Öndər Heydər Əliyevin "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərinə xitab edərək su ehtiyatlarından səmərəli istifadənin kənd təsərrüfatında rolu barədə ətraflı məlumat verib.

Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin rəisi Təbriz Eyyubov isə  bu il əkilməsi planlaşdırılan 38158 hektar əkin sahəsinin suvarılması üçün nəzərdə tutulan illik 401,7 min kubmetr suyun həcminə uyğun olaraq əkin işlərinin nəzərdə tutulmasını, o cümlədən taxıl, pambıq, yem bitkilərinin suvarılmasında  fermerlərlə Sudan İstifadəedənlər Birlikləri arasında sudan istifadə ilə bağlı su müqaviləsinin bağlanması, pambıq sahələrinə arat, taxıl sahələrinə vegetasiya suyunun verilməsi ilə bağlı bir sıra məsələlərə toxunub, bir neçə Sudan İstifadəedənlər birliklərinin rasionallaşdırılmasının suyun idarə olunmasına müsbət töhfə verəcəyini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb.

Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin 4 saylı Şirvan-Salyan Regional bölməsinin rəis müavini Əliqismət Babazadə çıxışında əkin sahələrinə verilən suya nəzarətin  zəif olması səbəbindən drenaj kanallara axıdılması və nəticədə suyun israf olunmasını, sudan qanunsuz istifadəyə qarşı mübarizə tədbirlərinin gücləndirilməsini diqqətə çatdıraraq profilaktiki tədbirlərin görülməsi barədə ətraflı məlumat verib. "Kürqarabucaq" Sudan İstifadəedənlər Birliyinin sədri Zabit Dadaşov təcrübəli meliorator kimi bır sıra Sudan İstifadəedənlər birliklərinin birləşdirilərək səmərəli fəaliyyətinin təmin olunmasının əhəmiyyətindən, səmərəliliyindən söhbət açaraq təklif və fikirlərini bölüşüb.

Seminar-müşavirədə su ehtiyatlarından səmərəli istifadə ilə bağlı yığıncaq iştirakçılarının təklif və fikirləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Payızlıq əkinlərə görə subsidiya ödənişlərinə başlanılıb

**Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) 2025-2026-cı əkin ili üzrə subsidiya ödənişlərinin ilkin mərhələsinə start verib.**

Agentlikdən verilən məlumata görə, payızlıq əkinlər üzrə 217 min 617 fermerin kartlarına 77 milyon 154 min manat məbləğində subsidiya köçürülüb. Ödənişlər təxminən 391 min hektar əkin sahəsini əhatə edir.

Qeyd edək ki, fermerlər kartlarına köçürülmüş vəsaitin 25 faizini nağd, 75 faizini isə qeyri-nağd qaydada istifadə edə bilərlər. Qeyri-nağd vəsaitlər mineral gübrə, pestisid, biohumus, herbisid və toxumların alınmasına sərf oluna bilər. Fermerlər subsidiya vəsaitini meyvə bağlarında müasir suvarma sistemlərinin alınması və quraşdırılması məqsədilə də istifadə edə bilərlər.

## Masallıda rəqəmsal mühitdə uşaqları zərərli informasiyadan necə qorumalı sualına cavab axtarılıb

**Bununla bağlı keçirilən tədbirdə çıxış edənlər rəqəmsal mühitin müasir dövrdə uşaqların həyatında tutduğu mühüm roldan bəhs edərək internet və sosial şəbəkələrdən istifadə zamanı yarana biləcək risklər barədə məlumat veriblər.**

Bildirilib ki, rəqəmsal texnologiyalar uşaqların təhsil alması, dünyagörüşünün formalaşması və informasiya əldə etməsi baxımından geniş imkanlar yaratmaqla bərabər, zərərli və təhlükəli məlumatların təsiri onların psixoloji və mənəvi inkişafına mənfi təsir göstərə bilər.

Tədbirdə vurğulanıb ki, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması yalnız təhsil müəssisələrinin deyil, eyni zamanda valideynlərin və cəmiyyətin birgə məsuliyyətidir. Məruzəçilər şagirdlərə sosial şəbəkələrdən düzgün istifadə qaydaları, şəxsi məlumatların qorunması, internetdə ünsiyyət zamanı etik davranış normaları və təhlükəli məzmundan uzaq durmağın vacibliyi barədə tövsiyələr veriblər.

Tədbir zamanı yeniyetmələrlə interaktiv diskussiya aparılıb, onların mövzu ilə bağlı fikirləri dinlənilib və sualları cavablandırılıb.

*"Azərbaycan"*





# Mədəniyyət





Ədəbi simalarımız

**Şair, yazıçı, dramaturq, tərcüməçi, görkəmli maarif və mədəniyyət xadimi Abdulla Şaiq Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutan ediblərdəndir. Onun adı həmişə hörmət və ehtiramla xatırlanır.**

## *“Həpimiz bir günəşin zərrəsiyiz”*

Abdulla Şaiq yaradıcılığa başladığı, əlinə qələm götürdüyü gündən ömrünün sonunadək yazdığı bir-birindən maraqlı bədii əsərləri ilə ədəbiyyatımızın zənginləşdirilməsinə və inkişafına töhfə verib. Onun zaman-zaman qələmə aldığı bir-birindən dəyərli bədii əsərləri ədəbi fikrin, maarif və mədəniyyətin tərəqqisinə güclü təsir göstərib. Yaradıcılığına nəzər yetirdikcə görürük ki, Abdulla Şaiq böyüklərlə yanaşı, uşaqlar və gənclər üçün də yazıb-yaratmışdır. Bir-birindən dəyərli əsərləri ilə gələcək nəsillərin milli ruhda böyüməsinə çalışmışdır. Şairin heç vaxt bədii dəyərini itirməyəcək əsərləri bu gün də məktəblərdə tədris edilir. Bu əsərlər ədəbiyyatsevərlər tərəfindən maraqla oxunur.

Şairin əsərlərinin dili sadə, mənası isə dərindir. Onun uşaq və gənclər üçün yazdığı əsərlər gözəl lirik şeirlərdən, mənzum və mənsur hekayələrdən, nağıllardan, təmsillərdən və kiçikhəcmli pyeslərdən ibarətdir. Balacalar üçün yazdığı "Quzu", "Xoruz", "Keçi", "Uşaq və dovşan" və başqa şeirləri bu gün də maraqla oxunur, dillərdən düşmür. "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir" kimi mənzum hekayə və nağılları milli uşaq ədəbiyyatımızın qızıl fonduna daxil edilmişdir.

Yazdığı əsərləri ilə ürəkləri fəth edən Abdulla Şaiq milli ideologiyamızın təməlini qoyan ziyalılarımızdan biridir. Tarixdən yaxşı məlumdur ki, ötən əsrin əvvəllərində milli mənlik şüuru yenicə oyanırdı. Milli dirçəlişi istəməyən çarizm xalqların özünüdərk prosesinin qarşısını almaq üçün müxtəlif çirkin yollara və üsullara əl atırdı. Çalışırdı ki, xalqın milli mənlik şüurunun oyanmasının qarşısını alsın. Məktəblərdə ana dili fənninin tədrisi məcburi deyildi. Şagirdlərin istədikləri zaman ərizə yazıb bu fəndən imtina etmək ixtiyarları var idi. Ana dilini tədris edən müəllimlər o birilərindən az məvacib alırdı. Heç bir məntiqə sığmayan belə qəbuledilməz qaydaların hökm sürdüyü dövrdə Abdulla Şaiq qələmini süngüyə çevirmişdi.

1917-ci ildə çar hökuməti "Məktəblərin milliləşdirilməsi barədə qərar" verdi. Bu qərarın ardınca Xalq Maarif Nəzarətinin Qafqaz Tədris dairəsi qərar haqqında əsasnaməni təsdiq etdi. Azərbaycanın odövrdəki ziyalıları, əsasnamədə tələb olunduğu kimi, milli təhsilin yaradılması istiqamətində tədbirlər hazırlamağa başladılar. Bu şərəfli missiyanı yerinə yetirənlərdən biri Abdulla Şaiq oldu. Məhz onun təşəbbüsü və davamlı çalışqanlığı nəticəsində ərsəyə gələn layihə 1918-ci ildə - Azərbaycan Xalq Cümhuriyyəti dönəmində reallaşdı. Abdulla Şaiqin təşəbbüsü ilə 3 aylıq Azərbaycan dili kursu açıldı. Kursa cəlb edilən 25 şagirdə dərsləri türk dilində A.Şaiq, Q.R.Mirzəzadə, C.Cəbrayılbəyli, H.S.Səyyah kimi müəllimlər tədris edirdilər. Milli məktəb 1924-cü ildə ilk məzunlarını buraxdı. C.Cabbarlı, T.Ş.Simurq, R.Axundov, M.Müşfiq, V.Axundov, S.Vəzirov, A.Əfəndizadə, B.Talıblı, S.Rüstəm, M.Dilbazi, Ş.Bədəlbəyli, Ə.Bədəlbəyli, A.Musaxanlı, M.A.Dadaşzadə, F.Qasımzadə, Niyazi, M.Hüseyn, H.Araslı və başqaları Şaiq məktəbinin ilk yetirmələri oldular.

Yaradıcılığı kimi Abdulla Şaiqin həyatı da olduqca maraqlıdır. O, 1881-ci il fevralın 21-də Tiflisin Şeytanbazar məhəlləsində dünyaya göz açmışdı. Valideynləri Axund Mustafa və Mehri xanım bir neçə il idi ki, Tiflisə köçərək orada yaşayırdılar. Abdulla Şaiq Yusifdən sonra ailənin ikinci övladı idi. Şairin atası dövrünün sayılıb-seçilən ruhani ziyalısı idi. Tarixi mənbələrdə qeyd edilir ki, o, 1881-ci ilədək Tiflis şəhəri üzrə qazinin müavini, sonra isə Qafqaz şeyxülislamının müavini işləmişdir. Gələcəyin böyük şairi olacaq Abdulla Şaiq ilk təhsilini Tiflisdə müsəlman uşaqları üçün nəzərdə tutulan altısinifli ruhani məktəbində almışdı. Onu da qeyd edək ki, bu məktəb yalnız dini təhsil vermirdi. Onun tədris proqramı rus-tatar (Azərbaycan) məktəblərinin layihəsinə uyğun tərtib edilmişdi.

Abdulla Şaiq bu məktəbdə ilk təhsilini alıb. Sonra anası, qardaşı Yusiflə bərabər Xorasana gedib. Buna görə də Yusiflə Abdulla təhsillərini Xorasanda davam etdirməli olublar. 1889-cu ilin payızında Mehri xanım oğlu Yusiflə birlikdə Tiflisə dönüb. Abdulla isə təhsilini tamamlamaq üçün 1900-cü ilin payızınadək Xorasanda yaxın tanışlarının evində qalaraq burada dövrünün tanınmış ziyalılarından məntiq və poetika, həmçinin ərəb şeirlərinin tarixinə dair dərslər alıb. Yeddi il Xorasanda mükəmməl təhsil alan Abdulla Şaiq tarix, psixologiya elmlərini, həmçinin Şərq, Azərbaycan, rus ədəbiyyatını dərindən mənimsəyib. Payızda anası Xorasana gələrək Abdullanı da Tiflisə gətirib. Bir neçə aydan sonra o, Bakıya köçüb. Tiflisdə tanış olduğu dövrünün görkəmli ziyalısı Nəriman Nərimanovla görüşüb. Ona müəllimlik etmək arzusunda olduğunu bildirib.

Tiflisdə və Xorasanda fundamental təhsil almış Abdulla Şaiq poetika, məntiq, dini və dünyəvi elmlər, ərəb şeiri və ədəbiyyatı tarixini mükəmməl öyrənmişdi. Qələmə aldığı əsərlərinin hər cümləsində, hər sözündə bu mükəmməlik, dərin təfəkkür özünü aydın şəkildə göstərirdi. Tədqiqatçılarının yazdığına görə, özünəməxsus üslubu ilə başqalarından seçilən Abdulla Şaiqin yaradıcılığı daha çox milliliklə bəşəriliyin, ənənə ilə müasirliyin üzərində qurulmuşdu. Şair yazdığı əsərlərində həm turançı bir mütəfəkkir, həm də bəşəri ideyaların carçısı və təbliğatçısıdır. Şərqi mədəniyyətin beşiyi adlandıran Abdulla Şaiq Qərb sivilizasiyasının nailiyyətlərindən də məqsədyönlü istifadəni məqbul hesab edirdi.

Bəzən elə olur ki, hansısa şairi, yazıçını bir hekayəsi, bir şeiri xalqa və



dünyaya tanıtdırır. Abdulla Şaiqin yaddaqalan, sevilən şeirləri, misraları çoxdur. Onun "Həpimiz bir günəşin zərrəsiyiz!" misrası isə dillər əzbəridir. Çünki bu misradan həmrəylik, birlik, sülh, əmin-amanlıq, insanlıq, beynəlmiləlçilik, bəşərilik duyulur. Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Nizaməddin Şəmsizadə Abdulla Şaiqin bu misrası haqqında belə yazırdı: "Türkün dünyagörüşünün sərhədsizliyini əyaniləşdirən ən böyük fəlsəfə məhz budur. "Hamımız bir günəşin zərrəsiyik!" - romantik ədibimiz Abdulla Axund Mustafa oğlu Şaiqin bu misrası təkcə Azərbaycanı, yalnız türk dünyasını yox, bütün bəşəriyyətin ən ideal, ən humanist şüarı olmalıdır. Həqiqətən də, hamımızın bir Günəşi var. Ondan həyat və hərarət alırıq, hamımızın bir Ayı var, ondan nur alırıq, hamımızın bir əcdadı var - Allahın öz əvəzinə yarandığı ilk insan - Adəm ata! Bütün bəşəriyyət bir olan Allahın yaratdığı cahanın övladlarıdır. Ona görə "ipəkdən yumşaq poladdan kəskin" (S.Vurğun) böyük və incə ruhlu A.Şaiq ötən yüzilliyin önlərində - 1910-cu ildə yazıb:

*Həpimiz bir yuva pərvərdəsiyiz!*
*Həpimiz bir günəşin zərrəsiyiz!*
*Ayramaz bizləri təğyiri - lisan*
*Ayramaz bizləri təbdili - məkan"*

Abdulla Şaiq müəllimliyə böyük önəm verirdi, bu peşəni hər şeydən üstün tuturdu. Qürurla deyirdi ki, "Mən yazıçılığımdan ziyadə müəllimliyimlə iftixar edirəm". Müəllim olması ilə həmişə öyünən Abdulla Şaiq anadilli təhsilin yaranmasında da böyük xidmətlər göstərmişdir. Ə.Hüseynzadə, H.Cavid, M.Ə.Sabir, M.Hadi, A.Səhhət kimi yazıçı və şairlərin tərcümeyi-halları ilk dəfə onun böyük zəhmət və əziyyət bahasına tərtib etdiyi dərsliklərə salınmışdır. Abdulla Şaiqin Hüseyn Cavidlə birlikdə tərtib etdiyi, 1919-cu ildə çap olunan "Ədəbiyyat dərsləri" kitabı Azərbaycan ədəbiyyatşünaslığında ilk poetika kitablarından biridir.

Abdulla Şaiq həyatının 34 ilini Azərbaycan maarifinin inkişafına həsr edib. 1906-cı ilin avqustunda Bakıda keçirilən I Müəllimlər Qurultayının təşkilində yaxından iştirak edib, təşkilati işlərdə böyük fəallıq göstərib. Şair qurultayda ana dilinin və ədəbiyyatın tədrisinə dair dövrlə, zamanla səsləşən təşəbbüs qaldırıb. Bu təşəbbüsün həyata keçməsi üçün uğurlu addımlar atılıb. H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.Sani, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya yaradılaraq Azərbaycan dilində müvafiq proqram hazırlamaq onlara tapşırılıb. Bunun nəticəsində də I Müəllimlər Qurultayından bir il keçər-keçməz yeni dərsliklər yaranıb. "Əlifba", "Uşaq çeşməyi", "İkinci il", "Gülzar" və digər bu kimi dərsliklərdə A.Şaiqin öz əsərləri ilə bərabər dünya ədəbiyyatından örnəklər də çap olunub.

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlər göstərmiş Abdulla Şaiq tərcüməçi kimi də çox işlər görmüşdür. Görkəmli ədib Firdovsinin "Şahnamə" əsərindən, C.Ruminin "Məsnəvi"sindən, N.Gəncəvinin "İsgəndərnamə"sindən parçaları, D.Defo, İ.Krılov, M.Lermontov, A.Puşkin, L.Tolstoy, K.Çukovski və başqa Avropa müəlliflərinin bəzi əsərlərini ana dilimizə çevirmişdir.

Abdulla Şaiq iki dəfə SSRİ Ali Sovetinin deputatı seçilib. Ədəbiyyatımızın inkişafındakı xidmətlərinə görə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni və müxtəlif medallarla təltif edilib. 1940-cı ildə Azərbaycan SSR-nin Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

Abdulla Şaiq 1959-cu ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub. Uzun illərdir ki, Azərbaycan Dövlət Kukla Teatrı şairin adını daşıyır. 1990-cı ildən isə Bakıda Abdulla Şaiqin ev-muzeyi fəaliyyət göstərir. Azərbaycan xalqı görkəmli ədibini heç vaxt unutmur, daim onu hörmətlə xatırlayıb yad edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Sənət dünyası

# Teatra bağlı ömür

**Azərbaycan teatr sənətinin inkişafında mühüm xidmətləri olan görkəmli rejissor Şəmsi Bədəlbəyli milli mədəniyyət tariximizdə silinməz iz qoymuş sənətkarlardandır. Onun çoxşaxəli yaradıcılığı həm dram, həm musiqili teatr, həm də konsert və kino sahələrini əhatə edib, Azərbaycan səhnə mədəniyyətinin formalaşmasında xüsusi rol oynayıb.**



Şəmsi Bədəlbəyli 1911-ci il fevralın 23-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Atası pedaqoq və ictimai xadim Bədəl bəy Bədəlbəyli Şuşanın adlı-sanlı nəslinin nümayəndəsi, anası Rəhimə xanım Qacar xan nəslinə mənsub Bəhmən mirzə Qovanlı-Qacarın nəvəsi idi.

O, ailəsində elmə, ədəbiyyata, musiqiyə, teatr sənətinə sonsuz sevgi görüb və bu ruhda böyüyüb. Oxuyub-öyrənmək qədər öyrətmək marağı Şəmsi Bədəlbəylini müəllimlik peşəsinə həvəsləndirib. Bu yolda onun üçün örnək atası olub. Bədəl bəy ömrünün böyük hissəsini müəllim kimi xalqın maariflənməsinə həsr etmişdi. Şəmsi Bədəlbəyli də atası Bədəl bəy kimi pedaqoq olmaq ümidi ilə Bakıda orta məktəbdə təhsil aldıqdan sonra - 1923-cü ildə Azərbaycan Pedaqoji Texnikumuna daxil olub.

Teatr sənətinə olan heyranlığı qəlbini heç zaman tərk etməyib. Ondan əvvəl atası Bədəl bəy, əmisi Əhməd Ağdamski milli teatrımızın inkişafında təqdirəlayiq işlər görmüşdülər. Onların teatr sənətinə olan vurğunluğu Şəmsi Bədəlbəyliyə uşaqlıq illərindən böyük təsir göstərmişdi.

Texnikumun tələbəsiykən böyük maraqla, istəklə özfəaliyyət dərnəyində aktyorluq istedadını nümayiş etdirən Şəmsi 1927-ci ildə Azərbaycan Pedaqoji Texnikumunu bitirib. Elə həmin il Azərbaycan Dövlət Konservatoriyasına qəbul olub. İki il Xalq çalğı alətləri şöbəsində, daha sonra kompozisiya nəzəriyyəsi sinfində Üzeyir bəy Hacıbəylinin tələbəsi olan Şəmsi Bədəlbəyli 1932-ci ildə konservatoriya təhsilini tamamlayıb.

Şəmsi Bədəlbəyli başqa bir istedadını, fikir və düşüncələrini qələmi ilə ifadə etmək məharətini 1930-1932-ci illərdə "Gənc işçi" qəzetinin səhifələrində dərc olunan bir sıra tamaşalar haqqında məqalələri ilə göstərib. O, həmin illərdə "Gənc işçi"nin redaksiyasında "İncəsənət və ədəbiyyat" şöbəsinin müdiri vəzifəsində çalışıb.

Şəmsi konservatoriyada oxuduğu illərdə Azərbaycan Dövlət Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) böyük qardaşı, bəstəkar və dirijor Əfrasiyab Bədəlbəylinin rəhbərlik etdiyi orkestrdə tar çalıb. Cəfər Cabbarlının "Od gəlini" və "Sevil" tamaşalarında səhnə arxasından aktyorları tarda müşayiət edib.

Həmin illərdə dramaturq və rejissor Cəfər Cabbarlı ilə dostlaşması, onun teatr sənəti ilə bağlı söhbətləri gənc Şəmsi Bədəlbəylinin səhnə fəaliyyətində önəmli rol oynayıb, rejissorluq sənətinə marağını daha da artırıb. Cəfər Cabbarlının əsərlərinin tamaşalarında rejissor assistenti kimi bu sənətdə ilk uğurlu addımlarını atan Şəmsi 1932-ci ilin mayından 1942-ci ilədək Azərbaycan Dövlət Dram Teatrında rejissor assistenti və rejissor kimi fəaliyyət göstərib. Bu teatrın səhnəsində Mirzəağa Əliyevin, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Mərziyə Davudovanın, sonralar Mustafa Mərdanovun, Rza Təhmasibin, İsmayıl Dağıstanlının, Ələsgər Ələkbərovun, Fatma Qədrinin, Barat Şəkinskayanın və başqa sənətkarların ifalarını görən, Aleksandr Tuqanov, İsmayıl Hidayətzadə kimi görkəmli rejissorların hazırladıqları tamaşaları izləyən Şəmsi Bədəlbəyli özü də istedadı ilə seçilib, tanınıb, sevilib.

Rejissorluq sənətinin sirlərini daha dərindən öyrənmək, təcrübəsini zənginləşdirmək üçün Şəmsi Bədəlbəyli Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən 1933-cü ildə Moskvaya göndərilib. Bakıya 1936-cı ildə dönüb. Azərbaycan Dövlət Dram Teatrında fəaliyyətini davam etdirib. Bir sıra səhnə əsərlərinin səhnələşdirilməsində iştirak edib. 1939-cu ildən müstəqil rejissor kimi fəaliyyətə başlayıb. İlk müstəqil işi həmin il Dram Teatrında tamaşaya qoyulan Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri olub. Bundan sonra Şəmsi Bədəlbəyli Azərbaycan Dövlət Dram Teatrında on illik əmək fəaliyyəti müddətində həm milli, həm də Qərb ədəbiyyatının ən dəyərli nümunələrinə səhnə quruluşu verib. Oktyabrın 23-də uğurla nümayiş etdirilən həmin tamaşa rejissor Şəmsi Bədəlbəylinin yaradıcılığında yeni mərhələnin başlanğıcı hesab edilib.

1941-ci il yanvarın 19-da həmin teatrda Şəmsi Bədəlbəylinin rejissorluğu ilə premyerası keçirilən "Xoşbəxtlər" tamaşası da teatrsevərlər tərəfindən böyük rəğbətlə qarşılanıb. Həmin il iyunun 16-da "Kral Lir", iyulun 8-də "İki qardaş" əsərləri onun rəhbərliyi ilə səhnədə oynanılıb. Hər iki tamaşa teatra və yaradıcı heyətə uğur gətirib.

1941-1942-ci illərdə sovet ordusunun hissələri tərkibində İrana göndərilənlər arasında Şəmsi Bədəlbəyli də var idi. O, Təbriz şəhərində "Qırmızı Şərq", "Vətən uğrunda" qəzetlərinin müxbiri kimi fəaliyyət göstərib. Orada Şəmsi Bədəlbəylinin rəhbərliyi ilə həvəskar aktyorların ifasında "Arşın mal alan", "Evliykən subay", "Əlli yaşında cavan" musiqili komediyaları tamaşaya qoyulub.

Sonralar Şəmsi Bədəlbəyli başqa teatrlarda fəaliyyətini davam etdirib. Ancaq Azərbaycan Dövlət Dram Teatrı ilə yaradıcılıq əlaqələri qalıb. O, həmin teatrda yeni əsərlər səhnələşdirib.

Şəmsi Bədəlbəyli 1943-1949-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrı) bədii rəhbər vəzifəsində çalışıb. Bu teatrın səhnəsində o, "Gözün aydın", "Ulduz", "O olmasın, bu olsun" və digər Azərbaycan, eləcə də bir sıra xarici ölkə musiqili komediyalarını tamaşaya hazırlayıb. O, sonrakı illərdə də fasilələrlə bu teatrda fəaliyyət göstərərək bir sıra əsərlərin səhnələşdirilməsinə rəhbərlik edib. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında 1956-cı ildə "Arşın mal alan", 1947, 1956 və 1959-cu illərdə "Durna" musiqili komediyalarını səhnəyə qoyub. 1949-1956-cı illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri vəzifəsində çalışdığı illər də Şəmsi Bədəlbəylinin yaradıcılığında yeni-yeni uğurlarla yadda qalıb.

1953-1954-cü illərdə və peşəkar rejissor kimi təcrübəsini artırmaq üçün o, A.N.Ostrovski adına Leninqrad Dövlət Teatr İnstitutunda ixtisasartırma təlimi keçib. Sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına rejissor kimi dəvət olunub. Həmin teatrın səhnəsində müxtəlif illərdə "Koroğlu", "Əsli və Kərəm", "Daisi" kimi operalara quruluş verib.

O, 1957-ci ildə Aşqabada dəvət olunub və Türkmənistan Opera və Balet Teatrında "Koroğlu" operasını səhnələşdirib. Müxtəlif vaxtlarda - 1956-1959-cu illərdə və 1965-1974-cü illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəri vəzifəsində çalışıb. Həmin illərdə Musiqili Komediya Teatrında Şəmsi Bədəlbəylinin rejissorluğu ilə yeni tamaşalar təqdim olunub.

1950-ci il və sonrakı illərdə müxtəlif bayramlarda, dövlət tədbirləri çərçivəsində konsertlərə quruluş vermək ona həvalə edilib. 1950 və 1959-cu illərdə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüklərinin, 1967-ci ildə Azərbaycan İncəsənət ustalarının, 1972-ci ildə Aşıq Ələsgərin 150 illiyi, 1973-cü ildə İmadəddin Nəsiminin 600 illiyi, 1975-ci ildə Üzeyir bəy Hacıbəylinin 90 illiyi münasibətilə yubiley, 1974-cü ildə Fransada Azərbaycan mədəniyyəti günləri çərçivəsində keçirilən, o cümlədən Bakıda təşkil edilən bir sıra konsertlər bu qəbildəndir.

Şəmsi Bədəlbəylinin kino sənətinin inkişafında da xidməti az olmayıb. Bir sıra bədii və sənədli filmlərdə aktyor kimi iştirak edib. "O qızı tapın", "Axırıncı aşırım", "Xatirələr sahili" və başqa filmlərdə ekran ömrü verdiyi rollar Şəmsi Bədəlbəylinin adını kino salnaməmizə əbədi yazıb.

1978-ci ildə onun təşəbbüsü ilə Bakıda Azərbaycan Teatr Cəmiyyətinin nəzdində "Dostluq" Teatrı yaradılıb. Burada müxtəlif respublikaların tanınmış teatr kollektivlərinin qastrol tamaşaları təşkil edilib.

Görkəmli rejissor Şəmsi Bədəlbəyli musiqili teatr sənətimizin inkişafında, onun tərəqqisi yolunda göstərdiyi xüsusi xidmətlərə görə 1943-cü ildə Əməkdar artist və 1964-cü ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

O, 1987-ci il mayın 23-də Bakıda vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

Şəmsi Bədəlbəylinin ömür yolu sənətə sədaqətin parlaq nümunəsidir. O, çoxşaxəli fəaliyyəti ilə Azərbaycan teatr tarixində silinməz iz qoyub. Zəngin yaradıcılıq irsi bu gün də yaşayır, milli səhnə sənətimizin inkişafında öz təsirini göstərməkdə davam edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Böyük qəzəlxan Əliağa Vahid anılıb

**Əliağa Vahid Azərbaycan poeziyasında qəzəl janrının ən görkəmli nümayəndələrindən və XX əsrin parlaq klassiklərindən biridir. Onun həyatı, yaradıcılığı və ədəbi irsi milli poeziyamızda dərin iz qoyub, bir çox nəsillərə ilham verib.**



Əliağa Vahid həm klassik şeirin ənənələrini yaşadan, həm də ona yeni nəfəs gətirən sənətkar kimi Azərbaycan ədəbi mühitində həmişə yüksək qiymətləndirilib.

Böyük qəzəlxan, Əliağa Vahidin anadan olmasından 131 il ötür.

"Qəzəl de ki, məşhuri-dövran ola" - Füzulinin bu kəlamından bizi beş əsrlik bir zaman ayırır və qəzəl dünyamızda Füzulidən sonra neçə ustad şair bu janrda hünər göstəriblər. "Böyük Füzulimizin yadigarı mən özüməm", - deyirdi Vahid. Dahi Füzulini özünün böyük ustadı adlandıran Ələğa Vahid, onun bədii üslubundan, işlətdiyi əruz bəhrlərindən, təsvir və ifadə vasitələrindən, qafiyə və rədiflərindən bilavasitə faydalanaraq öz yaradıcılığında bədii sözün məna dolğunluğuna, ifadə səlisliyinə nail olub. Ələğa Vahid qəzəl yaradıcılığında püxtələşdikcə, klassik qəzəl məktəbinin istedadlı davamçısı kimi öz dəstxətti ilə seçilmiş, qəzəlləri və satirik şeirləri xalq arasında sürətlə yayılmış, ürəklərə yol tapmış, sevilmiş və dillər əzbəri olmuşdu. Şair qəzəl janrının mövzu dairəsini xeyli genişləndirmiş, Vətənə, xalqa məhəbbətini sadə, adi xalq dilində əruzun ritmik bəhrlərində qoşa misralarla uğurla şeirə çevirmişdi.

Vahidin qəzəlləri poetik dilinin sadəliyi, xəlqiliyi və ahəngdarlığı ilə seçilir, xanəndələrin repertuarında mühüm yer tutub. O, Nizami, Xaqani, Füzuli, Nəvai və başqalarının qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

Ələğa Vahid 1965-ci il oktyabrın 1-də Bakı şəhərində vəfat edib.

# "Sevgi mahnıları bütün mədəniyyətlərdə mövcud olan əbədi mövzudur"

**"Sevgi mahnıları bütün mədəniyyətlərdə mövcud olan əbədi mövzudur. Sevgi mahnıları yalnız romantik olmur, belə ki, Vətənə, valideynlərə, övladlara, dostlara, təbiətə sevgi haqqında mahnılar var. Onların hamısı böyüyən nəslin tərbiyəsi üçün vacibdir".**



Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı Azərbaycanın Xalq artisti, opera ifaçısı, Vokal Musiqi Məktəbinin təsisçisi və rəhbəri Fidan Hacıyeva söyləyib.

Həmsöhbətimiz bildirib ki, bu yaxınlarda Vokal Musiqi Məktəbində həm peşəkar musiqiçilərin - Fidan Hacıyeva (vokal), Cavid Ələkbərli (gitara), Şahin Yəhyazadə (konsertmeyster), Arzu Mirzəyeva (konsertmeyster), həm də məktəbin tələbələri olan Çarli Emin Neylor (fortepiano), Fərhad Həmmədzadə (vokal), Anar Həmidlinin (vokal) iştirakı ilə musiqili-poetik axşam keçirilib. Tədbir zamanı sevgi mövzusunda mahnılar səsləndirilib. Şairə Gülnarə Sultanova da öz şeiri ilə çıxış edib.

"Çox romantik klassik proqram təqdim olundu. Belə konsertlər çox olmalıdır. İnsanların klassik musiqiyə cəlb edilməsi vacibdir. Xüsusilə uşaqların bu cür konsertlərə cəlb olunması mühüm əhəmiyyət daşıyır. Hesab olunur ki, sevgi mahnılarının ifası uşaqlar üçün tezdir, lakin, məsələn, bizdə cəmi 8 yaşı olan çox gənc iştirakçı - F.Həmmədzadə çıxış etdi. O, mürəkkəb əsərləri ifa etdi və onların öhdəsindən çox yaxşı gəldi", - deyə F.Hacıyeva söyləyib.

Azərbaycanın sevgi mahnılarının xüsusiyyətlərindən danışan F.Hacıyeva qeyd edib ki, hər xalqın öz temperamenti var və bu, mahnılarda, musiqidə müxtəlif şəkildə əks olunur: "Məsələn, Azərbaycan mahnılarında çoxlu melizmlər var. Bu mahnılarda dərin hisslər əks olunur, insanın daxili vəziyyəti parlaq şəkildə ifadə edilir. Azərbaycanlı kimi mən bunu belə hiss edirəm".

# Turizmə yatırılan sərmayə öz bəhrəsini verir

**Turizm son onilliklərdə dünyada ən dinamik və sürətlə inkişaf edən sahələrdən birinə çevrilib. Rəqəmsal texnologiyaların genişlənməsi və ölkələr arasında gediş-gəlişin asanlaşması beynəlxalq səyahətlərin sayını əhəmiyyətli dərəcədə artırıb. Turizm istirahət sektoru olmaqla yanaşı, həm də iqtisadiyyatın əsas dayaqlarından biridir. Bir çox ölkələrdə turizm ümumi daxili məhsulun əhəmiyyətli hissəsini formalaşdırır. Bu, onu deməyə əsas verir ki, mədəniyyətlərin qovuşduğu turizm sahəsi milyardlarla dollar dövriyyəsi olan nəhəng iqtisadi sahədir.**



Pandemiya dövründə ciddi geriləmə yaşayan turizm artıq tam bərpa mərhələsini geridə qoyub. Belə ki, 2025-ci ildə dünyada ümumilikdə 1,52 milyard nəfər beynəlxalq turist qeydə alınıb, bu da 2024-cü ilin göstəricisindən 60 milyon nəfər və ya 4 faiz çoxdur. Eyni zamanda beynəlxalq turizm ixracından əldə edilən gəlirlərin 2,2 trilyon dollar səviyyəsində qiymətləndirilməsi bu sahənin iqtisadi əhəmiyyətini bir daha təsdiq edir. Beləliklə, turizm sektorunun qlobal ÜDM-ə töhfəsinin 11,5 trilyon dollara çatacağı gözlənilir.

Azərbaycanda turizm qeyri-neft sektorunun əsas istiqamətlərindən biri kimi sürətlə inkişaf edir. Təsadüfi deyil ki, turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Həyata keçirilən genişmiqyaslı islahatlar, infrastruktur layihələri və beynəlxalq tədbirlər bu sahənin inkişafına mühüm təkan verib. O cümlədən viza prosedurlarının sadələşdirilməsi və elektron xidmətlərin tətbiqi ölkəmizi xarici turistlər üçün daha əlçatan edib. Beynəlxalq reytinqlərdə də ölkəmizin turizm göstəriciləri mövqeyi daha da yüksəlir. Azərbaycan geniş turizm imkanlarına malikdir. İlk növbədə sabitlik və təhlükəsizlik amili turistlərin seçimində mühüm rol oynayır. Xalqımızın qonaqpərvərliyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu və zəngin təbii landşaft ölkəmizi fərqləndirən əsas üstünlüklərdəndir. Azərbaycana gələn əcnəbi turistlərin say çoxluğu bunun bariz nümunəsidir.

Bakının müasir siması, dinamik inkişafı və təhlükəsiz mühiti beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Burada keçirilən beynəlxalq tədbirlər, forumlar, idman yarışları və rəsmi görüşlər şəhərin artan nüfuzunun bariz göstəricisidir.

Paytaxtımızın beynəlxalq aləmdə formalaşan yüksək imici dövlətlərarası münasibətlərdə də öz əksini tapır. Belə ki, fevralın 15-də Belqradda Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiçin mətbuata bəyanatlarla çıxışı zamanı da bu məqam xüsusi vurğulanıb. Serbiyanın dövlət başçısının Bakının gözəlliyi barədə fikirləri Azərbaycanın müasir, sabit və cəlbedici ölkə imicinin beynəlxalq aləmdə təqdir olunduğunu bir daha təsdiq etdi: "Mən Serbiyanın bütün vətəndaşlarına şəxsən deyə bilərəm ki, Bakı gözəl şəhərdir. Onlar orada bir çox yeniliklər görə bilərlər. Şəhər Xəzər dənizinin sahilində yerləşir. O, təmiz, səliqəli şəhərdir. Mən nə zaman Bakıya səfər edirəm, yeni möcüzələr görürəm, Prezident Əliyevin Azərbaycan hökuməti ilə bir yerdə inşa etdiyi yeni və gözəl yerləri görürəm".

Qeyd edək ki, Bakı-Belqrad birbaşa aviareysinin açılması Azərbaycan-Serbiya arasında əlaqələri daha da möhkəmləndirəcək, turizmin inkişafına yeni imkanlar yaradacaq.

Respublikamızda turizmin ayrı-ayrı sahələri də inkişaf edir. Məsələn, Naftalan artıq beynəlxalq səviyyədə tanınan müalicəvi turizm mərkəzinə çevrilib. Həmçinin Naxçıvanda yerləşən Duzdağ Müalicəvi Mərkəzi və Qalaaltı kimi sağlamlıq ocaqları da turistlərin marağına səbəb olur. Bu məkanlara xaricdən gələn qonaqlar həm müalicə alır, həm də ölkəmizin təbii gözəllikləri ilə tanış olurlar.

Turizm beynəlxalq arenada ölkəmizin müsbət imicinin formalaşmasında mühüm rol oynayır. Yeni hava əlaqələrinin açılması, birbaşa aviareyslərin təşkili ölkələr arasında turizm, biznes və mədəni əlaqələrin inkişafına əlavə imkanlar yaradır. Bu isə öz növbəsində iqtisadi əlaqələrin genişlənməsinə və xalqlar arasında qarşılıqlı təmasların artmasına xidmət edir.

Qeyd edək ki, ölkəmizin ən ucqar ərazilərində belə dünya standartlarına uyğun nəqliyyat infrastrukturunun yaradılması turist məmnunluğunu artırır. Bütün bunların nəticəsi olaraq qeyd edə bilərik ki, turizmə yatırılan sərmayələr real nəticələr verir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran ölkədir
Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır
Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində görüşləri ilə bağlı paylaşım edilib
Azərbaycan ilə Litvanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir
Serbiya ilə münasibətlərimizin hazırkı səviyyəsi məmnunluq doğurur
Prezident İlham Əliyevin Almaniyaya səfəri ilə bağlı paylaşım edilib
Nüfuzlu dövlət, etibarlı tərəfdaş
Qarşılıqlı etimad nümunəsi

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ramazan ayında qidalanmaya xüsusi diqqət yetirilməlidir

**Müsəlman aləmi üçün səbir, mərhəmət və mənəvi yenilənmə dövrü hesab olunan Müqəddəs Ramazan ayı həm də gündəlik qidalanma rejiminin köklü şəkildə dəyişdiyi xüsusi mərhələdir. Gün ərzində uzun saatlar yemək və sudan uzaq qalmaq orqanizmin enerji balansına, maddələr mübadiləsinə və ümumi sağlamlığa təsir edir. Bu səbəbdən Ramazan ayında düzgün və balanslı qidalanma həm ibadətin rahat yerinə yetirilməsi, həm də sağlamlığın qorunması baxımından mühüm rol oynayır.**



## Sahurda qida seçimi gün ərzində enerjini qoruyur

Tədqiqatlar göstərir ki, oruc zamanı həzm sistemi müəyyən qədər istirahət edir, bədənin özünü bərpaetmə prosesləri aktivləşir və metabolizm zamanı toplanmış bəzi zərərli maddələrin xaric olunması asanlaşır. Lakin yanlış qidalanma vərdişləri bu müsbət təsirləri zəiflədə və əksinə, sağlamlıq problemlərinə yol aça bilər. Ramazan ayında düzgün qidalanmamaq bəzən halsızlıq, artıq çəki, susuzlaşma və mədə-bağırsaq pozuntuları ilə nəticələnir. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən qida məsələləri üzrə mütəxəssis Ağa Salamov bildirib ki, Ramazan ayında uzun müddət ac qalan bədən fizioloji dəyişikliklərə məruz qalır və bu zaman qəbul edilən qidaların keyfiyyəti xüsusi əhəmiyyət kəsb edir. Günün ilk qidası sayılan sahur orucun rahat keçirilməsində həlledici rol oynayır. Səhər qəbul edilən qidalar həm uzun müddət toxluq hissi yaratmalı, həm də bədəni susuzlaşdırmamalıdır.

Sahur süfrəsində sağlam yağ turşuları və liflərlə zəngin qidaların yer almasını tövsiyə edən mütəxəssis qeyd edib ki, müxtəlif tərəvəzlərdən hazırlanmış salatlar, göyərtilər, zeytun, zeytun yağı və mineral-vitaminlərlə zəngin məhsullar orqanizmin ehtiyaclarını ödəməyə kömək edir. Kahı, xiyar, pomidor, çuğundur, brokoli və gül kələmi kimi tərəvəzlər həm lif mənbəyidir, həm də uzunmüddətli toxluq hissi yaradır. Sahur zamanı çay içiləcəksə, onun yanında quru əncir və zeytun kimi təbii məhsulların seçilməsi tövsiyə olunur. Qara kişmiş kimi təbii şirnilər isə süni şəkərli şirniyyatlara sağlam alternativ sayılır. Onun tərkibində antosiyanin maddəsi var ki, bu da gənclik iksiridir. Üstəlik bu qidalar vitamin və minerallarla zəngin olduğuna görə gün ərzində enerji səviyyəsinin qorunmasına kömək edir.

"Zülal mənbələri də sahur süfrəsinin vacib hissəsidir. Yumurta yüksəkkeyfiyyətli zülal, D vitamini və faydalı yağ turşuları ilə zəngindir. Duzsuz pendir, kəsmik və qatıq kimi süd məhsulları da həm zülal, həm də kalsium baxımından faydalıdır. Yüngül toyuq şorbası isə həm mədəni yormur, həm də uzun müddət toxluq hissi yarada bilər. Bununla yanaşı, duzlu qidalardan uzaq durmaq vacibdir. Duzlu şorbalar, kolbasa və konservləşdirilmiş məhsullar susuzluğu artıraraq orucun çətin keçməsinə səbəb ola bilər. Eyni zamanda işlənmiş ət məhsullarından imtina etmək sağlamlıq baxımından daha məqsədəuyğundur. Sahurdan sonra dərhal yatmaq məsləhət görülmür. Hərəkət etmək, yüngül idmanla məşğul olmaq və ya ibadət həzm prosesini yaxşılaşdırır və gün ərzində halsızlığın qarşısını almağa kömək edir", - deyə Ağa Salamov vurğulayıb.

## İftarı düzgün açmaq həzm problemlərinin qarşısını alır

Ramazan ayında ən çox rast gəlinən səhvlərdən biri iftar zamanı həddindən artıq yeməkdir. Mütəxəssis deyib ki, uzun müddət ac qaldıqdan sonra tələsik yemək həzmsizlik və köp problemlərinə səbəb olur. İftar mərhələli şəkildə açılmalıdır: əvvəl su və xurma, daha sonra az miqdarda şorba və salat, fasilədən sonra isə əsas yemək. Uzun müddət susuz qalmış orqanizmin su balansı bərpa edilməlidir. Suyun oturaq vəziyyətdə, kiçik qurtumlarla içilməsi tövsiyə olunur. Birdən çox miqdarda su qəbul etmək mədə üçün narahatlıq yarada bilər. İftara şorba ilə başlamaq həzm sistemini ana yeməyə hazırlayır. Şorbanı tələsmədən içmək və daha sonra qısa fasilə vermək mədənin həzm prosesinə uyğunlaşmasına kömək edir. Bu müddətdə ibadət etmək və ya sakit fəaliyyətlə məşğul olmaq faydalıdır.

Ağa Salamov bildirib ki, əsas yemək balanslı olmalıdır: "Zülal mənbəyi kimi ət, toyuq və ya balıq seçilə bilər. Qırmızı ətin miqdarının 180-200 qramdan artıq olmaması tövsiyə edilir. Qidanı yaxşı çeynəmək həzm prosesinin düzgün getməsi üçün vacibdir. Əks halda köp, ağırlıq və həzmsizlik yarana bilər. Ətin yanında tərəvəzlərə üstünlük verilməsi məsləhətdir. Brokoli, badımcan, şirin bibər və digər tərəvəzlər liflərlə zəngindir və həzmi asanlaşdırır. Göyərtilər də lif tərkibi sayəsində qidanın daha rahat mənimsənilməsinə kömək edir. İftardan dərhal sonra ağır şirniyyat yemək tövsiyə olunmur. Şirin qidaları qəbul etmək üçün ən azı bir neçə saat gözləmək daha məqsədəuyğundur. Təbii məhsullardan hazırlanmış halva və ya əncir əsaslı şirniyyatlar daha sağlam seçim sayılır".

Mütəxəssis qeyd edib ki, iftar süfrəsində qazlı və rəngli içkilərdən uzaq durmaq vacibdir. Bu içkilər boş mədədə köp və şişkinlik yarada, həmçinin susuzluğu artıraraq orqanizmə əlavə yük verə bilər. Bunun əvəzinə mövsümi meyvələrdən hazırlanmış kompotlar və ya bitki çayları seçilə bilər. İtburnu, nanə, kəklikotu və reyhan kimi bitkilərdən hazırlanan çaylar həzmə müsbət təsir göstərir.

Ramazan ayında sağlam qalmağın əsas şərti qidaların düzgün seçilməsi və qəbul qaydasına riayət etməkdir. Balanslı qidalanma, kifayət qədər maye qəbulu və fiziki aktivlik bu müqəddəs ayın həm mənəvi, həm də fiziki baxımdan faydalı keçməsinə kömək edir. Doğru qidalanma vərdişləri sayəsində oruc ibadəti daha rahat yerinə yetirilir və orqanizm bu xüsusi dövrü sağlam şəkildə tamamlayır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ABŞ prezidentliyinə keçmiş namizəd Cessi Cekson vəfat edib

**Keşiş, vətəndaş hüquqları lideri və Demokratlar Partiyasından iki dəfə prezidentliyə namizəd olmuş Cessi Cekson 84 yaşında vəfat edib. Bu barədə "CNBC News" telekanalı məlumat verib.**



Cessi Cekson irqi ayrı-seçkiliyə qarşı fəal mübarizə aparan və cəmiyyətin bütün təbəqələri üçün bərabərliyi təbliğ edən görkəmli vətəndaş hüquqları fəallarından biri idi. 1960-cı illərdə o, Amerika vətəndaş hüquqları hərəkatının lideri Martin Lüter Kinqin müttəfiqi olub və sui-qəsddən sonra ABŞ-də afroamerikalıların hüquqları uğrunda mübarizəsini davam etdirib.

1984 və 1988-ci illərdə C.Cekson bir neçə ilkin seçkilərdə qalib gələrək Demokratlar Partiyasından prezidentliyə namizədliyini irəli sürüb. Onun prezidentlik kampaniyalarının əsas mövzusu irqi azlıqlar, işçi sinfi və qadınlar üçün bərabərliyi dərinləşdirmək olub.

Ailəsinin C.Ceksonun vəfatı ilə bağlı yaydığı bəyanatda deyilir: "Onun ədalətə, bərabərliyə və sevgiyə sarsılmaz inamı milyonlarla insana ilham verdi və sizdən yaşadığı dəyərlər uğrunda mübarizəni davam etdirərək onun xatirəsini yad etməyinizi xahiş edirik."

C.Ceksonun ölüm səbəbi hələ açıqlanmayıb. Lakin o, noyabr ayında qan təzyiqinin sabitləşməsi üçün xəstəxanaya yerləşdirilmiş və ABŞ Milli Nevroloji Xəstəliklər və İnsult İnstitutunun bildirdiyinə görə, "bədən hərəkətinə, yeriməyə və tarazlığa, eləcə də göz hərəkətlərinə təsir edən nadir nevroloji xəstəlik" sayılan mütərəqqi supranuklear iflic (PSP) səbəbindən müşahidə altında olmuşdu.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək, bəzi yerlərdə arabir duman olacaq

**Azərbaycan ərazisində fevralın 18-nə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-8, gündüz 10-14 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunundan 757 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10, gündüz 19-24, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İndira Hacıyevaya anası

**ALİYƏ ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3317
Sifariş 235

Qiyməti 60 qəpik